Xalqın qəzeti!
# Xalq qəzeti
№ 125 (30529) 14 iyun 2024-cü il, cümə
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti xalqqazeti.az

## Azərbaycanın nadir və zəngin təbiəti xalqımızın əbədi xəzinəsidir

*Prezident İlham Əliyev Palçıq Vulkanları Turizm Kompleksinin açılışında*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Abşeron rayonu ərazisində Palçıq Vulkanları Turizm Kompleksinin açılışında iştirak edib.**

Azərbaycan Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev dövlətimizin başçısına kompleksdə görülmüş işlər barədə məlumat verdi.

Qeyd edək ki, təbiətin maraqlı hadisəsi olan palçıq vulkanları dünyanın bir çox ölkəsində mövcuddur. Azərbaycan palçıq vulkanlarının nadir və klassik inkişaf regionu kimi tanınır. Yer kürəsində məlum olan 2 mindən artıq palçıq vulkanının 350-dən çoxu Azərbaycanın şərqində və Xəzər akvatoriyasında yerləşir. Palçıq vulkanları əsasən Abşeron yarımadası, Bakı ətrafındakı adalar qrupu, Şamaxı, Qobustan və cənub-şərqi Şirvanda yayılıb. Palçıq Vulkanları Turizm Kompleksində "Qılınc" palçıq vulkanını yaxından izləmək mümkündür. Bu vulkanlar bir sırada düzülmüş 8 sopkadan (təpə) ibarətdir. Sopka brekçiyası (iri qrunt süxurları) böyük bir sahəni əhatə edərək şimal-şərqə qədər uzanan iki zolaq əmələ gətirib. İyirmi hektar sahəyə yayılan brekçiyanın uzunluğu 300-500 metrdir. Bu zolaqların eni isə bəzi yerlərdə 50 metrə çatır. Ümumilikdə ölkəmizdəki vulkanların 60 faizi aktiv sayılsa da, elmi mənbələrdə "Qılınc" vulkanının güclü püskürmələri barədə məlumata rast gəlinmir.

(ardı 2-ci səhifədə)

## Cəsarət fenomeni



Səhifə ⇨ 3

## Erməni polisi döyür...



Səhifə ⇨ 9

## Erkən və qohum nikahlar keçmişdə qalacaq



Səhifə ⇨ 9

## Hayastanda gərginlik səngimir



Səhifə ⇨ 6

## O`Braynın "sülh məntiqi"

### *ABŞ ötənilki mövqeyinə qayıdır?*

**İrəvanda ikigünlük səfərdə olan ABŞ Dövlət katibinin köməkçisi Ceyms O`Brayn açıqlamaları ilə diqqət çəkir. Onun nələrdən söz açmasına nəzər salacağıq. Ancaq əvvəlcə bir məqamı vurğulayaq ki, cənab O`Brayn Birləşmiş Ştatların, belə demək mümkünsə, kompromissiz sifəti obrazındadır. Bu şəxs, bir qayda olaraq, Cənubi Qafqaz gündəmini silkələyən açıqlamalarla yadda qalıb. Onun istər Ermənistan və ABŞ arasında strateji dialoqun yekun iclasında dediklərinə, istərsə də "Azadlıq radiosu"na bildirdiklərinə də mövcud prizmadan yanaşmaq olar. Mətləbə keçək.**




Çox tez-tez vurğulanır ki, xarici qüvvələr Azərbaycan–Ermənistan sülh müqaviləsini geosiyasi rəqabət müstəvisində dəyərləndirirlər və belə yanaşma yekun sazişin imzalanmasına maneçilik törədir. O`Braynın fikirləri bunun təsdiqidir. O, deyib ki, Ermənistan və Azərbaycan arasında sülh sazişi uzunmüddətli münaqişəyə son qoymaqla yanaşı, Rusiyanın regiona təsirini azalda, Mərkəzi Asiyadan Türkiyəyə yeni ticarət dəhlizinin açılması ilə nəticələnə bilər.

Başa düşdük. Rusiyanın regiona təsirini azaltmaq nə deməkdir? Görəsən, Dövlət Departamentinin rəsmisi nə üçün belə danışır? Olmazmı ki, bu sayaq mövqe bildirməsin? Məgər amerikalı diplomat Moskvanın bölgəyə marağından xəbərdar deyil? Çox yaxşı xəbərdardır. Bu şəxs onu da gözəl bilir ki, regionda Kremlin ayağını tapdalamaq hansı ağrılı nəticələr doğura bilər? 2008-ci ilin Rusiya-Gürcüstan müharibəsi yaddaşlardan silinməyib. Lap o müharibəni bir kənara qoyaq. Nə üçün Azərbaycanla Ermənistanın barış mühiti yaratması Rusiyanın əleyhinə işləməlidir?

Yaxşı, deyək ki, Vaşinqtonun Moskvanı Cənubi Qafqazdan sıxışdırmaq planı var. Amma bu niyyət O`Braynın bildirdiyi kimi reallaşmalıdır? ABŞ-ın başqa təsir vasitələri yoxdurmu? Bəlkə də yoxdur. O zaman düşünüb tapsın. Ancaq ölkənin regionla bağlı onsuz da həssas olan durumu nəzərə almamağı yolverilməzdir. Axı istər-istəməz belə nəticə hasil olur ki, Cənubi Qafqazda sülh mühitinin formalaşmasını istəməyən Birləşmiş Ştatlardır. Hər halda, O`Braynın açıqlaması bundan xəbər verir. Olmazmı ki, Bakı–İrəvan sülh anlaşması üçüncü qüvvəyə qarşı yönəlməsin? Nəhayət, məsələ iki tərəfin işi deyilmi?

Görəsən, C.O`Brayn razı olarmı ki, Azərbaycan–Ermənistan sülh anlaşması Vaşinqtonun Cənubi Qafqazda möhkəmlənmək niyyətlərinin gerçəkləşməsinə kömək kimi dəyərləndirilsin? Bu yerdə yada Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin rəisi Aleksandr Bortnikovun bir müddət əvvəlki açıqlaması düşür. O bildirmişdi ki, Qərbin bəzi dairələri Azərbaycana və Ermənistana sülh müqaviləsinin Qərb platformalarında imzalanması üçün təzyiq göstərirlər. Deməli, haqlı imiş. Çünki hazırda C.O`Braynın dedikləri, dolayısıyla, Bortnikovun fikirlərinin təsdiqidir. Belədə sual yaranır: Rusiya nəyə görə Bakı–İrəvan razılaşmasını özünə əks olan məsələ kimi görməsin? Suala elementar cavab var. ABŞ Dövlət katibinin müavininin sözləri hər şeyi deyir. Özü də bu adam fikirlərini İrəvanda açıqlayır. Başqa nə düşünəsən?

***

Amma deyiləsi sözlər çoxdur. Son zamanlar Azərbaycan–ABŞ münasibətlərində bir müddət əvvəlki soyuqluq, demək olar, yoxdur. Soyuqluq C.O'Braynın ötən il ABŞ Konqresinin Nümayəndələr Palatasında konqresmenlərin suallarını cavablandırarkən səsləndirdiyi fikirlərə görə yaranmışdı. O, ölkəsinin Naxçıvana yolun İran ərazisindən keçməsi ilə razılaşmayacağını vurğulamışdı. Onun sözlərindən belə anlaşılmışdı ki, Birləşmiş Ştatlar bütün mümkün imkanları ilə məsələnin reallaşmasına qarşı çıxacaq, hətta Bakı təzyiq və sanksiyalarla üzləşəcək.

(ardı 8-ci səhifədə)

## Qəhrəmanmaraşda Azərbaycan məhəlləsi



Səhifə ⇨ 11

## Avropa–Çin ticarət savaşı: kim udacaq, kim uduzacaq?

**Çərşənbə günü Avropa Komissiyası (AK) gələn aydan etibarən Çindən idxal edilən elektrik avtomobillərinə 17 faizdən 38 faizə qədər əlavə tariflər tətbiq edəcəyini bildirib. Bu qərar oktyabr ayından Brüsselin Çin avtomobil sənayesinin məhsulları ilə bağlı apardığı antidempinq araşdırmasının ilkin nəticəsinə görə verilib.**

Mütəxəssislərin sözlərinə görə, bu, ilk növbədə həm antidempinq yoxlamalarını, həm də rüsumların əhəmiyyətli dərəcədə artırılmasını müdafiə edən Fransanın qələbəsi kimi qiymətləndirilir.

(ardı 11-ci səhifədə)




## Sənaye zonaları bölgələrin iqtisadiyyatını muasirləşdirir



Səhifə ⇨ 7

# Prezident İlham Əliyev Palçıq Vulkanları Turizm Kompleksinin açılışında

(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyevə məlumat verildi ki, Palçıq Vulkanları Turizm Kompleksi 12 hektar ərazidə tikilib. Burada inzibati bina inşa olunub. Yaradılan yeni turizm infrastrukturu yerli əhali, xüsusilə ətraf ərazilərdə məskunlaşmış insanlar üçün 60-dan çox yeni iş yerinin açılmasına imkan verib. Kompleksin Turizm İnformasiya Mərkəzi sərgi zalından və emalatxanadan ibarətdir. Mərkəzdə palçıq vulkanlarının xüsusiyyətləri, təbii və müalicəvi özəllikləri haqqında məlumat əldə etmək, palçıq vulkanının maketi ilə tanış olmaq mümkündür. Burada, həmçinin Azərbaycanın hər yerindən toplanmış 80-ə yaxın nadir mineral nümayiş etdirilir. Sərgidə mineral nümunələrinin adı, kimyəvi tərkibi və götürüldüyü yatağa dair məlumatlar da yer alır. Emalatxanada isə dulusçuluq və neftlə rəsmlərin çəkilməsi üzrə master-klaslar təşkil ediləcək.



Kompleksin Təbiət tarixi sərgi zalı eksponatların zənginliyi ilə böyük maraq doğurur. Sərginin “Böyük pişiklər”, “Qobustan faunası”, “Azərbaycanın vəhşi heyvanlarının ayaq izləri”, “Azərbaycanın həşərat dünyası”, “Kiçik ölçülü heyvan skeletləri” guşələrində Azərbaycan və dünya faunasına aid vəhşi və ev heyvanlarının skeletləri, Azərbaycan təbiətinə aid olan həşəratlar, suda-quruda yaşayanlar və sürünənlər sərgilənir. Sərgidə nümayiş etdirilən bütün heyvan skeletləri və canlılar orijinal eksponatlardır. Bu eksponatlar bioetika normalarına uyğun olaraq hazırlanıb və bioloji ölümdən sonra Azərbaycan mütəxəssisləri tərəfindən onilliklər ərzində müxtəlif yerlərdən toplanmış heyvan skeletlərindən ibarətdir. Təbiət tarixi sərgisi Azərbaycanın faunasının zənginliyini, biomüxtəlifliyini nümayiş etdirir. Sərgidə Azərbaycan və dünya faunasına aid 98 heyvan skeleti, 870 müxtəlif növ qurudulmuş həşərat, xüsusi məhlulda nümayiş etdirilən 57 canlı, bir sıra sürünən və suda-quruda yaşayan heyvanlar, həmçinin paleontoloji eksponatlar nümayiş etdirilir. Uşaqların və məktəblilərin ətraf aləm haqqında maraqlarını artırmaq və onlarda heyvan skeletləri barədə təəssürat yaratmaq məqsədilə divarlarda müxtəlif heyvanların şəkilləri və illüstrasiyaları sərgilənir. Burada, həmçinin milli parklarımızda dövlət mühafizəsinə götürülmüş bir sıra heyvanların, o cümlədən bəbir, bezoar keçisi, ceyran, Xəzər suitisinin arealları haqqında məlumat verilir.

Kompleksdə yaradılmış Minerallar sərgisində isə Azərbaycan ərazisindən tapılan 80-ə yaxın fərqli növ mineral nümayiş etdirilir. Ziyarətçilər burada ölkəmizin hər yerindən - Qobustandan tutmuş Naxçıvana qədər əksər bölgələrdən gətirilmiş gözəl və nadir qiymətli daşlar, kristallar və geoloji nümunələri görə bilərlər. İki hissədən ibarət sərginin birinci bölməsində palçıq vulkanlarının püskürdüyü qaya brekçiyasının nümunələri, digər bölmədə isə ölkəmizdəki müxtəlif faydalı qazıntı yataqlarında tapılan minerallar nümayiş etdirilir. Burada ziyarətçilərə Yerin təki, geoloji proseslər, süxurların və mineralların əmələ gəlməsi haqqında da məlumatlar təqdim olunur. Palçıq vulkanlarının ətrafında müasir turizm infrastrukturunun yaradılması bu ərazilərdə yerləşən vulkanlar haqqında ictimai maarifləndirmənin artmasına və onların təbiət irsi kimi təbliğinə şərait yaradacaq.



Qeyd edək ki, ərazidə 110 nəfərlik restoran da tikilib, turistlərin vulkanları izləməsi üçün piyada yolu çəkilib. Burada panoramlı müşahidə nöqtəsi və meydança da salınıb. Bu meydançaya qalxmaqla hündürlükdən ətrafdakı palçıq vulkanlarını seyr etmək, maraqlı vaxt keçirmək mümkündür.

Palçıq Vulkanları Turizm Kompleksinin ərazisində turistlərin rahat gediş-gəlişini təmin etmək üçün avtodayanacaq salınıb. Əyləncəli vaxt keçirmək istəyən turistlər ekoloji cəhətdən təmiz nəqliyyat vasitəsi olan kvadrosikllərlə bu çətin relyefli ərazidə tura qoşulmaq imkanı əldə edəcəklər.

***AZƏRTAC***

## “Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 879-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 879-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 188 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 498 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.4-cü bənddə “on doqquzuncu” sözləri “iyirminci” sözü ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda 2.4-1-ci bənd əlavə edilsin:

“2.4-1. həmin Qanunun 5-ci maddəsinin yeddinci hissəsində “qəyyumluq və himayə orqanları”, 7-ci maddəsinin altıncı hissəsində “qəyyumluq və himayəçilik orqanı” və yeddinci hissəsində “qəyyumluq və himayə orqanı” dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək – valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur;”.

**2.** “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 274 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 706 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bənddə “16.1 – 16.3-cü” sözləri “16.1-ci maddəsinin birinci abzasında, 16.2-ci və 16.3-cü” sözləri ilə əvəz edilsin;

2.2. 2.3–2.5-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

“2.3. həmin Qanunun 14-cü maddəsinin adında və 14.0-cı maddəsinin birinci abzasında “qəyyumluq və himayə orqanları” dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək – valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur;

2.4. həmin Qanunun 16-cı maddəsinin adında, 16.2-ci və 16.3-cü maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi nəzərdə tutulur;

2.5. həmin Qanunun 16.1-ci maddəsinin birinci abzasında “orqan (qurum)” dedikdə aşağıdakılar nəzərdə tutulur:

2.5.1. həmin Qanunun 16.1.1-ci, 16.1.3-cü, 16.1.5–16.1.7-ci maddələrinə münasibətdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi;

2.5.2. həmin Qanunun 16.1.2-ci və 16.1.4-cü maddələrinə münasibətdə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi;

2.5.3. həmin Qanunun 16.1.8-ci maddəsinə münasibətdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi;”;

2.3. aşağıdakı məzmunda 2.6-cı bənd əlavə edilsin:

“2.6. həmin Qanunun 16.1.5-ci maddəsində “qəyyumluq və himayə orqanları” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.”.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 419 (Cild I); 2024, № 1, maddə 21; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 aprel tarixli 46 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.5.18-ci yarımbəndə “verilmiş” sözündən sonra “, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək – valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş” sözləri əlavə edilsin;

3.2. 2.8-ci bənddə “Yerli” sözü “Bu Qaydanın 2.5.18-ci yarımbəndi nəzərə alınmaqla, yerli” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri,13 iyun 2024-cü il**

## İqtisadi Şura və İnvestisiya Holdinqi Müşahidə Şurasının birgə iclası

**Azərbaycan Respublikasının İqtisadi Şurasının və Azərbaycan İnvestisiya Holdinqinin (AİH) Müşahidə Şurasının birgə iclası keçirilib.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, iyunun 13-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə keçirilən iclasın gündəliyində “Azərbaycan Respublikasının dövlət müəssisələrinə özəl investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 avqust tarixli 4078 nömrəli Sərəncamından irəli gələn tapşırıqların icra vəziyyəti, o cümlədən Sərəncama əsasən, özəl investisiyaların cəlb edilməsi nəzərdə tutulan dövlət müəssisələrinin (Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturuna daxil olan “Azərikimya” İstehsalat Birliyi (Etilen-Polietilen zavodu), Karbamid zavodu və Metanol zavodu, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti, “AzerGold” Qapalı Səhmdar Cəmiyyəti, “Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyəti, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti və “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti) hazırlıq vəziyyəti, dövlət müəssisələrinin kommersiya və maliyyə təhlilləri, hər bir müəssisə üzrə fərdi yol xəritəsi, özəl investisiyaların cəlb edilməsi üzrə qanunvericilik bazasına tələb olunan dəyişikliklər, həmçinin biznesə yönəlik dövlət xidmətləri və digər cari məsələlər ətraflı müzakirə olunub.

İclasda iqtisadiyyat naziri Mikayıl Cabbarovun, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin və Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktoru Ruslan Əlixanovun məruzələri dinlənilib.

İclasın yekununda İqtisadi Şuranın və AİH-in Müşahidə Şurasının üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla, müzakirə edilən məsələlər barədə qərarlar qəbul olunaraq aidiyyəti qurumlara və AİH-in İdarə Heyətinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, iclasda dövlət müəssisələrinin rəhbər şəxsləri də iştirak ediblər.

***XQ***

## Sahibə Qafarovanın Belarus görüşləri

**Milli Məclisin Sədri Sahibə Qafarova Belarus Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Baş naziri Roman Qolovçenko ilə görüşüb.**



Baş nazir son bir ayı Azərbaycan-Belarus əməkdaşlığı ayı kimi qiymətləndirərək deyib ki, bu dövr ərzində ölkə rəsmiləri arasında qarşılıqlı səfərlərin həyata keçirilməsində kifayət qədər intensivlik müşahidə olunub. Onun sözlərinə görə, Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana, Azərbaycan Baş nazirinin Belarusa səfərləri, həmçinin Hökumətlərarası Komissiyanın Minskdə keçirilmiş növbəti iclası fonunda Milli Məclis Sədrinin Belarusa səfəri ölkələrimiz arasında münasibətlərin inkişafına çox mühüm töhfələr verməklə yanaşı, əlaqələrimizin yüksək səviyyədə olduğunun göstəricisidir.

Görüşdə iki ölkə arasında əlaqələrin inkişafında dövlət başçıları arasında mövcud olan yüksək səviyyəli münasibətlərin rolu xüsusi vurğulanıb. Qeyd olunub ki, Prezident İlham Əliyevin Belarus Respublikasına, o cümlədən Prezident Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfələri və bu zamanı imzalanmış sənədlər iki ölkə arasında münasibətlərə xüsusi təkan verib. Bugünədək Azərbaycan və Belarus arasında siyasi, iqtisadi, sosial, humanitar, elmi-texniki və regional əməkdaşlıq məsələlərini əhatə edən 150-yə yaxın sənəd imzalanması ikitərəfli münasibətlərin inkişafı üçün hüquqi baza yaradıb.

Baş nazir Milli Məclis Sədrinin bu səfərinin əlaqələrin daha da genişləndirilməsinə mühüm töhfə verəcəyini qeyd edib.

Milli Məclisin Sədri Sahibə Qafarova səfər çərçivəsində ölkələrimiz arasında əməkdaşlığın bir çox sahələrinə dair fikir mübadiləsi, o cümlədən, qanunvericilik sahəsində münasibətlərin daha da dərinləşdirilməsi ilə bağlı faydalı müzakirələr aparıldığını diqqətə çatdırıb.

S.Qafarova Azərbaycanın müstəqillik dövründə əldə etdiyi nailiyyətlərdən də söhbət açaraq deyib ki, Ümummilli lider Heydər Əliyev xalqın təkidli xahişi ilə hakimiyyətə gəldikdən sonra Azərbaycan inkişaf yoluna qədəm qoydu. Hazırda isə Prezident İlham Əliyevin uğurlu rəhbərliyi ilə Azərbaycan bütün istiqamətlər üzrə böyük nailiyyətlər əldə edir.

Baş nazir də Azərbaycanın müstəqillik dövründə möhtəşəm inkişaf yolu keçdiyini bildirib.

* * *

**Həmin gün Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Belarus Respublikasına rəsmi səfəri çərçivəsində Belarus Milli Kitabxanasında olub. Nümayəndə heyəti kitabxanada yaradılan şəraitlə tanış olub, burada saxlanılan kitablar barədə məlumat alıb.**

Parlament nümayəndə heyəti kitabxanada yaradılan Azərbaycana həsr olunmuş bölmə ilə də tanış olub. S.Qafarova kitabxanaya Azərbaycan dövlətçilik tarixi haqqında, həmçinin “Qarabağ: işğaldan əvvəl və işğaldan sonra” kitablarını hədiyyə edib.

Sonra Sahibə Qafarova xatirə kitabını imzalayıb.

Azərbaycan parlament nümayəndə heyəti, həmçinin Minskdə “Horizont” Elektronika və İnnovasiyalar Mərkəzi və ilk Milli Ticarət Evi ilə də tanış olub. Burada qonaqlara Belarus istehsalı olan müxtəlif məhsullar haqqında məlumat verilib.

***Əliqismət BƏDƏLOV***
***XQ***




“Fructus Aqropark” MMC Azərbaycan xalqını “Milli Qurtuluş Günü” və müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, bütün ailələrə cansağlığı və firavanlıq arzulayır.

Əziz həmvətənlərimiz! Bayramlarınız mübarək olsun!

15 iyun Milli Qurtuluş Günüdür

**1993-cü il iyun ayının hərbi-siyasi böhranlı, Azərbaycanın müstəqilliyi, milli dövlətçiliyi üçün xatalı günlərini xatırlayanda istər-istəməz yadımıza xalqın cəsarətlə öz iradəsini ortaya qoyması düşür. Tarixinin müxtəlif dönəmlərində parçalanma, yox olma təhlükəsini yaşamış xalqımız həmişə düşdüyü çətin vəziyyətlərdən çıxmağın yollarını, xilas yolunun istiqamətlərini düzgün müəyyənləşdirməyi bacarıb.**



# Cəsarət fenomeni

Otuz bir əvvəl də bu xalqın vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə dayanmış, 75 il əvvəl istiqlalını bəyan etidyi cümhuriyyəytin ilk paytaxtında ürəyindən yaralanmış Azərbaycanı düşdüyü o hərbi-siyasi dalandan çıxarana, yaralarını sarıyana ehtiyacı vardı. Xalq bu dəfə də xilas yolunu və xilaskarının ünvanını dəqiq müəyyən etdi. Həmin ünvanın sahibi Heydər Əliyev, qurtuluşun düsturu isə böyük şəxsiyyətin və dühanın siyasi fəhmi, bacarığı və cəsarəti oldu. Azərbaycanın hər bir guşəsini, hər qarış torpağını özünə daim doğma bilən ulu öndər xalqının dar günündə, çətin məqamında, bütün çətinliklərə və təzyiqlərə baxmayaraq, ona arxa-dayaq oldu və Bakıya gəldi.

Biz cəsarət məsələsini təsadüfən yada salmadıq. Heç nəyi şişirtmədən, mübaliğəsiz deyə bilərik ki, Azərbaycanın özbaşınalıq və anarxiyanın cəngindən xilas olmasında ulu öndərin şəxsi şücaəti və cəsarəti olduqca önəmli rol oynadı. İyunun 13-də Gəncəyə səfərində Heydər Əliyevi müşayiət edən biz – bir qrup jurnalist həmin cəsarətin dərəcəsini gözlərimizlə gördük, qəlblərimizlə hiss etdik.

* * *

Gəncə hadisələrini yetişdirən səbəblər iyun ayından xeyli əvvəl ortada görünməkdə idi. Xalq isə yaranmış vəziyyətdən xilas yolunu ulu öndər Heydər Əliyevi Bakıya gətirməkdə görürdü. 4 iyuna qədər də Naxçıvan Ali Məclisin Sədri Heydər Əliyevə cəmiyyətin müxtəlif təbəqələrinin nümayəndələri müraciət edirdilər. Əsasən ziyalıların təşəbbüs göstərdiyi və Heydər Əliyevə inam və etimadın göstəricisi sayılan müraciətə imzalarını atanlar bir şeyə qəti əmin idilər: ölkəni düşdüyü xaos və anarxiyadan, qardaş qırğınına çatdırılan od-alovdan yalnız Heydər Əliyev xilas edə bilər.

Gəncə hadisələrinə aparan yol 1993-cü il ilin yanvarından “start” götürmüşdü. İyun ayının əvvəllərində isə hadisələr artıq özünün kulminasiya nöqtəsinə yetişmişdi. Azərbaycanın qorxmaz, vətənpərvər oğul və qızlarının qanı bahasına qazanılan müstəqilliyi itirmək təhlükəsi qapının kandarına kimi gəlmişdi. Hər gün cəbhə bölgəsindən eşidilən bədbin xəbərlər, ölkədə davam edən silahlı qarşıdurma, Gəncədəki qardaş qırğınının alovunun bütün ölkəyə yayılması təhlükəsini yaratmışdı.

1993-cü il iyunun 13-də Ali Sovetdə Gəncə hadisələri ilə bağlı gərgin müzakirələr başlandı. Parlamentin təyin etdiyi komissiyanın Gəncədə baş verənlərlə bağlı hesabat-rəyi dinlənildi. Emosiyaların coşduğu qızğın müzakirələrin gedişində sağlam düşüncəni rəhbər tutanlar çıxışlarında Heydər Əliyevin hakimiyyətə qayıtması təklifini irəli sürürdü. Gəncədə isə artıq qardaş qanı axıdılmışdı. Bakıda parlamentin tribunasına qalxan Heydər Əliyev qərarını açıqladı: “Gəncəyə gedib Surət Hüseynovla təkbətək görüşüb, hər şeyi yerində, olduğu kimi öyrənəcəyəm. Mənimlə getmək istəyən jurnalistlər də buyursunlar, bir saatdan sonra yola çıxırıq”.

Düşünürük ki, bu məqamda o günlər ölkədəki gerçək hərbi-siyasi mənzərəyə qısa nəzər yetirməyimiz yerinə düşər. Cəmi bir il ərzində Yevlax yun kombinatının direktoru Surət Hüseynovu Milli Qəhrəmana, Azərbaycan Prezidentinin Dağlıq Qarabağda səlahiyyətli nümayəndəsinə çevirən hakimiyyət indi onun yerə-göyə sığmayan siyasi iddiaları, verdiyi əmrləri qarşısında aciz vəziyyətə düşmüşdü. Üstündən 31 il keçəndən sonra dönüb həmin olaylara baxanda bir daha əmin oluruq ki, o zaman Azərbaycanın üzləşdiyi özbaşınalığın, dövlətin və xalqın girdabına düşdüyü xaosun səbəbi məhz hakimiyyətin iqtidarsızlığı idi.

Bəli, o günlərdə həm dövlət, həm də millət özünün çox çətin dövrünü yaşayırdı. Bir tərəfdən də dözülməz sosial-iqtisadi vəziyyət sıravi vətəndaşların rahatlığını, gündəlik həyat ritmini tamamilə pozmuşdu. Hakimiyyətlə Surət Hüseynovun silahlı birləşmələri arasında hərbi qarşıdurma həddinə çatdırılmış böhranın dalğası bütün ölkəyə yayılmışdı. Azərbaycan özünün dövlət müstəqilliyini bir əsrdə artıq ikinci dəfə itirmək təhlükəsi ilə üz-üzə qalmışdı.

* * *

...Gəncədə üzləşdiyimiz mənzərə çox dəhşətli idi. Bu şəhərdə qardaş qanı axıdılmış, Azərbaycan vətəndaş müharibəsi həddinə çatmışdı. Gözlə görünən təhlükəni Heydər Əliyevi Gəncə səfərində müşayiət edən biz, media mənsubları aydın hiss edirdik, desək, səhvə yol vermiş olmarıq. Şəhərin küçələrində əlisilahlı hərbçilər gəzirdilər. Düşdükləri hərbi-siyasi böhrandan çıxış yolunu yanlış istiqamətdə arayan o vaxtkı hökumət rəhbərliyinin Surət Hüseynovun nəzarətində olan 709 saylı hərbi hissənin tərksilah edilməsi ilə bağlı həyata keçirdiyi əməliyyat uğursuzluqla nəticələnmişdi. Bu isə iqtidarın müxtəlif cinahlardan onsuz da çat vermiş mövqelərini tamamilə zəiflətmiş, demək olar ki, heçə endirmişdi.

Heydər Əliyev əvvəlcə Gəncədəki 709 saylı hərbi hissənin, sanki, döyüş meydanını xatırladan ərazisinə baş çəkdi. Ardınca şəhərin dinc sakinləri ilə, eləcə də hərbi qulluqçularla görüşdü, onlarla söhbətləşdi. Bu zaman ulu öndəri gül-çiçəklə qarşılayan gəncəlilərin xalqın xilaskarına böyük hörmət və ehtiramının şahidi olduq. Səfərdən xəbər tutan şəhər sakinləri küçələrə çıxır, Heydər Əiyevlə görüşür, bundan hədsiz sevindiklərini səmimi şəkildə büruzə verirdilər.

Ümummilli liderin Gəncəyə səfərini, sözün tam mənasında, Qurtuluş səfəri adlandırmaq olar. Hələ Azərbaycanda heç bir vəzifə daşımayan, amma xalqın məhəbbətinin zirvəzinə yüksəlmiş Heydər Əliyev həyatını real təhlükəyə ataraq, şərəfli olduğu qədər də son dərəcə ağır missiyanı – Qurtuluş missiyasını yerinə yetirdi. Bu səfər ölkəmizi ağır faciələrdən xilas etdi. O çətin dövrdə, respublika rəhbərliyindən kimsənin Gəncəyə gedərək, vəziyyətə yerində aydınlıq gətirmək cürətində olmadığı günlərdə Heydər Əliyev xarici qüvvələrin təhriki ilə “qan çanağı”na dönmüş şəhərə silahsız, cangüdənsiz, mühafizəsiz getmişdi.

Ulu öndər hara və kimin üzərinə getdiyini yaxşı bilirdi. Onun Gəncəyə və gəncəlilərə hörmət-ehtiramı sonsuz idi. Bunu müsahibələrinin birində Heydər Əliyev özünəməxsus səmimiliklə belə ifadə edib: “Gəncə Azərbaycan xalqının qədim, zəngin tarixini özündə əks etdirən diyardır, gözəl bir şəhərdir. Azərbaycan xalqının mədəniyyətini, ədəbiyyatını, şeirini Şərq aləmində, bütün dünyada Nizami Gəncəvi ilə tanıyırlar. Azərbaycana, Azərbaycan xalqına təkcə Nizami Gəncəvi kimi dahi bir şəxsiyyət bəxş etdiyinə görə Gəncə torpağı, Gəncə xalqı, gəncəlilər əbədi minnətdarlığa layiqdirlər”.

* * *

...Deməli, bu sevgi və ehtiram qarşılıqlı idi. Həmin səfərin və ondan sonra baş verən hadisələrin canlı şahidi və “Səhər” gündəlik informasiya qəzetində çap olunmuş “Həqiqət ardınca” silsilə məqalələrin müəllifi kimi əminliklə deyə bilərəm ki, ulu öndərin həyatı və siyasi fəaliyyəti Azərbaycan xalqının dövlətçilik və müstəqillik tarixinə qızıl hərflərlə yazılıb. Azərbaycanın XX əsrdə ikinci dəfə əldə etdiyi müstəqilliyinin qoruyub saxlanılmasında, onun daxili və xarici hücumlardan qorunmasında, suvereliyinin möhkəmləndirilməsində ən böyük azərbaycanlı Heydər Əliyevin xidmətləri misilsizdir. Heydər Əliyev şəxsiyyətinin fenomen olduğunu dünyanın ən ağır çəkili siyasətçiləri, dövlət başçıları etiraf ediblər. Onun planetar düşüncəli dahi strateq kimi sadaladığımız bütün üstün keyfiyyətləri ilə yanaşı, şəxsi cəsarət nümunəsi məsələsinə bir daha qayıtmaq istərdik.



Heydər Əliyevin sonralar jurnalistlərdən birinin Gəncə səfərinin onun həyatı üçün təhlükəli olması barədə sualına cavabını yaxşı xatırlayırıq: “Əvvəla, mən Surət Hüseynovu tanımırdım, hətta üzünü də görməmişdim. Mənə indi məlum olduğu kimi, Surət Hüseynov Azərbaycanın Milli Qəhrəmanı, respublika Baş nazirinin müavini, Azərbaycan Prezidentinin Dağlıq Qarabağ üzrə səlahiyyətli nümayəndəsi idi. O, mən bilən, televiziya ilə demək olar, heç vaxt çıxış etməmişdi. Mən Naxçıvanda yaşayırdım və həmin dövr ərzində onu, hətta televiziya ekranında bir dəfə də olsun görməmişdim. Yəni, onu yaxından tanımırdım. Sonra – iyunun 13-də Gəncəyə gəldim və onunla ilk dəfə görüşdüm. Deməli, aramızda hansısa bir razılaşmanın və ya hansısa münasibətlərin olmasından söhbət gedə bilməz. Bütün gecə mən onunla danışıqlar apardım və iyunun 14-də Bakıya qayıtdım. Bundan sonra isə o, Bakıya gələnə qədər onunla telefon əlaqəsi saxladım”.

Gəncəyə səfərindən bir gün sonra, 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi xalqın ümummilli liderin xilaskarlıq missiyasına olan ümid və inamının təbii təsdiqi oldu. Bu, Azərbaycanda, sadəcə, hakimiyyət dəyişikliyi deyildi. 15 İyun dövlətin və xalqın taleyini yüz səksən dərəcəlik bucaq altında doğru səmtə çevirən ümummilli liderin yeni, azad və müstəqil Azərbaycanın tərəqqisinə start verdiyi tarixi an oldu.

* * *

Məhz dahi şəxsiyyətin qətiyyəti, cəsarəti və uzaqgörənliyi sayəsində Azərbaycanda ictimai-siyasi sabitlik bərpa olundu, milli dövlətçiliyimiz məhv olmaq təhlükəsindən qurtuldu. Ümummilli liderin həyat və fəaliyyəti, xilaskarlıq missiyası, Azərbaycanın müstəqilliyinin bərpası və möhkəmləndirilməsindəki xidmətləri danılmazdır. Bunu da cəsarətlə deyə bilərik ki, Türk dünyasının liderlərindən biri Heydər Əliyev dühasına olan ümunxalq sevgisi zaman-zaman öz təsdiqini tapıb. Azərbaycan var olduqca Heydər Əliyev böyüklüyü yaşayacaq, onun həmişəyaşar irsi nəsildən-nəslə ötürüləcək.

Azərbaycanda ikinci dəfə hakimiyyətdə olduğu 10 il ərzində dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ölkəmizin dünyaya inteqrasiyası Heydər Əliyevin fəaliyyəti ilə birbaşa bağlıdır. Bəlkə də Heydər Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu son 10 ildə (1993–2003) canından artıq sevdiyi xalqı qarşısındakı xidmətləri əvvəlki 12 illik (1969–1982) rəhbərlik fəaliyyətindən bizim üçün daha əhəmiyyətlidir.

Tarixi hadisələrin əhəmiyyətinin onlardan uzaqlaşdıqca daha real göründüyünü, yeni məna kəsb etdiyini söyləyənlər, yəqin yanılmırlar. Həmin hadisələrin sonrakı dönəmlər üçün təmələ, istinad nöqtəsinə çevrilməsi isə növbəti hakimiyyətlərin missiyasına çevrilir. Bu mənada qətiyyətlə söyləmək olar ki, Heydər Əliyev siyasi kursu özündən sonra uğurla davam etdirilir. Onun sağlığında işğal altında olan doğma yurdumuz Qarabağın sonrakı taleyi ilə bağlı vəsiyyətini yerinə yetirmiş siyasi varisi İlham Əliyevin xalqın qürur mənbəyinə çevrilmiş uğurlarını sadalamaqla bitməz.

Bəli, atalarımız “ot kökü üstündə bitər” məsələni məhz bu cür tarixi nümunələrin timsalında düşünüblər. Azərbaycan xalqı son iyirmi bir ildə bu siyasi varisliyin həm də irsən ötürülən cəsarətlə davam etməsinin şahidi oldu.

***İmran BƏDİRXANLI***
***XQ***



# Tarixi uğurların sarsılmaz təməli

**Azərbaycan xalqı bu gün milli maraqlara və ümumbəşəri dəyərlərə əsaslanan Heydər Əliyev siyasətinin təntənəsi olaraq davamlı yüksəlişin qürurunu yaşamaqdadır. Bu ülvi hissləri bizlərə bəxş edən 1993-cü ildə Ümummilli liderimizin qətiyyəti sayəsində Azərbaycanın çağdaş təqviminə qızıl hərflərlə yazılmış milli qurtuluş tarixidir. Vətən müharibəsində qazandığımız möhtəşəm tarixi Zəfərin işığında və bütövləşmiş, suveren Azərbaycanın reallıqları fonunda bu həqiqət daha mükəmməl siyasi baxışların subyektinə çevrilir.**

1993-cü ilin 15 iyunu – Qurtuluş Günü Heydər Əliyevin Bakıya siyasi rəhbərliyə qayıdışı idi. Amma Ulu öndərin Moskvadan Azərbaycana qayıdışı hələ 1990-cı ilin yayında baş tutduğundan Milli Qurtuluş Gününə dövlət quruculuğu baxımından məhz o tarixi hadisələr fonunda qiymət verilməlidir. Heydər Əliyevin sovet rəhbərliyində vəzifədən kənarlaşdırılması ilə paralel olaraq həm onun özünə qarşı, həm də Azərbaycana qarşı qərəzli münasibət başladı. Ulu öndərin Sovet Azərbaycanında rəhbər olduğu dövrdə qanuni cəza almış adamlar Moskvada yaşayan bir çox ermənilərlə əlbir olub, onun əleyhinə saxta anonim məktublar hazırlayırdılar. Erməni lobbisi bütövlükdə və Azərbaycanda millətinə, xalqına, Vətəninə nankor baxan, xain çıxan adamlar fürsətdən istifadə edib cinayətkar erməni lobbisi ilə birləşərək Heydər Əliyevin əleyhinə iş aparırdılar.

1990-cı ildə bütün təhdidlərə və təzyiqlərə baxmayaraq Azərbaycana qayıdarkən Heydər Əliyev, nə qədər acı olsa, Bakıda Moskvadakından daha təhlükəli təqiblərlə üzləşdi. Ona qarşı sui-qəsd təhdidləri açıq xarakter aldı və o, Naxçıvana yollandı. Beləliklə, Heydər Əliyevin Moskvadan qayıdışı, təəssüf ki, o mərhələdə Azərbaycanın qurtuluşu ilə tamamlanmadı. 1990-cı il noyabrın 17-də muxtar respublikanın Ali Məclisinin sədri seçildikdən sonra dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyev nadir liderlərə məxsus fövqəladə və bənzərsiz keyfiyyətləri ilə yüksək səviyyəli dövlətçilik və idarəçilik nümunəsini ortaya qoydu, Naxçıvanı erməni işğalının real təhülkəsindən xilas etdi.

Siyasi mübarizənin sivil qaydalarını, siyasi mədəniyyət formulunu cəmiyyətə təqdim edən, Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının ideoloji sütununa çevrilən Yeni Azərbaycan Partiyasının yaradılması da Ulu öndərin fəaliyyətinin Naxçıvan dövrünə təsadüf edir və onun adı ilə bağlı olan ən əhəmiyyətli siyasi və tarixi hadisə kimi dəyərləndirilməlidir.

Növbəti mərhələdə məhz Moskvanın təşəbbüsü ilə SSRİ-nin dağıdılması nəticəsində hətta Rusiya Federasiyası da öz suverenliyi haqqında Konstitusiya Aktını Azərbaycandan əvvəl qəbul etmişdi. Yəni bu şəraitdə artıq Heydər Əliyev kimi təcrübəli bir dövlət adamının Azərbaycanın siyasi rəhbərliyinə qayıdışı vətənimizin mürəkkəbləşmiş bəlalardan qurtuluşu ola bilərdi.

Amma təəssüf olsun ki, vaxtilə, guya, Azərbaycanın müstəqilliyi mövzusunda müzakirələr aparan, əslində isə Qorbaçovun yenidənqurma siyasətinin yetişdirdiyi xəyanətkar kommunistlər və cəbhəçilər Heydər Əliyevin əleyhinə birləşmişdilər. Guya, Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını müzakirə edən bu satqınlar əslində Heydər Əliyevin parlament rəhbərliyində təmsil olunmasına imkan verən müvafiq Konstitusiya maddəsinə qarşı çıxırdılar. Bununla da Azərbaycan xalqı tarixi qurtuluş imkanından o mərhələdə də məhrum oldu.

Ona görə də Sovet respublikalarının öz dövlət müstəqilliklərini elan etməsi fonunda ən faciəvi və acınacaqlı durum məhz Azərbaycanda yarandı. Çünki ötən əsrin 90-cı illərinin əvvəllərində postsovet respublikalarında, o cümlədən Qazaxıstanda, Özbəkistanda, Ukraynada təcrübəli şəxslər rəhbərliyə gəldikləri halda, Azərbaycanda, öz vətənində Heydər Əliyev kimi dünya miqyaslı fenomen şəxsiyyət, xalqın istəyinin əleyhinə olaraq, ali siyasi rəhbərlikdən kənarda saxlanıldı. Ulu öndər isə isə bütün bu təhdidlərə baxmayaraq məharət və cəsarətlə bu milli xəyanətkarların yaratdıqları maneələri aşırdı. Çünki onun gücü başqaları kimi vəzifədə deyil, polad iradəsində və xalqın ona inamında idi.

Sonrakı hadisələr isə daha faciəvi oldu. 1992-ci ildə cəbhəçilərin artıq müstəqilliyini bərpa etmiş Azərbaycanda hakimiyyəti ələ keçirməsi ilə bolşeviklərin 1920-ci ildə Xalq Cümhuriyyətini zəbt etməsi arasında mahiyyətcə fərq yox idi. Əgər var idisə, bu da əsrin əvvəlində Sovet Azərbaycanının, heç olmasa, Qarabağı qoruyub saxlamağa nail olması idi. Bu dəfə isə həm Qarabağ işğal olundu, həm də ölkə iqtisadiyyatı dağıdıldı.

Hələ o zaman Azərbaycan cəmiyyəti birmənalı olaraq o fikirdə idi ki, əgər Heydər Əliyev Azərbaycanın rəhbərliyində olsaydı, nə Qarabağ işğal olunardı, nə də ölkə müstəqilliyinin ilk illərində böhran yaşayardı. Təəssüf ki, biz daha əvvəl bu real tarixi qurtuluş şanslarından yararlana bilmədik və bunun acı nəticələrini gördük.

1993-cü ilin iyununda ölkədə artıq vətəndaş müharibəsi təhlükəsi yarandı. Şuşanın və Laçını düşmənə peşkəş etməklə hakimiyyətə gəlmiş AXC-Müsavat cütlüyü bu dəfə - 1993-cü ilin iyul-avqust aylarında digər rayonların işğalına şərait yaratmaqla hakimiyyətdə qalmaq kimi mənfur niyyətlərini həyata keçirmək istəyirdilər. Prezident İlham Əliyev Ulu öndərin anadan olmasının 101-ci ildönümündə - mayın 10-da Şuşada birinci yaşayış kompleksinin açılışında şəhərə köçmüş ilk sakinlər qarşısında çıxış edərkən bir daha və bu hadisələrə yeni reallıqlar kontekstində siyasi qiymət vermiş və "cəbhəçilərin" antimilli mahiyyətini ifşa etmişdir: "Məhz onların hakimiyyətə can atmaları dövründə və ovaxtkı hakimiyyətin satqın, qorxaq olması səbəbindən Şuşa işğal altına düşdü. Şuşanın düşmənə təhvil verilməsi Xalq Cəbhəsinə hakimiyyətə gəlmək üçün yol açdı. İndi baxın, o tarixlərə, tarixi hadisələrə. Bir neçə gündən sonra onlar hakimiyyətə gəldilər, o hakimiyyəti yıxdılar, çevriliş etdilər. Xalqın haqlı etirazını, necə deyərlər, öz tərəflərinə çəkmək üçün Şuşanı, sonra Laçını, ondan sonra Kəlbəcəri qurban verdilər... O vaxt hakimiyyətə can atan AXC-Müsavat cütlüyünün tör-töküntüləri, onların böyük əksəriyyəti bizim Zəfərimizə sevinməyiblər, əksinə peşman olublar. Bizim Qələbəmizə bu günə qədər kölgə salmağa çalışırlar, ermənilərlə əlbir olub bizim Zəfərimizi aşağılamaq, ona kölgə salmağa çalışırlar..."

O mərhələdə dövlət idarəçiliyində ən böyük maneə ondan ibarət idi ki, Heydər Əliyev parlament rəhbərliyində olsa da, orduda və yerlərdə real səlahiyyət xəyanətkar AXC – Müsavat cütlüyünün və kriminal qruplaşmaların əlində idi. Lakin bütün bu təhdidlərə baxmayaraq Ulu öndər ölkədəki sağlam qüvvələri toplayaraq Qarabağda 1993–94-cü ilin qış aylarında uğurlu Horadiz əməliyyatı keçirdi. Zaman gəldi, Azərbaycan ordusu bu uğuru 2016-cı ilin aprel döyüşlərində təkrarladı və 2020-ci ildə isə Ali Baş Komandan Qarabağı işğaldan tam azad etdi.

Beləliklə:

– Milli Qurtuluş Qarabağın işğaldan qurtuluşuna aparan yolun başlanğıcı oldu;

– Azərbaycan o illərdə özünə yad populist, qaragüruh qüvvələrdən qurtularaq Heydər Əliyev dövlətçilik və azərbaycançılıq təfəkkürünə qayıtdı;

– Azərbaycan xarici və daxili düşmənlərin müdaxiləsinə son qoyaraq tarixi hadisələrin gedişatını öz təbii axarına qaytardı;

– Azərbaycan demokratiya şüarları ilə hakimiyyətə gəlmiş diktatura rejimindən qurtulmuş oldu;

– Azərbaycan xalqı qəlbində yaşatdığı azadlıq və müstəqillik simvolu – Heydər Əliyev ilə yenidən qovuşdu;

– Ulu öndər Heydər Əliyevin qayıdışı və Milli Qurtuluşla nəhayət ki, Azərbaycanda əsl milli müstəqil hakimiyyət quruldu.

– Milli Qurtuluş, nəticədə, dövlət quruculuğumuzun uğuru kimi müasir Azərbaycan cəmiyyətini siyasi həmrəylik dəyəri üzərindən vahid dövlətçilik mövqeyinə daşıdı.

Mühüm qənaətlərdən biri budur ki, Ulu öndərin xalqın firavan gələcəyi və dövlətin parlaq perspektivləri üçün ən böyük xidmətlərindən biri siyasi varisliyi təmin etməsidir. O, özündən sonra Azərbaycan dövlətini zirvələrə daşıyacaq Lider yetişdirməklə dövlətçilik tariximizə ən böyük töhfələrindən birini vermiş oldu. Prezident İlham Əliyevin müəllifi olduğu milli inkişaf modelinin uğurla tətbiq olunması nəticəsində bu gün Azərbaycan regional güc mərkəzinə və Cənubi Qafqaz bölgəsinin aparıcı dövlətinə çevrilmişdir. Gerçək dövlət müstəqilliyinin təmin edilməsi və ərazi bütövlüyünün bərpası dövlətçilik tariximizin qızıl səhifələridir.

Tarixi paralellər aparsaq, əmin olarıq ki, əgər müstəqilliyin ilk onilliyində Prezident Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini xilas etmişdisə, sonrakı 2 onillikdə xalqın etimadına və ordumuzun gücünə güvənən dövlət başçısı İlham Əliyev ölkəni ərazi bütövlüyünün itirilməsi təhlükəsindən qurtardı, Qarabağ da daxil olmaqla ölkənin bütün ərazisində onun suverenliyini və konstitusiya quruluşunu təmin etdi. Əgər Ulu öndər Azərbaycan xalqını parçalanmaqdan qorumuşdusa, Prezident İlham Əliyev bütün dünya azərbaycanlılarının həmrəyliyinə yeni nəfəs verdi, yüz minlərlə qaçqın və köçkün vətəndaşımızın doğma yurd-yuvalarına böyük qayıdışının "yol xəritəsini" tərtib etdi. Dövlətçilik prinsipləri baxımından Milli Qurtuluş kimi sarsılmaz təməl üzərində inkişaf etmiş və məntiqi ardıcıllıqla bir-biri ilə üzvi surətdə bağlı olan bu hadisələr Azərbaycan tarixinin çağdaş mərhələsinin ən şərəfli səhifələridir.

***Əli HÜSEYNLİ,***
***Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri***

# Azərbaycan xalqının böyük oğlu

**Heydər Əliyev böyüklüyün, müdrikliyin, öz xalqına dönməz sədaqətin rəmzidir. Ulu öndərin həyat və fəaliyyəti Azərbaycan tarixində unudulmaz iz qoyub, onu müasir firavan dövlətə çevirib. Heydər Əliyev təkcə siyasətçi deyildi, o, həm də xalqın liderliyinə milyonların heyran olduğu mənəvi atası idi.**

***

Sadə bir ailədə dünyaya göz açan Heydər Əliyev hələ kiçik yaşlarından diqqətəlayiq liderlik və ziyalılıq keyfiyyətləri nümayiş etdirib. Sarsılmaz iradəsi və öyrənmək həvəsi sayəsində, o, təhsil alıb və karyera nərdivanlarını sürətlə qalxıb. Onun hakimiyyət zirvələrinə gedən yolu sınaqlarla dolu olsa da, hər addımı xalqının rifahına xidmət edib.

Heydər Əliyev əsl dövlət xadimi kimi misilsiz müdrikliyə, strateji təfəkkürə malik idi. O, ölkəsinin dərin ehtiyaclarını duyur və onları təmin etmək üçün düzgün yollar tapmağı bacarırdı. Ulu öndərin rəhbərliyi ilə Azərbaycan siyasi qeyri-sabitlikdən iqtisadi tərəqqiyə doğru irəliləyərək, öz inkişafında nəhəng sıçrayış etmişdir. Onun gələcəyə baxışı həmişə hər bir vətəndaşın rifahı və ləyaqəti üçün qayğı ilə dolu idi.

Heydər Əliyev həmişə öz xalqına sədaqətlə xidmət etmişdir. Onun həyatı Vətənə qeyd-şərtsiz xidmət nümunəsi idi. O, Azərbaycan tarixinin ən çətin anlarında ağır bir məsuliyyət yükünü üzərinə götürərək dövlət başçısı oldu. Ulu öndərin ölkəsinə, xalqına məhəbbəti hədd-hüdud tanımır, cəsarəti və qətiyyəti Azərbaycanın dirçəlişinin açarı idi.

Heydər Əliyev inanılmaz xarizmaya malik şəxsiyyət idi və insanları böyük nailiyyətlərə ruhlandırmağı bilirdi O, insanları necə birləşdirməyi, onları böyük məqsədə çatmaq üçün səfərbər etməyi bacarırdı. O, xalqı üçün əsl tərbiyəçi və müəllim idi.

***

Heydər Əliyevin ən böyük əsəri güclü, müstəqil və çiçəklənən müasir Azərbaycandır. Dövlətin inkişafına onun verdiyi töhfəni qiymətləndirmək çətindir. İqtisadiyyatın bərpası, siyasi sistemin sabitliyi, beynəlxalq mövqelərin möhkəmlənməsi – bütün bunlar onun yorulmaz fəaliyyəti və parlaq rəhbərliyi sayəsində mümkün olmuşdur. Heydər Əliyev təkcə maddi nailiyyətlər deyil, həm də azərbaycanlıların gələcək nəsillərini ruhlandıracaq əbədi dəyərlər qoyub getmişdir.

Adı Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazılmış Ulu öndərin həyat və fəaliyyəti sarsılmaz iradə, müdriklik və Vətənə sonsuz məhəbbət nümunəsidir. O, milli qürur və ümid rəmzi, öz ölkəsinə və xalqına xidmət etməyə çalışan hər kəs üçün əbədi ilham mənbəyi idi və belə də qalır.

***

1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkədə hakimiyyət böhranı, dövlətin idarə olunması uğrunda ayrı-ayrı şəxslər və qruplar arasında mübarizə gedir və bu, ictimai həyatın bütün sahələrində təhlükəli xaos yaradırdı.

Xalq səfil vəziyyətinə düşmüşdü, sosial gərginlik artırdı. Nəticədə 1993-cü ilin yayında real vətəndaş müharibəsi təhlükəsi yarandı. Suverenliyinin ilk illərində ölkə müstəqil inkişaf yoluna qədəm qoya bilmədi. Üstəlik, atılan bütün addımlar yeni problemlər yaradırdı və bunlar suverenliyin itirilməsinə gətirib çıxara bilərdi. O zaman ölkədəki çaşqınlığı və Ermənistanın elan etmədiyi müharibəni dayandırmaq, qaçqınlarla bağlı problemi tez həll etmək, respublikanın həyatını normal məcraya yönəltmək lazım idi. Belə bir çətin dövrdə uzun illər öz müstəqilliyi uğrunda mübarizə aparan xalqın ziyalıları millətin xilası üçün məsuliyyəti öz üzərinə götürməyi Heydər Əliyevdən israrla xahiş etdilər.

Ulu öndər Azərbaycan dövlətinin və doğma xalqının bu halına biganə qala bilməzdi. O, xalqın dəvətini qəbul edərək, iyunun 9-da Bakıya gəldi və ayın 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi.

1993-cü il oktyabrın 3-də isə Heydər Əliyev ölkə Prezidenti seçilərək, öz ölkəsinin inkişafının siyasi kursunu dəqiq müəyyənləşdirdi, Azərbaycanı düşmüş olduğu dərin böhrandan, çətinliklə də olsa, xilas etdi.

Heydər Əliyev müstəqil Azərbaycanın rəhbəri kimi öz zəngin təcrübəsi və səriştəli fəaliyyəti ilə çox qısa müddətdə ölkədə sosial gərginliyi aradan qaldırıb, vətəndaş müharibəsinin qarşısını almaqla yanaşı, müstəqil və güclü dövlət quruculuğu prosesinə start verə bildi.

Amma bu illər Azərbaycan üçün ciddi sınaqlar dövrü idi. Qazanılmış müstəqilliyi qoruyub saxlamaq mümkün olacaqdımı? Zaman göstərdi ki, Azərbaycan xalqının milli ruhu hələ sönməyib, onun layiqli lideri, böyük dövlət xadimi olduğu üçün istənilən çətinliyə qalib gələ bilər. Yeri gəlmişkən deyim ki, bütün bu məqamlar mənim 2023-cü ildə Ukraynada nəşr olunan "Отец Нации" ("Millət atası") monoqrafiyamda geniş şəkildə öz əksini tapıb.

Hər bir dövlətin formalaşmasında görkəmli şəxsiyyətlər böyük rol oynayırlar. Lider cəmiyyəti və dövləti irəli aparmaq üçün daim zirvədə olmalı, bütün imkanlarını toplamağı, ondan düzgün istifadə etməyi bacarmalıdır. Azərbaycan xalqı zəngin tarixə, mədəniyyətə, adət-ənənələrinə sahib olan böyük xalqdır. Amma tarixi proseslər elə getdi ki, son bir neçə əsrdə öz müstəqilliyi uğrunda mübarizə aparan Azərbaycan xalqı keçən əsrin əvvəllərində öz suveren dövlətini yaratsa da onu cəmi 23 ay qoruyub saxlaya bildi. Əsrin sonlarında xalq özünün dövlət müstəqilliyini yenidən bərpa etsə də, hakimiyyət uğrunda mübarizələr nəticəsində suverenliyini yenidən itirmək təhlükəsi ilə qarşılaşdı. Yalnız Heydər Əliyev siyasi hakimiyyətə gəldikdən sonra Azərbaycanda vəziyyət əsaslı şəkildə dəyişdi.

Doxsanıncı ilin ortalarında ölkədə dövlət çevrilişnə bir neçə dəfə cəhd edildi. Heydər Əliyevin məharətli fəaliyyəti ilə bunların qarşısı alındı və ölkədə yeni Əsas qanunun qəbulu ilə konstitusiya quruluşuna qarşı mübarizə qəti şəkildə dayandırıldı. Ölkədə ictimai təhlükəsizlik və sabitlik bərpa olundu.

Heydər Əliyevin fəaliyyəti təkcə yığılıb qalmış problemlərin həllinə deyil, eyni zamanda, ölkənin gələcək inkişafına və dövlətçiliyinin möhkəmlənməsinə yönəlmişdi. Qarşıda, ölkənin siyasi çaşqınlıq vəziyyətindən çıxarılması və dövlətçiliyin əsaslarının bərpası məsələsi dururdu. Eyni zamanda, işsizliyin azaldılması və dövlətin gələcək taleyi üçün ictimai məsuliyyətin formalaşdırılması üçün əsaslı tədbirlər görülməli idi. Heydər Əliyev bütün bu məsələləri öz nəzarətində saxlayır və həll edirdi.

1993-2003-cü illər müxtəlif təhdid və təhlükələrlə müşayiət olundu, gənc respublikaya təzyiqlər həddən artıq böyük idi. Lakin Heydər Əliyevin siyasi nüfuzu və vaxtında qəbul etdiyi düzgün qərarlar Azərbaycanı bu xətalardan sovuşdura bildi. On il ərzində Azərbaycan genişmiqyaslı iqtisadi islahatlar, ölkənin siyasi sisteminin və ictimai münasibətlərin humanistləşdirilməsi ilə paralel olaraq dövlətçiliyin qurulması, demokratik keçid yolu keçmişdir.

Azərbaycan Silahlı Qüvvələri 1994-cü ilin əvvəllərində işğal olunmuş ərazimizin bir hissəsini Ümummilli liderin məharətli rəhbərliyi ilə düşmən tapdağından azad etdi. Lakin ordu quruculuğunu yaxşılaşdırmaq üçün vaxt lazım idi. 1994-cü il mayın 12-də cəbhədə atəşkəs əldə edildi. O zaman Heydər Əliyevin taktikasını lakonik formada belə ifadə etmək olardı: "Müharibədə qalib gəlmək üçün kifayət qədər güclü və ondan qaçmaq üçün müdrik olmaq lazımdır".

Heydər Əliyev Azərbaycanın rəhbəri kimi öz səriştəli fəaliyyəti ilə çox qısa müddətdə ölkədə sosial gərginliyi aradan qaldırıb, vətəndaş müharibəsinin qarşısını almaqla yanaşı, müstəqil və güclü dövlət quruculuğu prosesinə start verə bildi.

Ölkədə ictimai-siyasi həyatın sabitləşməsi, demokratik ənənələrin və təsisatların yaradılması və təkmilləşdirilməsi ardıcıl şəkildə baş verdi. Dövlət aparatı gücləndirildi, səmərəli dövlət idarəetmə institutları formalaşdırıldı. Qarabağ cəbhəsində atəşkəs rejimi şəraitində iqtisadi inkişafın əsas prioritetləri tərtib edildi, 1994-cü ildən başlayaraq müstəqil dövlətin neft strategiyası yaradıldı. Bunun əsası "Əsrin müqaviləsi"nin imzalanması ilə qoyuldu. Azərbaycanın regional logistika mərkəzi kimi rolu Böyük İpək Yolu layihəsində fəal iştirakı ilə dəyişdi. Bundan əlavə, həyata keçirilən xarici siyasət modeli formalaşdırıldı, müasir ordu yaradıldı.



Yeri gəlmişkən bir fikrimi də demək istəyirəm. Əgər Heydər Əliyev sağ olsaydı, bugünkü Ukrayna böhranının həllində Kiyev şəhərinin fəxri vətəndaşı kimi, o, böyük bir vasitəçi missiyasını öz üzərinə götürərdi. Axı, hərbi əməliyyatların və açıq şəkildə vətəndaş qarşıdurmasının getdiyi bir ölkəni idarə etmək çox çətindir.

***

Ümummilli lider siyasi kursun davamlılığının möhkəm əsasını qoydu. Onun dövlət quruculuğu və iqtisadi dirçəliş sahəsində intensiv fəaliyyəti nəticəsində ulu öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Azərbaycan dünyanın sürətlə inkişaf edən ölkələrindən birinə çevrilib.

Siyasi liderlər xalqların və dövlətlərin taleyinin formalaşmasında əsas rol oynayırlar. Onlar sosial dəyişikliklərin memarı, milli maraqların keşikçiləri və xalq iradəsinin ilhamvericiləridir. Siyasi lider olmaq təkcə imtiyaz deyil, həm də insandan müdriklik, qətiyyət və öz işinə sonsuz sədaqət və fədakarlıq tələb edən böyük məsuliyyətdir.

Ulu öndər hesab edirdi ki, siyasi lider öz ölkəsinin tarixini, mədəniyyətini, iqtisadiyyatını dərindən bilməlidir. Liderin müdrikliyi uzunmüddətli inkişafa və çiçəklənməyə töhfə verən əsaslandırılmış qərarlar qəbul etmək bacarığında təzahür edir. Keçmişi təhlil etməyi və gələcəyi proqnozlaşdırmağı bilən lider xalqını çətinliklərdən və sınaqlardan qurtara bilər. Əsl lideri adi siyasətçidən fərqləndirən əsas cəhət onun vətəninə və xalqına olan sonsuz sədaqətidir. Belə lider xalqının rifahı üçün öz maraqlarını qurban verməyə də hazırdır.

Liderliyin ən vacib cəhətlərindən biri başqalarını ruhlandırmaq bacarığıdır. Siyasi lider xarizmatik olmalıdır ki, insanları dəyişikliklərin zəruriliyinə inandırsın və onları birgə işləməyə səfərbər edə bilsin. Güclü lider insanları ümumi məqsəd ətrafında birləşdirməyi, onlara inam aşılamağı və çətin anlarda dəstək verməyi bacarmalıdır. Ulu öndər milyonlarla insandan vahid bir millət yaratdı.

***

15 İyun Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil olub və bu, ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi ilə bağlıdır.

Bu gün Azərbaycan bir çox beynəlxalq birlik və təşkilatların üzvüdür. Heydər Əliyev siyasətinin layiqli davamçısı olan İlham Əliyev dünya siyasətinə bələdliyi, qətiyyəti, xarizması bütün beynəlxalq və mötəbər tədbirlərdə parlaq çıxışları, verdiyi vədləri yerinə yetirməsi ilə böyük nüfuz qazanıb. Azərbaycan xalqı cənab İlham Əliyevin rəhbərliyi altında 200 illik erməni işğalına son qoyub, Cənubi Qafqazda yeni reallıqlar yaranıb. Bu, Azərbaycan xalqında, dünyanın müxtəlif guşələrində yaşayan bütün azərbaycanlılarda haqlı fəxarət və qürur hissi yaradır. Bütün bu uğurlarımızın bünövrəsi 31 il bundan əvvəl– iyunun 15-də qoyulmuşdur. Bayramımız mübarək olsun!

***Arif QULİYEV,***
***Kiyev Əqli Mülkiyyət və Hüquq Universitetinin professoru, hüquq elmləri doktoru, universitetin elmi şurasının üzvü, Ukrayna Ali Təhsil Milli Elmlər Akademiyasının akademiki***

# Brüsseldə “NATO+Azərbaycan” formatında siyasi dialoq



**Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev iyunun 12-13-də Belçikada səfərdə olub.**

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Hikmət Hacıyev səfər çərçivəsində NATO-nun Brüsseldəki mənzil-qərargahında müttəfiq dövlətlərin nümayəndələrinin qatıldıqları “NATO+Azərbaycan” formatında siyasi dialoqda iştirak edib.

Tədbirdə Hikmət Hacıyev müttəfiq dövlətlərin nümayəndələri ilə Azərbaycan-NATO tərəfdaşlığının hazırkı vəziyyəti və perspektivləri, ölkəmizin regional nəqliyyat bağlantılarının inkişafında, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rolu, COP29-a hazırlıq prosesi, ölkəmizin iqlim və yaşıl həmrəylik gündəliyi, eyni zamanda, Ermənistanla normallaşma prosesi və sülh gündəliyinin irəlilədilməsi ətrafında müzakirələr aparıb.

Müttəfiq dövlətlərin təmsilçiləri Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstəklərini bildirib, NATO-nun etibarlı tərəfdaşı olaraq ölkəmizin Alyansla əlaqələrini yüksək qiymətləndirib, habelə NATO-nun missiya və əməliyyatlarına töhfələrini, Ukraynaya göstərdiyi humanitar dəstəyi təqdir ediblər. Eyni zamanda, Azərbaycanın regional nəqliyyat bağlantılarında və Avropanın enerji təhlükəsizliyində mühüm rolu vurğulanıb, ölkəmizin yaşıl enerjiyə keçid və iqlim dəyişikliyinə qarşı mübarizədə səyləri alqışlanaraq COP29 sədrliyinə dəstək ifadə edilib. Onlar Azərbaycanla Ermənistan arasında normallaşma prosesini və sülh gündəliyini yekdilliklə dəstəklədiklərini bildirib, iki ölkə arasında dövlət sərhədinin delimitasiyasına dair əldə olunan son razılaşmanı yüksək qiymətləndiriblər.

Səfər çərçivəsində Hikmət Hacıyev, həmçinin NATO Baş katibinin köməkçisinin müavini Ceyms Appaturay, Baş katibin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina və Türkiyənin NATO yanında daimi nümayəndəsi Zeki Levent Gümrükçü ilə görüşlər keçirib.

Sonra Azərbaycan ilə Avropa İttifaqı arasında 5-ci Təhlükəsizlik Dialoqu təşkil olunub. Dialoq zamanı Avropa İttifaqının nümayəndə heyətinə Avropa Xarici Fəaliyyət Xidmətinin baş katibinin siyasi məsələlər üzrə müavini Enrique Mora rəhbərlik edib.

Tədbirdə postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, Azərbaycan-Ermənistan normallaşma prosesi üzrə irəliləyişlər, işğaldan azad olunmuş ərazilərdə mina təhdidi ilə mübarizə, regional və beynəlxalq təhlükəsizlik məsələləri, həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf perspektivləri barədə müzakirələr aparılıb.

Aİ tərəfi Azərbaycanın postmünaqişə dövründə regionun sabitliyi və inkişafı baxımından vacib rolunu vurğulayıb, ölkəmizin Avropanın təhlükəsizliyinə töhfəsini təqdir edib, Aİ-nin ölkəmizlə müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirməkdə maraqlı olduğunu bildirib.

Dialoq zamanı Azərbaycanın Avropanın enerji təhlükəsizliyi, bərpaolunan enerji və nəqliyyat bağlantıları baxımından etibarlı tərəfdaş olduğu vurğulanıb, Azərbaycanın sədrliyi ilə Bakıda keçiriləcək COP29-un iqlim fəaliyyəti və yaşıl keçid sahəsində əməkdaşlıq üçün əlverişli imkanlar yaratdığı qeyd olunub.

Müzakirələrdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində mövcud olan mina problemi ətrafında fikir mübadiləsi aparılıb, Avropa İttifaqının humanitar minatəmizləmə fəaliyyətində Azərbaycana dəstəyini davam etdirəcəyi bildirilib.

Səfər zamanı H.Hacıyev, həmçinin Belçikanın Egmont Kral Beynəlxalq Münasibətlər İnstitutunun təşkil etdiyi dəyirmi masada çıxış edib, Azərbaycan-Aİ əməkdaşlığının hazırkı gündəliyi, Azərbaycan-Ermənistan arasındakı sülh prosesi və regional məsələlər barədə iştirakçıları məlumatlandırıb.

Prezidentin köməkçisi, eləcə də Belçikanın xarici işlər nazirinin kabinetinin rəhbəri səfir Jan Hoogmartens ilə görüş keçirib. Görüşdə Azərbaycan ilə Belçika arasında ikitərəfli əlaqələrin hazırkı vəziyyəti və perspektivləri üzrə müzakirələr aparılıb.

Səfər çərçivəsində H.Hacıyev nüfuzlu kütləvi informasiya vasitələrinə müsahibələr verib.

# 21 ailə də Şuşasına qovuşdu



**Bakı şəhərinin Qaradağ rayonundan yola salınan növbəti köç karvanı 85 nəfərdən ibarət 21 ailəni də doğma Şuşasına qovuşdurub. 32 illik məcburi köçkünlüyünə son qoyulan sakinlərə təntənəli surətdə yeni mənzillərin açarları təqdim edilib.**

Mərasimdə Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin rəsmiləri iştirak ediblər.

Xatırladaq ki, indiyədək Şuşaya daimi yaşayış üçün 126 ailə (491 nəfər) köçürülüb və hamısı yeni tikilmiş binalarda mənzillə təmin edilib.

**XQ**

# Almaniyada media üçün COP29 təlimləri



**Almaniyanın Bonn şəhərində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının təşkilatçılığı ilə müxtəlif ölkələrdən olan jurnalistlər üçün təlimlər təşkil olunub.**

COP29-a hazırlıq, o cümlədən iqlim mövzusunda jurnalistlərin təcrübələrinin artırılması məqsədilə keçirilən tədbirlərdə BMT Katibliyinin iqlim üzrə mütəxəssisləri iqlim mövzusunda məruzələrlə çıxış edirlər.

Müxtəlif dillərdə təşkil olunan media təliminin ilk günündə BMT Katibliyinin iqlim üzrə xarici əlaqələr katibi Denis Popov iqlim üzrə danışıqların tarixi və indiki mərhələsi barədə ətraflı məlumat verib. Jurnalist və BMT-nin iqlim üzrə müşahidəçisi Anqelina Davidova “Ekologiya haqda necə maraqlı və effektli yazmaq olar?” və “BMT-nin iqlim konfranslarını işıqlandırarkən nəyi bilmək faydalı olar?” kimi mövzularda çıxış edib.

Təlimdə ekologiya və iqlim məsələlərini sosial şəbəkələrdə işıqlandırmaq kimi mövzular ətrafında müzakirələr aparılıb. İştirakçılar mətbuat konfranslarına da qoşulublar.

**XQ**

# BTQ Fransanı kanak xalqının hüquqlarını tanımağa çağırır

**Bakı Təşəbbüs Qrupunun (BTQ) icraçı direktoru Abbas Abbasov “Dekolonizasiya, beynəlxalq diplomatiya və müasir dünyada kommunikasiyanın rolu” mövzusunda dəyirmi masa müzakirələri və mətbuat konfransında Azərbaycanın kanak xalqının mübarizəsini dəstəklədiyini söyləyib.**





O bildirib ki, Bakı Təşəbbüs Qrupu olaraq bildiririk ki, kanak xalqının müstəqilliyi uğrunda ədalətli mübarizəsini dəstəkləməyə davam edəcəyik: "Biz kanak xalqı ilə tam həmrəy olduğumuzu bəyan edərək, onların seçki qanunvericiliyinin Kanak xalqının iradəsinə zidd dəyişdirilməsinə qarşı ədalətli mübarizəsini dəstəkləməklə bərabər, Fransa hakimiyyəti tərəfindən təklif olunan düzəlişlərin ləğv olunmasını tələb edirik".

Abbas Abbasov qeyd edib ki, öz müqəddəratını təyinetmə hüququ başlıca məsələdir: "BTQ öz xalqının daha yaxşı və ləyaqətli gələcəyi üçün çalışanları dəstəkləyir. "Biz Fransanı kolonial siyasətini dayandırmağa və kanak xalqının öz müqəddəratını təyin etmək hüququnun təmin olunmasına çağırırıq”.

***

Yeni Kaledoniyanın xarici işlər naziri Mikael Forrest “isə bildirib ki, Fransa Yeni Kaledoniyanın təbii ehtiyatlarını tükəndirir.

Nazir qeyd edib ki, Yeni Kaledoniya nikel yataqlarına görə dünyada dördüncü yerdədir və Fransa metropoliyası yüz ildən artıqdır ki, burada hasilatla məşğuldur: “Yalnız 2024-cü ildə biz nikel vergisini tətbiq edə və bu vergilərdən gələn gəlirlər vasitəsilə gələcək nəsil üçün fond yarada bildik”.

M.Forrest deyib ki, bu, aparteid rejiminə yaxın bir rejimdir, burada işləmək, dilimizdə danışmaq, bayıra çıxmaq hüququmuz yox idi. Bütün bunlar kanak xalqına ciddi təsir göstərdi.

**XQ**

# Parisdən Bakıya COP29 veloturu



**COP29 konfransına iqlimlə bağlı özlərinin 10 təklifini çatdırmaq üçün bir qrup velosipedçi Fransadan Azərbaycanın paytaxtı Bakıya yola düşəcək.**

Velosipedçilər tarixi iqlim sazişinin (COP21) imzalandığı Parisdən COP29-un keçiriləcəyi Bakıya 6,5 min kilometrlik yürüşə hazırlaşıblar. Velosipedçilər qrupu irəlilədikcə onlara Fransa şəhərlərindən, Niderlanddan, Almaniyadan, Bolqarıstandan, Türkiyədən və digər yolüstü ölkələrdən yeni iştirakçılar qoşulacaqlar.

Qrupun məqsədi istixana qazlarının tullantılarının azaldılması üçün velosiped sürməyin əhəmiyyəti barədə məlumatlılığın artırılması ilə yanaşı, iştirakçı ölkələrin iqlim planlarında bu idman növünü inkişaf etdirmək üçün COP29 tədbirində 10 konkret təklif təqdim etməkdir. Bu təklifləri dəqiqləşdirmək üçün marşrut boyu əsas şəhərlərdə ekspertlər, birliklər və bələdiyyə nümayəndələri ilə görüşlər keçiriləcək.

İdeyanın tərəfdaşı “CycloTransEurope” bu maraqlı aksiyanı dəstəkləyib. Qurum Fransa Velosiped Turizm Federasiyasının üzvü olan bütün velosipedçiləri startda və mərhələlərdə qoşulmağa dəvət edib.

Velosipedçilər iyunun 15-də Parisdən təntənə ilə yola salınacaq.

**XQ**

# Rus politoloq: Paşinyan ABŞ və Aİ-yə yarınmağa çalışır

**“Ermənistan lideri Nikol Paşinyan Belarusa və şəxsən Prezident Aleksandr Lukaşenkoya qarşı demarşı ilə sadəcə olaraq, ABŞ-a və Aİ-yə yarınmağa çalışır”. Bunu Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov sosial şəbəkədəki hesabında yazıb.**



Xatırladaq ki, Ermənistanın baş naziri Nikol Paşinyan mayın 13-də Aleksandr Lukaşenkonun prezident olduğu müddətdə Ermənistan rəsmilərinin Belarusa səfər etməyəcəyini bildirmişdi. O bu qərarı Minskin 2020-ci ildə 44 günlük müharibə zamanı Qarabağla bağlı tutduğu və A.Lukaşenkonun bu yaxınlarda Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü zamanı bir daha təsdiqlədiyi mövqeyi ilə izah edib. Paşinyanın bu bəyanatından sonra Belarus və Ermənistan müvafiq olaraq İrəvan və Minskdəki səfirlərini geri çağırıblar.

Bütün bunları nəzərdə tutan rus politoloq yazıb: “Bundan əvvəl Lukaşenko Belarusun Azərbaycana Qarabağı bərpa etməyə kömək edəcəyini bildirmişdi. Sakit bəyanatdır. Dünyanın bütün ölkələri Qarabağın Azərbaycana məxsus olduğunu qəbul edirlər. Paşinyan özü də bunu etiraf edir”.

**XQ**

# Naxçıvanda mövqelərimiz atəşə tutulub

**İyunun 13-ü saat 19:50-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikası Babək rayonunun Yuxarı Buzqov yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumatda bildirilir ki, ordumuzun bölmələri cavab tədbirləri görüb.

**XQ**

# Yeni tarixi mərhələdə multiregionalizm və milli ideya

## IV məqalə

Yeni tarixi mərhələdə milli ideya kontekstində Qoşulmama Hərəkatının regionlararası təşkilat kimi Azərbaycan üçün əhəmiyyəti nədən ibarət ola bilər? Bu suala cavab bizcə, Azərbaycan dövlətçiliyində tarixən mühüm yer tutmuş dəyərlərlə bağlıdır. Yeni tarixi mərhələdə milli ideya fonunda bu, hər şeydən öncə, ədalətlilik, azadlıq (müstəmləkəçiliyə qarşı mübarizə), irqi ayrı-seçkiliyin (ksenofobiyaya qarşı mübarizə) qəbuledilməzliyi kimi dəyərlərə önəm verilməsini nəzərdə tutur.

## Ədalətlilik

Qədimdən Azərbaycan dövlətçiliyinin başlıca siyasi və mənəvi sütunlarından biri ədalət anlayışı ilə bağlıdır. Ədalətli olmaq Azərbaycanda həm hakimiyyət fəaliyyətində, həm də sosial münasibətlərin tənzimlənməsində mühüm funksiya yerinə yetirmişdir. Belə ki, Azərbaycan cəmiyyəti üçün Bəy hər şeydən öncə ədalətli, müdrik, məzlumlara arxa duran və hünərli insanın rəmzidir. Burada mərkəzi yerdə ədalətli olmaq dayanır. Çünki Azərbaycanda hesab edirlər ki, ədalətli olmayan insan mərd, hünərli və müdrik ola bilməz. Deməli, ədalətlilik fəzilətliliyin vacib elementlərindən biridir.

Dövlət işlərində isə bu anlayışın rolu çox əhəmiyyətli və aktual sayılmışdır. Həm də ədalətliliyi Azərbaycan dövləti yalnız öz sərhədləri daxilində təmin etməli deyildir – dünyada onun bərqərar olmasına çalışılmalıdır. Buna görə də ədalətlilik həmişə Azərbaycan dövlətlərinin xarici siyasətində başlıca yer tutmuşdur.

Müasir mərhələdə Azərbaycan Respublikasının xarici siyasətinin bütün istiqamətlərində ədalətlilik aparıcı yerlərdən birini tutur. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev milli ideyanın ilk mərhələsinin Zəfərinin (ərazi bütövlüyünün bərpası) nəticəsinin mühüm əlamətlərindən birini tarixi ədalətliliyin bərpa olunması kimi xarakterizə etmişdir.

Hazırda bu fəaliyyət Qoşulmama Hərəkatı çərçivəsində özünün regionlararası məzmununu almaqdadır. Azərbaycan Respublikası QH-yə sədrlik etdiyi müddətdə daim ədalətlilik prinsipini rəhbər tutmuşdur. Deməli, bu anlayış vasitəsilə Azərbaycanın milli ideyasının mühüm bir özəlliyi Qoşulmama Hərəkatı miqyasında konkret təcəssümünü almaqdadır. Bu da regionlararası məkanda Azərbaycan dövlətinin fəaliyyətində milli ideyanın özünü konkret olaraq ədalətli olmaqda ifadə etməsini şərtləndirir. Və məhz milli ideya kontekstində regionlararası fəaliyyətdə prinsipial əhəmiyyət daşıyan azadlıq məfhumu ilə ədalətlilik bir-birini tamamlayırlar. Nəyi nəzərdə tuturuq?

## Azadlıq

Qoşulmama Hərəkatı çərçivəsində azadlığın konkret ifadəsi yeni müstəmləkəçiliyə qarşı mübarizədə tapmışdır. Bu, özlüyündə böyük məsələdir. Çünki, faktiki olaraq, dünyanın bütün regionlarını əhatə edir. Dünyanın böyük dövlətlərinin bir qismi Qoşulamama Hərəkatına üzv olan ölkələrin bəzilərini hələ də müstəmləkədə saxlayırlar. Məsələn, Sakit Okeanda yerləşən Yeni Kaledoniya bu qəbildəndir. Ora fransızların müstəmləkəsi sayılır. Qoşulmama Hərəkatı daxilində müstəmləkəçiliyə qarşı (azadlıq) fəaliyyət getdikcə Azərbaycanın dəstəyi ilə güclənir. Azərbaycan Respublikası bu təşkilata üzv olan hər bir ölkənin azad olmasına çalışır. Çünki real azadlıq olmadıqda həqiqi regionlararası müsbət fəaliyyət də mümkün deyildir. Ona görə də müstəmləkəçiliyə qarşı mübarizə aparmaq Azərbaycanın Qoşulmama Hərəkatının üzvü kimi əsas vəzifələrindən biridir.

Bununla yanaşı, istənilən halda ədalətli olmaq azadlıq uğrunda mübarizənin təməl şərtidir. Ədalətli olmayan dövlət səmərəli və nəticəverici formada azadlıq uğrunda mübarizə apara bilməz. Bununla da milli ideyanın mərkəzi anlayışı olan dövlətçilikdə ədalətlə azadlıqsevərlik sintez təşkil etməlidir. Regionlararası məkan üçün, bu, həm aktual, həm də mürəkkəb məsələdir.

Burada maraqlı məqam azadlıq ideyasının milli və regional miqyasdan regionlararası miqyasa düzgün transformasiyası ilə bağlıdır. Məsələ ondan ibarətdir ki, Qoşulmama Hərəkatına üzv olan dövlətlər coğrafi olaraq bir-birindən uzaqda yerləşirlər. Bu baxımdan Azərbaycanın Okeaniyada hansısa ada dövlətinə müstəmləkə ilə mübarizədə dəstək verməsi kifayət qədər mürəkkəb işdir. Deməli, azadlıq faktoru diplomatik fəaliyyət üçün əhəmiyyətli olduğu kimi, asan nail olunmayan faktordur.

Beləliklə, milli ideya kontekstində azadlıqla ədalətlilik sintez halında məzmunlaşa bilər. Azadlığı multiregional miqyasda təmin etmək üçün milli səviyyədə onun tam reallaşmasına nail olmaq gərəkdir. Məlumdur ki, müstəqil Azərbaycan Respublikasının milli ideyasında azadlıq ilk sırada yer alır. Buna görə də bu anlayışın regionlararası miqyasa transformasiyası son dərəcə əhəmiyyətli və maraqldır.



## Ksenofobiya

Multiregional miqyasda ksenofobiya özəl məzmuna malikdir. İrqçiliklə mübarizə hazırda bütün dünya üçün ayrıca əhəmiyyət kəsb edən problemdir. Dünyanın ən inkişaf etmiş ölkələri belə ksenofobiyanın müxtəlif növlərindən, məsələn, islamofobiya və antisemitizmdən əziyyət çəkir. Azərbaycanın milli ideyasında ksenofobiyanın hər hansı təzahürü ilə mübarizə cəmiyyətin təşkilində multikulturalizmin əhəmiyyətli rolu ilə bağlıdır. Çünki Azərbaycan cəmiyyətini ksenofobiya kimi mənfi hallardan sığortalayan dəyər multikulturalizmdir. Multikulturalizmin mənəvi, siyasi və ideoloji bazasını isə azərbaycançılıq təşkil edir.

Bu mənada azərbaycançı olmaq milli dəyərləri bəşəri səviyyə ilə qarşılıqlı əlaqədə qəbul etmək, saxlamaq, onu qorumaq və inkişaf etdirməklə sıx bağlıdır. Həmin kontekstdə multikulturalizm azərbaycançılığın tərkib hissələrindən biridir. Multikultural dəyərlərin hökm sürdüyü cəmiyyətdə insanlar azərbaycançı ola bilirlər. Onlar üçün etnik mənsubluğun sosial münasibətlərdə rolu aparıcı deyildir. Əsas olaraq vətəndaşlıq mövqeyindən çıxış edərək, hər bir insana və hər bir etnik mənsuba tolerant, anlayışlı münasibətə önəm verilir. Yəni azərbaycançı, həm də tolerantdır.

Bunların fonunda Avropada islamofobiyanın getdikcə geniş yayılması çox düşündürücüdür. Avropa Parlamentinə keçirilən son seçkilərin nəticələri də göstərir ki, ksenofobiya meyilləri Qərbin siyasi şüurunda güclənə bilər. Xüsusilə islamofobiya yeni səviyyəyə yüksələ bilər. Bu da müsəlmanlara qarşı dünyanın müxtəlif regionlarında aqressiv davranışlara yol açar.

Deməli, ksenofobiya ilə mübarizə faktiki olaraq iki mühüm məqamı önəmli edir. Birincisi, beynəlxalq miqyasda müsəlmanların hüquqlarının qorunması. İkincisi, Qoşulmama Hərəkatına üzv olan dövlətlərin hər birinin ölkə kimi hüquqlarının qorunması.

Real fəaliyyətdə bu iki məqam sintez halında təzahür edir. Onlardan biri digərini tamamlayır. Belə ki, fərdi səviyyədə hüququn qorunması toplam halda ölkənin hüququnun qorunması deməkdir. Məsələn, Azərbaycan Prezidenti İlham Əliyev TDT-nin sammitində çıxış edən zaman dünyanın hər bir regionunda türklərin, o cümlədən azərbaycanlıların hüquqlarının qorunmasını təşkilatın əsas vəzifələrindən biri olduğunu bəyan etmişdir. TDT üzvləri bir-birinə dəstək verərək, beynəlxalq miqyasda türk insanının haqq və hüququnu qoruyurlar.

Məhz hüququn təmin edilməsi aspektində Qoşulmama Hərəkatı ilə Türk Dövlətləri Təşkilatının (TDT) fəaliyyətləri kəsişir. İnsan haqları və hüquqları məsələsində iki təşkilatın fəaliyyətinin kəsişməsi özlüyündə yeni tarixi mərhələdə Azərbaycanın milli ideyasının məzmununa birbaşa aidiyyatı olan hadisədir. Çünki Azərbaycan strateji inkişafını yalnız hüquqi və sosial rifah dövləti kimi görür. Burada hüquq faktorunun milli ideyanın məzmununda əsas yer tutması və konkret funksiya yerinə yetirməsi ciddi məsələdir. Onun milli miqyasdan regional və oradan da regionlararası miqyasa transformasiyası isə Azərbaycanın dövlət kimi strateji məqsədinə tam uyğundur. Çünki yeni tarixi mərhələdə (postmüharibə dövründə) Azərbaycan Respublikası müstəqil dövlət kimi özünün yeni status səviyyəsinə yüksəlməlidir.

Hazırda Azərbaycan güclü regional lider statusundadır. Cənubi Qafqazın geosiyasi həyatında məhz bu keyfiyyətdə iştirak edir. Azərbaycan regionda sözü keçən, onun geosiyasi konfiqurasiyasının əsas stimulverici və müəyyənedici gücü olan dövlətdir. Yeni tarixi mərhələdə bu status regionlararası məkanda təsirli geosiyasi gücə çevrilməyə əsas yaratmalıdır.

Konkret olaraq, Azərbaycan Respublikası regional fəaliyyəti ilə regionlararası fəaliyyəti elə sinxronlaşdırmalıdır ki, milli ideyanın məzmunu çərçivəsində təsirli geosiyasi gücə çevrilə bilsin.

Qoşulmama Hərəkatı ilə Türk Dövlətləri Təşkilatının fəaliyyətlərinin milli ideya kontekstində növbəti ortaq feili sahəsi Azərbaycanın regionlararası geosiyasi gücə çevrilməsinin təmin olunmasıdır.

Nəhayət, Azərbaycan multiregionalizmi kontekstində TDT ilə Qoşulmama Hərəkatının ortaq iştirakının başqa bir təzahürü təhlükəsizliklə bağlıdır. Ümumiyyətlə, Azərbaycanın enerji strategiyasında milli təhlükəsizlik əsas yer tutur. TDT tərkibində bu məsələ tam aydındır. Qoşulmama Hərəkatı çərçivəsində də təhlükəsizlik faktoru həm Azərbaycan, həm də təşkilata daxil olan ölkələr üçün konkret məzmuna və məqsədə malikdir. Bu miqyasda təhlükəsizlik, nəqliyyat-loqistika, informasiya, enerji, kibertəhlükəsizliyin təmini, terrorla mübarizə və s. kimi istiqamətlər əhəmiyyət daşıyır. Bununla Azərbaycan çox geniş bir geosiyasi məkanda çoxaspektli siyasi-diplomatik fəaliyyət həyata keçirməyə başlamışdır.

Beləliklə, Azərbaycan multiregionalizmi regional və regionlararası təşkilatlarda fəaliyyət aspektində özəl məzmun və məqsəd almış olur. Burada aparıcı məqam Azərbaycanın dövlət olaraq milli ideyasına uyğun çərçivədə yeni geosiyasi status səviyyəsinə yüksəlməsindən ibarətdir. Özlüyündə asan olmayan və sürətlə dəyişən geosiyasi şərtlər daxilində reallaşmalı olan bu strateji məqsəd çox sayda faktoru özündə ehtiva edir. Onların sırasında liderin fəaliyyətinin özünəməxsusluğu ayrıca yer tutur.

Bütövlükdə liderlik müasir dövrdə politologiyada multiregionalizmin təmin edilməsinin başlıca faktoru kimi qəbul olunur. Liderlik həm stimulverici, həm müəyyənedici, həm də istiqamətverici fenomen kimi təhlil edilir. Multiregionalizmin konkret məkan və zamanda uğurlu olmasının əsas şərti kimi liderliyin təhlili çox vacibdir.

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki, fəlsəfə elmləri doktoru*

# Hayastanda gərginlik səngimir

**Ermənistanda siyasi vəziyyətdəki gərginlik qalmaqdadır. İyunun 12-də hakimiyyəti güc yolu ilə devirmək arzuları gözlərində qalan radikal müxalifət təmsilçiləri hazırda daha da azğınlaşıblar. Aydın görünür ki, onlar yeni təxribatlara hazırlaşırlar.**

Qeyd edək ki, iyunun 12-də polis qanunun tələblərinə əməl etməyən radikalları güc tətbiq etmək yolu ilə parlament binası yaxınlığından uzaqlaşdırmağa məcbur olub. Asayiş keşikçiləri aksiyanı dağıtmaq üçün işıq-səs qumbaralarından (əsasən polisin istifadə etdiyi öldürücü olmayan xüsusi sursat–S.H.) istifadə ediblər. Toqquşmalardan sonra 101 nəfər həkimə müraciət edib. Bu barədə Ermənistan səhiyyə nazirliyinin məlumatında bildirilib. Qeyd edilib ki, onlardan 85 nəfər



xəstəxanadan evə buraxılıb, 16 nəfər isə xəstəxanalarda tibbi yardım almaqdadır. Barmaqları qopduğu üçün əməliyyat olunan xəstənin vəziyyəti qənaətbəxş qiymətləndirilib. Xəsarət alanlar arasında 18 polis əməkdaşı da var.

Baş verənləri qiymətləndirən Ermənistan parlamentindəki hakim "Mülki müqavilə" fraksiyasının rəhbəri Ayk Konjoryan bildirib ki, arxiyepiskop Baqrat Qalstanyanın rəhbərlik etdiyi "Vətən naminə Tavuş" hərəkatının tərəfdarları qanunverici orqana hücum təşkil edib. Parlamentdəki müxalifətçilər də onlarla əlbir olublar: "Parlamentə ilk hücum 2020-ci il noyabrın 9-dan 10-na keçən gecə baş vermişdi. İğtişaşlarçılar həmin vaxt parlamentin sədri Ararat Mirzoyanı döyərək öldürməyə cəhd etmişdilər. İyunun 12-də Baqrat Qalstanyan və parlament müxalifəti dəhşətli terror aktı törətməyə və Ermənistanın dövlətçiliyinə son qoymağa çalışaraq, ikinci noyabr hadisəsini təşkil etməyə cəhd etdilər. Bu hadisə 1999-cu il oktyabrın 27-də törədilən terror aktına da bənzəyir. Ermənistan Respublikasının hüquq-mühafizə orqanları yeni terror aktının, yeni 27 oktyabr hadisəsinin – hakimiyyəti qanunsuz yolla ələ keçirmək cəhdinin qarşısını alıblar. Bu gün və bundan sonra parlament çoxluğu və baş nazirin rəhbərlik etdiyi siyasi komanda Ermənistanın müstəqilliyini və suverenliyini istənilən hücumlardan qoruyacaq".

Ermənistan parlamentinin sədr müavini Ruben Rubinyan isə deyib ki, iyunun 12-də baş verən hadisələrin əsas məsuliyyəti bütün ermənilərin katolikosu II Qareginin üzərinə düşür: "Tanrıya şükürlər olsun ki, "əlahəzrət"in xeyir-duası ilə baş verən hücum tez bir zamanda və qanuni yollarla dayandırıldı. Bütün yaralıların tezliklə şəfa tapmalarını diləyirəm".

Parlamentdə siyasi ehtirasların coşmasına "Hayastan" fraksiyasının rəhbəri, sabiq müdafiə naziri Seyran Ohanyan da öz "töhfəsi"ni verib. Ohanyan və bir qrup müxalifətçi deputatın qanunverici orqanın işini pozması sədr Alen Simonyanla müxaliflər arasında insident yaşanmasına gətirib çıxarıb. Müxalifətçi parlamentarilər Simonyanı deputat avtomobillərinin parlamentə girişinə məhdudiyyət qoymaqda ittiham ediblər. Bu zaman S.Ohanyan parlament tribunasına qalxaraq A.Simonyanı yalan danışmaqda ittiham edib. Erməni spiker isə Ohanyanın özünün yalan danışdığını bildirib və onu parlamentin tribunasından qovub.

A.Simonyan şəxsi teleqram kanalında isə yazıb ki, 2018-ci ildə olduğu kimi, bu gün də hamınızı – Ermənistanın qanuni asayişini qoruyan polis əməkdaşlarını bağrıma basıram.

Nikol Paşinyan özü də parlamentin qarşısında baş vermiş toqquşmaya görə II Qaregini və ölkənin sabiq prezidenti Robert Koçaryanı ittiham edib. Parlamentdə 2023-cü il dövlət büdcəsinin icrasına dair hesabatın müzakirəsi zamanı çıxış edən baş nazir deyib ki, katolikosun və Koçaryanın rəhbərlik etdiyi hərəkatın tərəfdarları polislərə hücum edib: "Robert Koçaryanın və katolikos II Qareginin rəhbərlik etdiyi hərəkat polis əməkdaşlarına hücuma razılıq verib".

O əlavə edib ki, ruhanilərin bir nümayəndəsinin hücumu təhrik etməsi çox kədərlidir: "Arxiyepiskop rütbəsindəki bir adam polisi dəbilqələrini çıxarmağa çağırdı və asayiş keşikçilərini təhlükədə olmadıqlarına inandırdı. Lakin tezliklə onlara daş atmağa başladılar". Paşinyan 18 polis əməkdaşının və 83 mülki şəxsin yaralandığını bildirib.

Baş nazir qeyd edib ki, etirazçılardan biri yerdəki işıq-səs qumbarasını götürərkən üç barmağını itirib. Paşinyan vurğulayıb ki, əgər o bunu etməsəydi, bu cür xəsarətlərin qarşısını almaq olardı.

Nikol polisin reaksiyasını qanuni, adekvat və peşəkar adlandırıb. Dövlətçiliyin və suverenliyin qorunması üçün bundan sonra da hüquq-mühafizə orqanları əməkdaşlarının indiki qaydada hərəkət edəcəklərini vurğulayıb. Vurğulayıb ki, hökumət "mərhəmətli və qayğıkeş" olmalıdır, lakin zəif olmamalıdır.

Paşinyan Koçaryanın rəhbərlik etdiyi "Qarabağ klanı"nın Ermənistanda hakimiyyəti dəyişə bilməyəcəyini xüsusi vurğulayıb: "Mən feodal klerikal elitaya səslənirəm: siz Ermənistanda hökumət dəyişikliyini həyata keçirə bilməyəcəksiniz, siz gücsüzsünüz".

Son hadisələr, adətən, bir çox məsələlərə münasibət bildirməyən Ermənistan prezidenti Vaaqn Xaçaturyanın da dilə gəlməsinə səbəb olub. O, jurnalistlərlə söhbətində deyib: "Əslində, hər şey hüquqi dövlət qaydalarına uyğun, qanun çərçivəsində baş verməlidir. Biz mitinqləri təşkil edən şəxslərə dəfələrlə xəbərdarlıq etmişik ki, süni gərginlik yaratmaqdan çəkinsinlər, dövlət məmurlarına qarşı cinayət törətməsinlər. Amma təəssüflər olsun ki, onların davranışı fərqli idi və təhlükəsizlik qüvvələri faktiki olaraq, öhdələrinə düşən işi, yerinə yetirməyə borclu olduqları tədbirləri görməli idilər. Əmin olun ki, nə qanunverici, nə də icraedici hakimiyyət, bizim heç birimiz hansısa vətəndaşımızın vəziyyətini pisləşdirməyə və ya zorla asayişi bərpa etməyə meyilli deyilik".

Baqramyan prospektində baş verən iğtişaşlar zamanı Azərbaycana qarşı işğalçı müharibənin iştirakçısı, "Sisakan" dəstəsinin komandiri, "Aşot Yerkat" ləqəbli Aşot Minastanın saxlanıldığı da məlum olub. Bu barədə "Aysor.am"a hüquqşünas Sergey Arutyunyan məlumat verib. Qeyd edib ki, Minasyan kütləvi iğtişaşlarla bağlı cinayət işi çərçivəsində 72 saat müddətinə saxlanılıb.

Qarşıdurmanın əsas təşkilatçısı, əhalini təxribata sürükləyən Baqrat Qalstanyan isə dünən səhər hökumət binası yaxınlığında quraşdırılmış tribunaya çıxaraq deyib: "Daha burada qalmağın mənası yoxdur. Baqramyan prospektinə gedirik. Bizimlə gəlmək istəyənlər prospektə qalxsınlar, təbii ki, biz bir-birimizdən ayrılacağıq. Bu müddət ərzində insanlar yaralıların və saxlanılanların məsələləri ilə məşğul olacaq. Axşam saat 8-də məşhur yerdə – Baqramyan-Dəmirçyan küçələrinin kəsişməsində müşavirə keçirib görüşəcəyik".

Onu sözlərinə görə, hakimiyyət belə bir illüziya yaratmaq istəyir ki, etirazçılar binanı zəbt edirlər: "Amma biz boş binaları ələ keçirmək fikrində deyilik, hərçənd ki, istəsək, edə bilərik. Bizim vəzifəmiz bu şəxsi istefaya məcbur etməkdir. Dünən ən həyasız adam kimi dedi ki, mənimlə görüşmək lazım gəlsə, məni baqaja atdırıb görüşə gətirəcək. Qorxduğu üçün getmir – cinayətlərini, xəyanətlərini, gizli imzaladığı yazılı və şifahi müqavilələri bilir. O, kimin əmrlərinə tabe olduğunu bilir. O, polis rəisi Aram Ovannisyanı əməliyyatları, özü və oğlu haqqında düşünməyə çağırıb. Gün gələcək, biz onun general rütbəsini necə əldə etdiyini öyrənəcəyik".

Ermənistanın populyar qəzetlərindən olan "Hraparak" qəzeti yazıb ki, hakimiyyət öz davranışları və Baqrat "srbazan"ın başçılıq etdiyi hərəkatın zəifləməsi barədə bəyanatları ilə fon yaratmağa çalışsa da, N.Paşinyanın təhlükəsizliyini gücləndirməkdə davam edir. Bu dəfə baş nazirin ofisi yeni təhlükəsizlik sistemi – binanın daxilində quraşdırılmalı olan videoçəkiliş sistemi alıb. Qeyd edilib ki, bu sistem üçün dövlət büdcəsindən xeyli vəsait ödənilib. Texniki göstəricilərinə əsasən bilmək olur ki, yeni videoçəkiliş sistemi təkcə təsviri deyil, səsi də qeyd edir. "Bu cihaz dövlət işçilərinə nəzarət etməkdən daha çox daxili istifadə üçün nəzərdə tutulub" – deyə "Hraparak" qəzeti bildirib.

"Hetq.am" saytı isə polisin etirazçılara qarşı xüsusi vasitələrdən, o cümlədən Rusiya istehsalı olan "Zarya-3" əl qumbarasından istifadə etdiyini dəqiqləşdirib.

İrəvanda yaranmış vəziyyətə iş adamı, Moskvadakı "Taşir" şirkətlər qrupunun sahibi Samvel Karapetyan da münasibət bildirib. O, yeni qarşıdurmadan çəkinməyə çağırış edib: "Bu günlərdə İrəvandakı mövcud vəziyyəti nəzərə alaraq, mən bütün tərəfləri insan təlefatına səbəb ola biləcək hər hansı ritorikadan və hərəkətlərdən çəkinməyə çağırıram. Ölkədəki mövcud siyasi böhranı nəzərə alaraq, məsuliyyətlə hərəkət etmək, bir-birinə hörmət göstərmək, dialoqa və vəziyyətin sülh yolu ilə həllinə çalışmaq vacibdir. İnanıram ki, kollektiv səylərlə bu problemi aradan qaldırmaq, ölkəmizin bütün vətəndaşlarını heç bir meyarla bölmədən onların təhlükəsizliyini və sabitliyini təmin etmək olar. Bu, prioritet məqsəddir".



Ermənistandakı prosesləri "XQ"yə şərh edən politoloq **Yeganə Hacıyeva** bildirdi ki, Hayastan cəmiyyətinin radikal, revanşist kəsimi 2020-ci ildə baş tutan İkinci Qarabağ müharibəsində ölkənin məğlub olmasının təqsirini Nikol Paşinyan hökumətində görür və vaxtaşırı olaraq, baş nazirin və onun hökumətinin istefaya getməsi üçün cəhdlər edir. Onun sözlərinə görə, etirazçılar özləri də yekcins deyil və onları bir neçə qrupa bölmək olar. Hazırda əsas aktivlik nümayiş etdirənlər vaxtilə Ermənistanda hakimiyyətdə olmuş "Qarabağ klanı" adlandırılan qüvvələrdir: "Bu qrup Rusiya daxilində erməni diasporu və lobbisi ilə əməkdaşlıq edir. Rusiyanın Ermənistandakı prosesləri yanaşması da bu çərçivə ilə məhdudlaşır. Yəni, "Qarabağ klanı"nı dəstəkləyənlər Rusiya daxilindəki erməni diasporu və lobbisidir".

Y.Hacıyevanın sözlərinə görə, ABŞ və Avropa İttifaqındakı erməni lobbisi də proseslərdə iştirak edir. Bundan əlavə, İrəvan küçələrində fərqli bir qrup da var. Bu, qrupda təmsil olunanlar əvvəlkilərlə birbaşa ittifaqdadır və onlar yeni "yanaşma" ortaya qoyublar: "Məsələ ondadır ki, onlar dünyada xristian həmrəyliyi adı altında xristian təşkilatlarından bu və ya digər formada dəstək almaq istəyirlər və Ermənistan–Azərbaycan münasibətlərini xristian–müsəlman aspektindən dəyərləndirməklə Paşinyana qarşı etirazlara başlayıblar. Bakı və İrəvan hansısa məsələdə razılaşma əldə edən kimi bu qruplara sifariş verilir və onlar dərhal hərəkətə keçirlər. Maraqlı qruplar Paşinyanın iqtidarının Azərbaycanla əldə etdiyi razılaşmaları erməni cəmiyyətinə yanlış formada çatdırırlar".

Etirazlar nəticəsində nələrin baş verə biləcəyinə dair sualımızı cavablandıran Y.Hacıyeva qeyd etdi ki, N.Paşinyan iqtidarı növbədənkənar seçkilərə getməklə yaranmış problemi aradan qaldıra bilər.

*Səxavət HƏMİD*
*XQ*

# Sənaye zonaları bölgələrin iqtisadiyyatını müasirləşdirir

## *Sahibkarlar bu sahəyə 6,7 milyard manat yatırıblar*



**Azərbaycan Prezidenti İlham Əliyev ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin təşkili, habelə əhalinin istehsal sahəsində məşğulluğunun daha da artırılması məqsədilə Hacıqabul Sənaye Məhəlləsinin əsasında Hacıqabul Sənaye Parkının yaradılması haqqında 12 iyun 2024-cü il tarixli fərman imzalayıb.**

Sənəddə Hacıqabul Sənaye Parkının sahibkarlığın inkişafı üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalı və xidmətlər göstərilməsi məqsədi ilə istifadə edilən ərazi kimi fəaliyyət göstərəcəyi bildirilir. Fərmanla, eyni zamanda, adıçəkilən sənaye parkının fəaliyyətinin təşkili, idarə edilməsi və inkişafı ilə bağlı tədbirlərin İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən həyata keçirilməsi tapşırılır.

Hacıqabul Sənaye Parkının fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin "Hacıqabul Sənaye Məhəlləsinin yaradılması haqqında" 2017-ci il 25 iyul tarixli və "Hacıqabul Sənaye Məhəlləsinin ərazisinin genişləndirilməsi haqqında" 2020-ci il 13 may tarixli sərəncamları ilə Hacıqabul Sənaye Məhəlləsinin fəaliyyəti üçün ayrılmış 60 hektar ərazidə təşkil olunur. Fərmanla Nazirlər Kabinetinə Hacıqabul Sənaye Parkının ərazisinin genişləndirilməsi məqsədilə 6 ay müddətində zəruri tədbirlər görülməsi tapşırılır. İqtisadiyyat Nazirliyi qarşısına isə 3 ay müddətində Hacıqabul Sənaye Parkında istehsal və emal olunan sənaye məhsulları, habelə göstərilən xidmətlər üzrə prioritet istiqamətləri müəyyənləşdirmək, Hacıqabul Sənaye Məhəlləsinin rezidenti olan sahibkarlıq subyektlərinin sənaye parkının rezidenti və ya qeyri-rezidenti kimi qeydiyyata alınması ilə bağlı tədbirlər həyata keçirmək vəzifəsi qoyulur.

Beləliklə, hazırda ölkəmizdə sənaye parklarının sayı 8 (Sumqayıt Kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Ağdam, Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" və Hacıqabul Sənaye Parkı) və 4 sənaye məhəlləsi (Masallı, Neftçala, Sabirabad və Şərur) fəaliyyət göstərir.

İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına əsasən, 2013-cü ildən indiyədək sənaye zonaları üzrə ümumi investisiya həcmi 7,79 milyard manat olan 140-dan çox sahibkarlıq subyektinə rezident statusu verilib. Sahibkarlar tərəfindən sənaye zonalarına 6,7 milyard manatdan çox investisiya yatırılıb və 10 min 500-dən çox daimi iş yeri yaradılıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 1 milyard manat investisiyanın yatırılması və 6 min 500-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulub.

Qeyd edək ki, cari ilin birinci rübündə sənaye zonalarının rezidentləri tərəfindən, ümumilikdə, 640,3 milyon manat dəyərində məhsul satışı həyata keçirilib ki, bunun da 223,6 milyon manatı ixracın payına düşüb. Ötən il sənaye parklarının rezidentləri tərəfindən satış 20,6 faiz, ixrac isə 10,8 faiz artıb.

Ölkəmizdə sənaye zonalarının inkişafı daim diqqətdə saxlanılır. Sənaye parkları və məhəllələri, eləcə də aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Prezidentinin 2021-ci il 22 yanvar tarixli fərmanına əsasən, İqtisadi Zonaların İnkişafı Agentliyinin yaradılması da bunun bariz ifadəsidir. Bundan əsas məqsəd sənaye parklarının (Balaxanı Sənaye Parkı istisna olmaqla), sənaye məhəllələrinin (Naxçıvan Muxtar Respublikasında yaradılan sənaye məhəllələri istisna olmaqla) və aqroparkların fəaliyyətinin təşkili, onların idarə olunması və inkişafı ilə bağlı tədbirlər hazırlamaq, həyata keçirilməsini təmin etmək, o cümlədən bu istiqamətdə göstərilən dövlət dəstəyi tədbirlərini həyata keçirmək olub.

Sənaye parklarının qarşısına innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişaf etdirilməsi, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkarlığın dəstəklənməsi mühüm vəzifə kimi qoyulub. Bütün bunlarla yanaşı, iqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun davamlı inkişafının gerçəkləşdirilməsi, ölkənin yerli və xarici investisiyalar üçün əlverişliliyinin yüksəldilməsi, əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılması kimi məsələlərə xüsusi önəm verilib.

Qanunvericiliyə uyğun olaraq, sənaye parklarında indiyədək bir sıra stimullaşdırıcı tədbirlər tətbiq olunub. Məsələn, Vergi Məcəlləsinə və "Gömrük tarifi haqqında" Qanuna uyğun olaraq, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 10 il müddətinə gömrük rüsumlarından azad olunurlar.

İşğaldan azad edilmiş ərazilərdə quruculuq və abadlıq işlərinin uğurla həyata keçirilməsi, eləcə də əhalinin dayanıqlı məskunlaşmasının təmin edilməsi məqsədilə rəqabətqabiliyyətli və dayanıqlı iqtisadiyyatın formalaşdırılması, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafı və zəruri stimulların tətbiqinin xüsusi əhəmiyyəti nəzərə alınaraq dövlət başçısının 2021-ci il 28 may tarixli fərmanı ilə Ağdam şəhərində 190 hektar ərazidə Ağdam Sənaye Parkı yaradılıb.

Hazırda Ağdam Sənaye Parkında sahibkarlar üçün əlverişli investisiya mühitinin yaradılması istiqamətində işlər mərhələli şəkildə həyata keçirilir və artıq burada sosial zonanın təşkili yekunlaşıb, parka ayrılan 190 hektar ərazi minalardan təmizlənib, elektrik enerjisi və su təchizatı sistemi qurulub. Həmçinin rezidentlər üçün konteyner tipli ofis, yataqxana, tibb məntəqəsi, mağaza, aptek və yeməkxana yaradılıb, əraziyə asfalt yol çəkilib, abadlıq işləri aparılıb.

İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyi İdarə Heyətinin sədri Seymur Adıgözəlovun sözlərinə görə, cari il ərzində Ağdam Sənaye Parkında 5-dən çox müəssisənin fəaliyyətə başlaması nəzərdə tutulub. Artıq parkın ərazisinin 60 faizindən çox hissəsi sahibkarların uzun müddətlik istifadəsinə verilib.

Ağdam Sənaye Parkında ümumi investisiyaları 200,6 milyon manat olan 23 sahibkarlıq subyektinə rezidentlik, 6 sahibkara isə qeyri-rezidentlik verilib. Onların parkda, ümumilikdə, 1900-dən çox iş yeri yaratmaları nəzərdə tutulub. İndiyədək parka 35 milyon manatdan artıq investisiya yatırılıb, 300-dək daimi iş yeri yaradılıb.

Bu il Ağdam Sənaye Parkında havalandırma, yanğınsöndürmə avadanlıqlarının və müxtəlif metal məmulatlarının, tikinti materiallarının, dam örtüklərinin, boru və qutu profillərin, elektrik paylayıcı avadanlıqların və elektrik yuvaların, müxtəlif növ dəmir yolu avadanlıqların, divar kağızlarının, ayaqqabıların istehsalına başlanılması nəzərdə tutulur.

Azad olunmuş ərazilərin iqtisadi potensialının hərəkətə gətirilməsində, eləcə də sənaye sahəsində məşğulluğun təmin olunmasında mühüm rol oynayan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı isə "Araz Vadisi İqtisadi Zonası Sənaye Parkının yaradılması haqqında" Prezident İlham Əliyevin 4 oktyabr 2021-ci il tarixli fərmanı ilə Cəbrayıl rayonunda yaradılıb.

Parkın logistik imkanlar baxımından əlverişli ərazidə yaradılması investorların diqqətini cəlb edən əsas amillərdən biridir. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşməsi də onun uğurlu fəaliyyəti üçün zəmin yaradır. Belə ki, parkın ərazisindən həmin magistral yollara birbaşa giriş-çıxışın təmin edilməsi Zəngəzur dəhlizi vasitəsilə Azərbaycandan Türkiyəyə və Türkiyədən Azərbaycana, eləcə də Azərbaycan ərazisindən Rusiyaya yüklərin daşınmasına imkan verir.

200 hektar ərazini əhatə edən parkın prioritet istiqamətləri kimi logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin təşkili müəyyənləşdirilib. Bütün bu amillər həm yerli, həm də xarici iş adamlarının marağına səbəb olub.

Bir sözlə, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yaradılmasında əsas məqsəd işğaldan azad edilən ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının inkişaf etdirilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının təşkil olunması, eyni zamanda, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır.

## Qeyri-neft sektorunda istehsal 7 faiz artıb

**Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən cari ilin yanvar-may aylarında 26,2 milyard manatlıq məhsul istehsal edilib.**



Dövlət Statistika Komitəsindən bildirilib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə neft-qaz sektorunda məhsul istehsalı 0,2 faiz azalıb, qeyri-neft-qaz sektorunda isə 7 faiz artıb. Sənaye məhsulunun 64,7 faizi mədənçıxarma, 29,3 faizi emal, 5,1 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi, 0,9 faizi isə su təchizatı sektorlarında istehsal olunub. Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 5,7 faiz azalıb, əmtəəlik qaz hasilatı isə 4,1 faiz artıb.

Emal sektorunda tikinti materiallarının istehsalı 38,8 faiz, kompüter, elektron və optik məhsulların istehsalı 37,5 faiz, mebel istehsalı 36,6 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 36,5 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 31,3 faiz, əczaçılıq məhsullarının istehsalı 29,6 faiz, elektrik avadanlıqlarının istehsalı 22,2 faiz, kimya sənayesi məhsullarının istehsalı 5,1 faiz, qida məhsullarının istehsalı 4,1 faiz artıb.




## Ölkəmizdə 2,3 faiz iqtisadi artım gözlənilir

**Bu barədə Dünya Bankının (DB) iyunun 12-də dərc edilmiş Avropa və Mərkəzi Asiya iqtisadiyyatı üzrə "Özəl sektorun gücünün artırılması" adlı hesabatında deyilir.**

Qeyd olunur ki, yanvar ayının proqnozu ilə nisbətdə 2024-2025-ci illərdə ümumi daxili məhsulun (ÜDM) artım tempi 0,1 faiz bəndi azalıb. Bundan başqa, DB-nin proqnozlarına görə, 2024-2026-cı illərdə Cənubi Qafqaz ölkələrində iqtisadiyyatın artımı, təxminən, 3,5 faiz səviyyəsində sabitləşəcək.

### Günün cavabı

**Son günlər Azərbaycanda unun bahalaşması müşahidə olunur. Belə ki, aprel ayında 25 manat 5 qəpiyə satılan 50 kiloqramlıq bir kisə un may ayında 27 manat 35 qəpiyə yüksəlib. Qiymət artımı iyun ayının əvvəllərindən etibarən də davam edib. Belə ki, əvvəlki aylarda 26-27 manata satılan 50 kiloqramlıq un kisəsi hazırda satış məntəqələrində 30-32 manata təklif edilir. Əla növ unun kisəsinin fabrik qiyməti isə ötən ay 26,8 manat olduğu halda, artıq 28,5 manata çatıb.**

Yeri gəlmişkən, hazırda Azərbaycanda unun topdansatışı ilə 23 şirkət və bir fərdi sahibkar məşğul olur. Həmin qurumların bəziləri hətta ötən ilin oktyabr-noyabr aylarında 50 kiloqramlıq unun bir kisəsini 1 manat bahalaşdırmışdılar. Araşdırmalara əsasən, bu sahədə ən yüksək artım Xızı rayonunun Giləzi qəsəbəsində yerləşən fiziki şəxs İsgəndər Mirzəyevə məxsus topdansatış mərkəzində qeydə alınmışdı. Belə ki, avqust ayının sonunda burada satılan 50 kiloqramlıq un kisəsinin topdansatış qiyməti 26 manat 10 qəpik olduğu halda, oktyabr ayının əvvəlində 27 manat 25 qəpiyə qaldırılmışdı. Bununla yanaşı, ötən müddətdə "Dəvəçi-Dəyirman", "Dəvəçi-Taxıl", "Şəmkir Un-Yem" və "Sünbül 2012" məhdud məsuliyyətli cəmiyyətlərə məxsus topdansatış mərkəzlərində də unun satış qiymətləri qaldırılıb.

# Çörək bahalaşmayacaq

## *Dövlət unun qiymətində artımı nəzarətdə saxlayır*



Bu sahədə çalışan şirkətlər isə bahalaşmanı, əsasən, Rusiyanın taxıl ixracına qoyulan məhdudiyyətlə izah edirlər. Ölkənin bir sıra tanınmış ekspertləri isə unun qiymətindəki bahalaşmanı dünya iqtisadiyyatında baş verən proseslərlə əlaqələndirirlər. Onların fikrincə, son zamanlar maliyyə sektoru ilə real istehsal sektoru arasında problemlərin, uyğunsuzluqların getdikcə artması ilə yanaşı, ölkələr arasındakı iqtisadi və geosiyasi ziddiyyətlər də kritik dərəcədə böyüyür. Bütün bunlar da qiymət amilinə öz təsirini göstərir. Ekspertlər yaxın aylarda dünya bazarında qiymətlərin pul-kredit siyasətinin sərtləşməsi hesabına bir qədər sabit saxlanmasına baxmayaraq, kəskin bahalaşmanın baş verəcəyini də istisna etmirlər. Bu da qlobal və regional bazarlarda qiymət artımına səbəb olacaq. Onlar qeyd edirlər ki, Azərbaycan idxaldan asılılığı azaltmasa, bu bahalaşma ölkə iqtisadiyyatına öz təsirini göstərəcək. Bunun qarşısını almaq üçün isə dövlət yerli istehsala daha çox sərmayə yatırmalı, kənd təsərrüfatı sektorunun inkişafı maksimum şəkildə təmin edilməli və regional iqtisadi əməkdaşlıq çərçivəsində zəngin resurs bazasına malik olan qonşu ölkələrlə iqtisadi əməkdaşlıq dərinləşdirilməlidir.

Unun satış qiymətlərində belə bir artım, hələlik, çörəyin bahalaşmasına səbəb olmasa da, istənilən halda bu, əhali arasında narahatlığa səbəb olub. Hətta bunu növbəti qiymət artımının anonsu kimi dəyərləndirənlər də var. Bəziləri iddia edirlər ki, unun qiymətində bahalaşma tezliklə digər məhsullarda da qiymət artımına gətirib çıxara bilər. Artıq unun qiymətinin qalxması dövlət qurumlarını da hərəkətə gətirib. Belə ki, Azərbaycanda unun bahalaşması ilə əlaqədar olaraq bu sahədə çalışan şirkətlərə və sahibkarlara xəbərdarlıq edilib.

Bu arada, Antiinhisar və İstehlak Bazarına Nəzarət Xidmətində ölkədəki un istehsalçıları ilə görüş keçirilib. Görüşdə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində rəis müavini Elnur Bağırov, antiinhisar nəzarəti və istehlak bazarına nəzarət şöbələrinin rəhbərləri Fuad Yadigarov və Yusif Tapdıqlının iştirakı ilə dövlət–özəl dialoqu çərçivəsində müvafiq sahədə fəaliyyət göstərən iri sahibkarlıq subyektləri və onları təmsil edən assosiasiyalar iştirak edib. Onların arasında ölkənin ən iri un istehsalçıları sayılan "Karat Holdinq" MMC, "Karmen" MMC, fiziki şəxs İskəndər Mirzəyev, "ATS Mill" MMC, "Dəvəçi Dəyirman" MMC və digərləri də olub. Rəsmi məlumata görə, görüşdə unun qiymətinin artması, Azərbaycan üçün əsas idxal bazarlarında, yəni Rusiya və Qazaxıstanda ərzaqlıq buğdanın hazırkı qiyməti və bu qiymətlərin Azərbaycanda unun qiyməti ilə uyğun olub-olmaması müzakirə edilib.

Tədbirdə şirkətlərə bildirilib ki, qiymət formalaşması zamanı antiinhisar qanunvericiliyinin tələblərinə ciddi riayət olunmalıdır. Üstəlik, onların nəzərəinə çatdırılıb ki, cari ilin iyul ayının 1-dən etibarən ölkədə Rəqabət Məcəlləsi qüvvəyə minəcək. Bununla əlaqədar iş adamlarına sözügedən sənəddəki tələblər xatırladılıb. Eyni zamanda, qeyd olunub ki, əsassız, süni qiymət artımının qarşısının alınması, qiymətin formalaşması zamanı antiinhisar qanunvericiliyinə riayət olunmasına nəzarət məqsədilə Dövlət Xidməti tərəfindən istehlak bazarında mütəmadi monitorinqlər aparılır və pozuntu aşkar olunduqda qanunvericiliyə uyğun tədbirlər görülür.

### Ekspert rəyi

**Eldəniz ƏMİROV,**
**iqtisadçı-ekspert**



Hər şeydən əvvəl qeyd etmək istəyirəm ki, Rusiya–Ukrayna münaqişəsi bir çox məhsullara, eləcə də taxıla olan tələbatın ödənilməsində müəyyən problemlər yaradacaq. Nəzərə almaq lazımdır ki, həm Rusiya, həm də Ukrayna ciddi taxıl istehsalı və ixracına malikdirlər. Dünya üzrə buğda istehsalının 25 faizi, qarğıdalı istehsalının isə 20 faizdən çoxu məhz bu iki dövlətin payına düşür. Ona görə də bir çox ölkələrdə, xüsusilə də idxaldan asılı olan dövlətlərdə taxıl tələbatının ödənilməsi ilə bağlı ciddi problemlər yaşana bilər.

Taxıl ixracı potensialına malik ölkələrdə istehsalın zəifliyi, eyni zamanda, ixraca qoyulan rüsumların qaldırılması qiymət artımına səbəb olacaq. Qiymətlərin bahalaşması da yerlərdə unun, eləcə də çörəyin bahalaşmasına gətirib çıxaracaq. Bu, real gözləntidir. Sadəcə olaraq, qiymət artımının qarşısının alınması üçün dövlət dəstək proqramlarının işə salınması, subsidiyaların verilməsi mümkündür. İstənilən halda, Azərbaycanda qıtlıq olacağını hesab etmirəm, çünki ölkənin valyuta ehtiyatı hesabına taxıla olan tələbatın ödənilməsi mümkündür. Nəzərə almaq lazımdır ki, Azərbaycanın valyuta ehtiyatı artır. Müharibənin inflyasiya, qiymət artımı, taxıl qıtlığı yaratmaq ehtimalı olsa da, eyni zamanda, bu müharibə dünya bazarında neftin və qazın qiymətinin qalxmasına gətirib çıxarıb. Bu da ölkəmizə daha çox valyuta ehtiyatının daxil olmasına zəmin yaradıb.

O ki, qaldı ölkəmizdə unun qiymətinin artmasına, ilk növbədə, qeyd etmək istəyirəm ki, 50 kiloqramlıq un kisəsinin 25 manat 5 qəpikdən 27 manat 35 qəpiyə qədər qalxması bu sahədə 2 manat 30 qəpiklik bahalaşma deməkdir. Bu isə qiymətin hər 1 kiloqram un üçün 4,6 qəpiklik artımıdır. Belədə isə 500 qramlıq hər çörəyə 2-3 qəpik artım payı düşür. Odur ki, 50 kiloqramlıq un kisəsinin 2,3 manat artmasının hazırda çörəyin qiymətinə təsir etməyəcəyini demək olar. Amma bir məsələ də var ki, istehsalçılar qiyməti nəzarət səbəbindən qaldıra bilməsələr də, hər çörəkdə 2 qəpik itirməmək üçün çəkini 20 qram azalda bilərlər. Ona görə ki hazırkı qiymətlərlə hər 10 qram çörəyin satış qiyməti, təxminən, 1 qəpikdir. Odur ki, 2 qəpik itirmək istəməyənlər çörəyin çəkisini 20 qram kəsmək fikrinə düşə bilərlər.

Bir məqamı da qeyd etmək istəyirəm ki, Azərbaycanda kənd təsərrüfatı üçün yararlı torpaq sahələrinin həcmini, torpağın keyfiyyətini, taxıl əkini sahələrinin həcmini və yetişdirilə bilən buğdanın keyfiyyət göstəricilərini, eləcə də artan əhali sayını nəzərə alsaq, deyə bilərik ki, biz hər zaman ərzaqlıq buğdanın böyük hissəsini hansısa ölkədən idxal edəcəyik. Bu isə unun qiymətində bu cür artıb-azalmaları qaçılmaz edəcək. Ona görə də çörəyin qiyməti dövlət tərəfindən müxtəlif alətlərin köməyi ilə tənzimlənir və onun hər kəs üçün əlçatan olması təmin edilir.

*Hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# O`Braynın "sülh məntiqi"

(əvvəli 1-ci səhifədə)



Dövlətimiz bunu hədə-qorxu və daxili işlərinə qarışmaq kimi qiymətləndirmişdi və haqlı idi. Ən əsası, rəsmi Bakı hesab etmişdi ki, C.O'Braynın mövqeyi Azərbaycan–Ermənistan sülh prosesinə əngəldir.

Haşiyə çıxaq ki, Naxçıvana yol məntiqi 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda əksini tapıb. Sənəddə bildirilib ki, sözügedən yolda təhlükəsizliyi Rusiya Federal Təhlükəsizlik Xidməti təmin etməlidir. Orada heç bir gömrük və sərhəd nəzarəti olmamalı, yəni dəhliz "Azərbaycandan Azərbaycana yol" məntiqi əsasında fəaliyyət göstərməlidir. Ermənistan bununla razılaşmırsa, Azərbaycan alternativ kimi İran ərazisindən istifadəni məqbul sayır və Tehranla anlaşır. Buna münasibətdə əks fikir olmalıdırmı? Əlbəttə ki, yox! Ancaq olmuşdu. Hərçənd, həmin fikrin əsaslandırılmasında tutarlı arqument istisnadır. C.O'Braynın şəxsində ABŞ bildimişdi ki, Naxçıvana yol İrandan deyil, Ermənistandan keçməlidir, vəssalam. Əlbəttə, belə mövqe Bakıda etiraz doğurmalı idi və doğurdu da. Yəni, Azərbaycanı haqlı tərəfə çevirən məqam budur.

*

Əlqərəz, son vaxtlar elə təəssürat yaranırdı ki, Birləşmiş Ştatlar əvvəlki mövqeyində deyil. Bəlkə də deyil. Amma göründüyü kimi, C.O'Brayn yenə gündəmdədir və o, fikirlərini bir qədər fərqli tərtibatda çatdırır. Belə düşünməyə əsas formalaşır ki, Ermənistan Rusiyanın bölgədə olmayacağı halda hər şeyə razıdır. Bu yerdə Dövlət Departamenti rəsmisinin sülh müqaviləsi xüsusunda "ABŞ iki Cənubi Qafqaz ölkəsini belə bir razılaşmanı qarşıdakı həftələrdə, aylarda yekunlaşdırmağa cəsarətləndirir" kimi fikirlər səsləndirməsi əhəmiyyətini itirir. Yəni, C.O'Braynın dilə gətirdikləri fərqli məna daşıyır. Hansı mənanı daşıyır? Fikrimizi əsaslandırmaq üçün onun "Azadlıq radiosu"na açıqlamasındakı daha bir vacib məqama keçid alaq.

*

ABŞ rəsmisi bildirir ki, Mərkəzi Asiyadan yeni ticarət dəhlizi yalnız Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması nəticəsində reallaşa biləcək. "Bizim fikrimizcə, Mərkəzi Asiyadan Aralıq dənizi istiqamətində ticarət dəhlizi inşa etmək üçün bir neçə nəsildən bir üzə çıxan fürsət yaranıb. Bu, yalnız Azərbaycan və Ermənistan arasında sülh olduğu təqdirdə mümkün ola bilər. Bu, bütün dəhliz boyunca yeni sənaye istiqamətləri yaradacaq. Bu, indi baş verə bilər. Bir neçə il sonra, indiki qədər əhəmiyyətli olmayacaq... Ona görə də indi bunu etməyin zamanıdır", – deyən Birləşmiş Ştatlar rəsmisi onu da bildirib ki, haqqında söz açdığı ticarət dəhlizi Azərbaycan ərazisi ilə Mərkəzi Asiyadan Gürcüstanın Qara dəniz sahillərinə olan mövcud nəqliyyat əlaqələrinə əlavə olacaq.

Yeri gəlmişkən, C.O'Brayn ötən ilki amiranə çıxışında onu da bildirmişdi ki, Azərbaycan üçün münaqişəsi müddətdə seçim şansı var. Onun dediklərindən hasil olan nəticə bu idi ki, ölkəmiz ya Qərb, ya da Rusiya istiqamətinə üstünlük verməlidir. Azərbaycan isə hər zaman özünün balanslı siyasətinə sadiqdir. Yəni, həm dünya, həm də hazırda dünyanın gözdən saldığı Moskva ilə eyni dərəcədə, özünün maraq və mənafelərindən irəli gələn münasibətlər qurmaqdadır. Azərbaycan, həmçinin "region region ölkələri üçündür" şüarını rəhbər tutur. Bu şüarda vahid "Qafqaz evi" ideyası var ki, həmin ideyada bölgə və bölgəyə bağlı bütün tərəflərin maraqlarının uzlaşdırılması prinsipi əsas götürülür.

Deməli, Rusiyanın marağını danmaq olmaz. Məsələ heç də onda deyil ki, Kremlin Cənubi Qafqazdakı varlığını heçə saymaq mümkünsüzdür. Sadəcə, buna ehtiyac yoxdur. Həm də ona görə ki, Rusiya özü böyük bazardır. Üstəlik, Qərbə xoş gəlməyən İran amili var. Nə üçün bu amil barədə düşünülməməlidir? Rusiya kimi onun da Cənubi Qafqazla tarixi bağlılıq telləri var. Eləcə də qardaş Türkiyənin. Deməli, regionda Rusiyanın, İranın, Türkiyənin, habelə yerlilərin – Azərbaycanın, Gürcüstanın və Ermənistanın mənafeləri əsas götürülməlidir, hansısa kənar tərəf ikinci planda olmalıdır.

C.O'Braynın Bakı–İrəvan sülh sazişinin mümkünlük parametri isə tamam başqa mətləblərdən xəbər verir. Əvvəldə də bildirdiyimiz kimi, o, Rusiyasız Cənubi Qafqaz formulundan söz açır. Deməli, eyni məntiqlə Mərkəzi Asiyadan yeni ticarət dəhlizi haqqında danışır. Sözlərindən belə çıxır ki, İrəvan sülhə yalnız bu dəhlizin Vaşinqtonun istədiyi tərzdə açılması ilə razılaşacaq. Bununla da ABŞ rəsmisi, dolayısı ilə, ötən ilin sonunda səsləndirdiyi fikrə yenidən qayıtmış olur. Görəsən, Ağ ev yenə C.O'Braynın mövqeyinə düzəliş edəcək, yoxsa...

*

Qeyd edək ki, C.O'Braynın İrəvana səfəri zamanı açıqladığı başqa məqamlar da var. Ağ ev rəsmisi ölkəsinin bu il aprelin 5-də Brüsseldə Ermənistan–ABŞ–Avropa İttifaqı formatında keçirilmiş görüşün razılaşmalarına əməl etməyə hazır olduğunu təsdiqləyib. "Ölkələrimiz bu gün strateji dialoq səndinə məlumat mübadiləsinə dair saziş imzalayacaq. Bu, yaxın illərdə ticarət və biznesi asanlaşdıracaq. Bu, Brüsseldə müzakirə olunan vədlərin bir hissəsidir", – deyən C.O'Braynın sözlərinə görə, Vaşinqton ABŞ–Ermənistan strateji dialoqunun formatını Strateji Tərəfdaşlıq Komissiyasına dəyişmək istəyir. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan isə deyir ki, strateji dialoqun yeni səviyyəsinə çıxması çoxşaxəli əməkdaşlığın struktur əsaslarını daha da gücləndirməyə kömək göstərəcək. A.Mirzoyanın şəxsində rəsmi İrəvan yaxşı anlayır ki, Birləşmiş Ştatlar Cənubi Qafqazda mövqeyini daha da möhkəmləndirmək istəyir. Ona görə də Vaşinqtonu, faktiki olaraq, Qərbdə yeni tərəfdaşlar tapmaqla hədələyir. Habelə, müxtəlif anti-Rusiya hərəkətləri ilə özünü cəlbedici tonda saxlayır. Bir sözlə, odla oynamaq yolu tutur. Fərqinə varmır ki, belə davranışlar Ermənistanı regionda zəif halqaya çevirir. Fərqinə varmasın, onsuz da dediyimiz məqam ölkənin müasir siyasi düşüncə tərzi üçün xarakterik haldır. Başlıca məsələ Vaşinqtonun İrəvan üzərinə sərmayə yatırmasıdır. Mövcud sərmayə ilə ABŞ Rusiya və İran sərhədlərində xaos yaratmaq üçün Cənubi Qafqazda sabitliyi pozmağa çalışan amplausnadır.

Digər tərəfdən, axı necə ola bilər ki, C.O'Brayn sülhdən danışır, amma ABŞ-ın Xarici Hərbi Maliyyələşdirmə (FMF) proqramı çərçivəsində Ermənistana qabaqcıl hərbi texnikaya və ən son texnologiyalara çıxışı asanlaşdırmaq üçün vəsait ayıracağı barədə məlumat yayılır? "Caliber.az"ın yazdığına görə, Birləşmiş Ştatlar Ermənistan ərazisində GPS Qlobal Mövqe Müəyyənetmə Sistemi texnologiyasından geniş istifadəni sürətləndirməyə çalışacaq. Xatırladaq ki, FMF Birləşmiş Ştatların müttəfiqlərinə və tərəfdaşlarına avadanlıq, təlim və hərbi ehtiyacların qarşılanması üçün qrantlar və ya kreditlər vermək məqsədi ilə nəzərdə tutulub və o, Amerikanın xarici siyasətinin əsas alətlərindən biridir. Hər halda, məsələdən sülh qoxusunun gəlmədiyi gün kimi aydındır.

***

Başqa bir məqamın üzərində dayanaq. Ceyms O`Braynın Ermənistana səfəri xüsusunda İrəvanda "Dünyanın kəsişməsi" təşəbbüsü qaldırılır. Baş nazir Nikol Paşinyan tərəfindən irəli sürülmüş bu təşəbbüsün Azərbaycanın "Zəngəzur dəhlizi" ideyasına qarşı olduğu məlumdur. C.O`Brayn "Mərkəzi Asiyadan yeni ticarət dəhlizi" məntiqi üzərində dayanaraq, sülhün yalnız bunun reallaşacağı təqdirdə mümkünlüyündən söz açırsa, üstəlik, A.Mirzoyan Ermənistan və ABŞ arasında Strateji Dialoqun yekun iclasında çıxışı zamanı ölkəsinin köhnə ritorikasına üstünlük verib "ərazi bütövlüyü və suverenlik" deyimini gündəmə gətirirsə, deməli, Naxçıvana yolla bağlı Azərbaycanın mövqeyi nəzərə alınmır.

Söylədiklərimizdən, ümumən, belə qənaətə gəlmək olar ki, əslində, Birləşmiş Ştatlar rəsmisi tərəfindən səsləndirilmiş fikirlər ölkəmizə Bakı–İrəvan sülh sazişi xüsusunda irəli sürülmüş şərtdir. Onun söylədikləri, eyni zamanda, Azərbaycana həmin şərtin yerinə yetirilməyəcəyi təqdirdə, gözlənilən olaylar barədə xəbərdarlıqdır. Nəzərə alaq ki, xəbərdarlıq Vaşinqtonun İrəvana dəstəyi, o cümlədən, hərbi yardımı artırmasına yönələn tədbirlərlə edilir. Bu yerdə ABŞ-ı bir kənara qoyaraq, yenidən Ermənistanın odla oynadığını bildirək. Çünki Vaşqinton Cənubi Qafqazda sülhü geosiyasi rəqabət müstəvisinə gətirir, rəsmi İrəvan isə adekvat hərəkətləri buna razılıq verdiyini göstərərək reallıqlardan uzaqlaşır. Nəzərə almır ki, onun ABŞ və ümumən Qərblə münasibətlərin dərəcəsini artırması nəticəsində formalaşmış ritorika Azərbaycanla sülh müqaviləsinin imzalanmasını ləngidir. Deməli, mövcud istiqamətdəki vəziyyət mürəkkəbləşir. Ötən illərin təcrübəsi göstərir ki, vəziyyətin mürəkkəb xarakter almasından və qeyri-müəyyənlik mühitindən yalnız gərginlik doğur. Gərginliyin isə İrəvana ancaq zərəri var.

*Əvəz CAHANGİROĞLU*
*XQ*

---

**Replika**

**Siyasi cırnama. Çox güman, belə bir ifadə ilə ilk dəfədir rastlaşırsınız. Açığı, Ermənistan baş naziri Nikol Paşinyanın Belarus, daha doğrusu, bu ölkənin Prezidenti Aleksandr Lukaşenko əleyhinə səsləndirdiyi fikirlərə başqa ad tapa bilmədik. Nikol konkret nələri dilə gətirib, bu barədə söz açacağıq.**

# Cırnama

## Yaxud Paşinyanın anti-Belarus "demarş"ındakı siyasi etikasızlıq

Hələlik isə bildirək ki, erməni baş nazir siyasətdən uzaq adam olduğunu bir daha sübuta yetirdi. Bu mənada Ermənistan parlamentinə siyasi sirk arenası da deyə bilərik. Çünki bu məkanda hər cür məsuliyyətsiz bəyanatlar səsləndirilməkdədir. Paşinyan isə oradakı ümumi ab-havaya adekvat davrandığını təsdiqlədi. Buna adekvat davranış demək mümkünsə.

Paşinyan özünün qeyri-ciddi siyasətçi obrazını yenidən ortaya qoydu. Əslində, lap əvvəldən də A.Lukaşenkonun Nikolun xarakterinə bələdliyini görməmək mümkündür və birincinin ara-sıra müəyyən jestlərlə Paşinyanı doladığından çoxları xəbərdardır. Məsələn, 2022-ci ilin noyabrında Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının İrəvanda keçirilmiş ali səviyyəli sammitini xatırlayaq. Erməni baş nazir rəsmi prosedura uyğun qaydada təşkilata üzv dövlətlərin başçılarını sammitin keçirildiyi məkanda qarşılamışdı. Paşinyanın Lukaşenkodan xoşu gəlmədiyindən, bu onun sifət cizgilərinə də təsir göstərmişdi. Belarus lideri isə ona yaxınlaşar-yaxınlaşmaz özünəxas yumorla soruşmuşdu: Niyə kefin yoxdur?



Bəli, A.Lukaşenko sözügedən toplantıda da Paşinyanın "kefinə soğan doğraması" ilə yadda qalmışdı. Əsasları da var idi. Erməni baş nazir KTMT-nin Azərbaycanla bağlı siyasi qərar çıxarmasına nail olmağa çalışmış və dayanmadan, bütün etik normaları aşaraq israr etmişdi. Tədbirdə söz alan Belarus Prezidenti realliqları dilə gətirmişdi. O, Nikolu KTMT üzvü olan dövlətlərin başçılarını uşaq yerinə qoymamağa çağırmış və faktiki olaraq demişdi ki, Ermənistanın Azərbaycanla üzləşdiyi problemin quruma heç bir dəxli yoxdur, İrəvan Bakı ilə özü dil tapmalıdır...

Əlbəttə, A.Lukaşenko qeyd etdiyi məsələdəki fikirlərini əsaslandırmaq üçün bir çox məqamların üzərində dayanmış, durumu izah etmişdi. Lakin izahat işlərinin Nikola heç bir təsiri olmamışdı. Həmin vaxt Paşinyanın sifətindən sanki zəhrimar yağırdı.

***

Ermənistanın baş naziri dünən parlamentdə Belarus barədə fikir səsləndirəndə də üzünə mənfi emosiyalar qondurdu. O, çox aydın tərzdə dedi ki, bundan sonra ölkəsinin heç bir rəsmi nümayəndəsi Belarusa səfər etməyəcək. "Gedib Belarus Prezidentinin yanında oturub Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı formatında məsələləri müzakirə etməliyəmmi? Mən bəyan edirəm ki, Aleksandr Lukaşenko bu ölkənin prezidenti olduğu müddətdə bir daha Belarusa getməyəcəm", – deyən Paşinyan həddini aşaraq onu da bildirdi ki, Lukaşenko erməni xalqından üzr istəməlidir. Görəsən niyə?

Suala cavab verməzdən öncə bildirək ki, N.Paşinyan ötən açıqlamalarının birində Ermənistana qarşı 44 günlük müharibə planının hazırlanmasında iki KTMT üzvünün iştirakından söz açmışdı. Nikolun bu açıqlaması Belarus Prezidentinin Azərbaycana səfərindən sonraya təsadüf etmişdi. Məsələ burasındadır ki, A.Lukaşenko müharibəni ölkəmizin "azadlıq müharibəsi" adlandırmış, həmçinin, başqa məqamları da dilə gətirmişdi: "Mən bir daha düşündüm və müharibədən əvvəl, Sizin azadlıq müharibənizdən öncə söhbətimizi xatırladım. Həmin vaxt biz nahar süfrəsi arxasında ikilikdə fəlsəfi fikir yürüdürdük və belə nəticəyə gəldik ki, müharibədə qələbə çalmaq olar. Bu vacibdir, Qələbəni qoruyub saxlamaq daha vacibdir. Üçüncüsü isə Sizin də bu mövzuya toxunduğunuz kimi, biz ümumi fikrə gəldik ki, müharibədən sonra ən ağır dövr başlayacaq, azad etdiyiniz torpaqları dirçəltməyə, bərpa etməyə başlamaq lazım gələcək. Həmin ağır dövr gəlib çatdı, bu torpaqları dirçəltmək, insanları artıq qaytarmaq lazımdır, onların bəziləri şəhərdə anadan olub, problemlər ola bilər və sair. Qələbə çaldınız və onu qoruyub saxladınız. İndi dirçəliş dövrüdür. Bu, zaman, böyük zəhmət tələb edir, beş və ola bilər ki, on il ərzində həmin işlər yerinə yetirilməlidir".

***

Qeyd edək ki, Belarus Prezidenti A.Lukaşenkonun Azərbaycan Prezidenti İlham Əliyevlə Bakıdakı görüşdən sonra səsləndirdiyi fikirlər Ermənistanda geniş əks-səda doğurmuşdu. Daha böyük hay-küy isə cənab Lukaşenko dövlətimizin başçısı ilə birlikdə Şuşaya səfər edərkən qopmuşdu. Hayların bir çox xəbər saytları səfərə "Belarus prezidenti işğal olunmuş erməni şəhəri Şuşaya səfər etdi" şəklində yer vermişdilər.

Ermənistandakı, belə demək mümkünsə, anti-Lukaşenko ritorikası fonunda N.Paşinyan yalnız lap əvvəldə diqqətə çatdırdığımız fikri dilə gətirməklə, yəni 44 günlük müharibə xüsusunda mövqe səsləndirməklə kifayətlənmiş, "Azərbaycana kömək göstərmiş" iki KTMT ölkəsinin adını çəkməmişdi. İndi tam əminliklə söyləmək mümkündür ki, Nikol həmin ölkələrdən birinin Belarus olduğunu açıqca deyib.

Bəli, N.Paşinyan etikasızlıq edir, bu öz yerində, eyni zamanda, son dərəcə məsuliyyətsiz davranır. Görəsən, Ermənistan rəsmilərinin Belarusa səfər etməməsi nə deməkdir? Paşinyan fərqinə varırmı ki, məsələ həmin ölkə ilə diplomatik münasibətlərin kəsilməsi müstəvisində dəyərləndirilə bilər? Bəlkə, Belarusdakı erməni səfirini də geri çağırsın?

Üstəlik, A.Lukaşenko nə üçün erməni xalqından üzr istəməlidir? Görəsən, Ermənistan işğal etdiyi torpaqlardan çıxmamalı idi? Deməli, Nikolun ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tanınması ilə bağlı bəyanatı mənasızdır. Başqa nə düşünəsən?

***

N.Paşinyanın fikirləri xüsusunda üzərində dayanılacaq digər məqamlar da var. Birincisi, erməni baş nazir ölkəsinin anti-KTMT ritorikasını bir qədər də dərinləşdirməklə, ona yeni tünd rəng çalarları gətirməklə məşğuldur. Nəzərə alaq, bu, həm də Rusiya ilə ziddiyyətləri gücləndirmək xəttidir.

İkincisi, Paşinyanın haqqında söz açdığımız fikri hansı vaxtda dilə gətirdiyinə diqqət yetirək. Yada salaq ki, ABŞ Dövlət katibinin köməkçisi Ceyms O`Brayn İrəvanda səfərdədir və bu amerikalı rəsmi Rusiyanı Cənubi Qafqazdan sıxışdırmaqla bağlı bəyanatlar səsləndirib. Yəqin, həmin bəyanatların təsirindəndir ki, Nikol vəziyyəti daha da dramatikləşdirmək yolu tutur. Tutsun, və illüziyaya qapılsın, cırnamağında da olsun. Nə demək olar, can onundur...

*Ə.RÜSTƏMOV*
*XQ*

---

# Gecikmiş etiraf

## Bu, baş nazirin dilindən səslənəndə özgə məna kəsb edir

**"2018-ci ildə Qarabağı Azərbaycanın tərkibində muxtariyyət kimi tanımalı idik. "Dağlıq Qarabağla" bağlı ən böyük problem ondan ibarət idi ki, 2018-ci ilin aprelində artıq yaranmış vəziyyətə görə Ermənistan, istər-istəməz, ya güzəştə getməli, ya da müharibəyə başlamalı idi".**



Bu sözləri iyunun 12-də Ermənistan parlamentində çıxışı zamanı baş nazir Nikol Paşinyan deyib. Əslində, onun sözlərini Qarabağ münaqişəsi ilə bağlı son vaxtlar etdiyi acı etiraflarının siyahısına əlavə edə bilərik. Gecikmiş və üçün acı olsa da, yenə də etirafdır. Həm də bu etiraf Hayastanın sıravi siyasətçisinin, yaxud ekspertinin deyil, baş nazirinin dilindən səsləndə ayrıca çəkiyə minir.

Bunun ardınca 2018-ci ildə çıxılmaz vəziyyətlə üz-üzə qaldığını dilə gətirən Paşinyan deyib: "Özümə sual verdim: Yaxşı, əgər biz güzəştə getsək, sonra növbəti güzəştə getsək, onda güzəştlər seriyası harada dayanacaq? Bax bu suala cavab verə bilmədim. Bəs indi bu suala cavabım varmı? Bəli, var! Bu sualın cavabı Ermənistanın 29 min 743 kvadratkilometr ərazisidir".

Paşinyanın erməni ictimaiyyətinə ünvanladığı tezisin məqsədi aydındır. O, bununla xalqına tarixi Ermənistanla real Ermənistanın fərqini izah etməyə çalışır. Baş nazirin fikrincə, o zaman Bakının təklifini qəbul etsəydi, "Dağlıq Qarabağ"ın Azərbaycanın tərkibində muxtar qurum kimi tanınması, onun təkcə erməni icmasının deyil, həm də azərbaycanlılarla birgə idarəçiliyə imkan verməsi daha düzgün qərar sayılardı.

Bəs o zaman Bakının bu təklifi ilə daxildəki daşnak-separatçılar, xaricdəki lobbi-diaspor qaragüruhu razılaşacaqdımı? Əlbəttə ki, yox. Deməli, onların istəyinə görə, mütləq qan tökülməli, "dəmir yumruq" başlarına dəyməli idi ki, indi "çox istəyən azdan da qalar" kəlamının kəramətinə özləri də əmin olsunlar.

* * *

Parlamentdəki çıxışında İrəvanın güzəştlərinin sərhədinin 29 743 kvadratkilometr olmasını xatırladan Paşinyan o zaman belə bir sözü deməyə cəsarət etmədiyini də boynuna alır: "Mən özümü buna inandıra bilmədim. Bu, mənim ən böyük səhvim və uğursuzluğumdur. Dövlət adamı anlamalı idi ki, bütün bunları öz üzərinə götürmək lazımdır. Və bu gün mən bunu edirəm. Məsuliyyəti öz üzərimə götürməsəm, bunu başqa heç kim etməz. Bu, mənim borcumdur".

"Qarabağ Azərbaycanın bir hissəsidir və Ermənistan cəmiyyətində Qarabağın öz müqəddəratını təyinetmə və status anlayışı yanlış başa düşülürdü" bəyanatını parlamentarilərin diqqətinə çatdıran Ermənistan baş nazirinə bu ağır məsuliyyətin öhdəsindən gəlməkdə, missiyasını axıra qədər yerinə yetirməkdə uğurlar diləyirik. Ən azı, ona görə ki, o, Ermənistanın klerikal–feodal elitasını hakimiyyəti ələ keçirmək və saxlamaqdan ötrü erməni xalqını Qarabağ məsələsində aldatmaqda və çaşdırmaqda ittiham edəcək qədər cəsarət sahibidir. "Qarabağla bağlı bütün həqiqət məhz budur", – deyən Paşinyanla razılaşmamaq mümkün deyil.

İndi ekspertləri maraqlandıran suallardan biri də Nikol Paşinyanın cəmiyyətdə nüfuzunun ölçü dərəcəsinin qədəridir. Düşündük ki, bu suala xarici ekspertin cavabı oxucularımız üçün maraqlı olar.

"Ermənistan baş naziri Nikol Paşinyana daxildəki ictimai dəstəyi qiymətləndirməmək olmaz. Amma yaxın gələcəkdə bu ölkədə "böyük siyasi iğtişaşların" baş verəcəyi ehtimalı da var". "Valday" Beynəlxalq Diskussiya Klubunun İnkişaf və Dəstək Fondunun İdarə Heyətinin sədri Andrey Bıstritski belə hesab edir. Onun fikrincə, hazırkı vəziyyətin hansı istiqamətdə inkişaf edəcəyi ilə bağlı birmənalı proqnoz vermək çətindir: "İnsanlar öz tarixlərinin çətin dövrünü yaşayırlar. Bəli, onların çətinlikləri və narahatlıqları çoxdur".

Bıstritskiyə görə, erməni cəmiyyətinin böyük ölçüdə parçalandığını, amma əksəriyyətin Nikol Paşinyanın dəstəklədiyini nəzərdən qaçırmaq olmaz deyir: "Doğrudur, onu dəstəkləməyənlərin sayı çoxdur. Paşinyan Azərbaycanla aralarındakı problemlərin həllinə yol açmağa çalışır. Aydındır ki, onun bu yöndə cəhdləri də cəmiyyəti parçalayır". Rusiyalı ekspert hesab edir ki, onun (Nikol Paşinyanın – red.) siyasi məhvə məhkum olduğunu söyləmək şişirdilmiş mübaliğə olardı. Onun fikrincə, kifayət qədər qısa müddət ərzində Ermənistanda "böyük siyasi iğtişaşlar" görə biləcəyik: "Ermənistan cəmiyyəti stress vəziyyətindədir. Əgər indi köklü siyasi dəyişikliklər baş verməsə də, yaxın gələcəkdə daxildəki siyasi mövqelərə və istiqamətlərə mütləq yenidən baxılacaq".

Andrey Bıstritskinin Paşinyanla bağlı yarımkibin, yaribədbin proqnozunun özünü doğruldacağı ehtimalı çox azdır. Nikol Paşinyanın maraqla qarşılanan növbəti etirafı ATƏT-in Minsk qrupu ilə bağlı olub. Onun sözlərinə görə, bu qrupun üzvləri 2022-ci ilin fevralından sonra və hətta ondan əvvəl də bir-biri ilə təmasda olmayıb: "Başqa sözlə, ATƏT-in Minsk qrupu hazırda de-fakto mövcud deyil".

Doğru sözə nə deyə bilərik. Əlbəttə ki, Ermənistan baş naziri həqiqəti dilə gətirməklə, cəmiyyətin diqqətinə təzliklə Azərbaycanla imzalayacağı sülh müqaviləsinin preambulasını çatdırmaq niyyətini güdür. Bu da pis niyyət deyil. Təki Paşinyan dediklərini əməldə sübuta yetirmək üçün ikitərəfli sazişə imzasını atsın.

*İ.HƏSƏNQALA*
*XQ*

Günün mövzusu

# Erkən və qohum nikahlar keçmişdə qalacaq

**Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin növbəti iclasında komitə sədri Hicran Hüseynova gündəlikdə olan 4 məsələyə 2 qanun layihəsinin də daxil edildiyini bildirib. Qeyd edilib ki, Ailə, eləcə də Cinayət və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi haqqında qanun layihəsi yetkinlik yaşına çatmayanların erkən evliliyi və qohum nikahlarla bağlı ölkədə mövcud olan ciddi problemlərin qarşısının alınması məqsədilə hazırlanıb.**

Əslində, qanunvericilikdə üzürlü səbəblər olduqda nikah yaşının bir yaş azaldılması əksər hallarda yetkinlik yaşına çatmayanların hüquq və azadlıqlarının məhdudlaşdırılması ilə nəticələnir. Komitə sədri diqqətə çatdırıb ki, layihədə adları çəkilən məcəllələrə dəyişiklik edilməklə, nikah yaşının azaldılması ilə bağlı istisnanın ləğvi, erkən evliliyin təşkilinə, həmin yaşda olan şəxs barəsində evliliyə dair sövdələşməyə daxil olmağa, erkən evliliklə bağlı mərasimlərin keçirilməsinə və dini kəbinkəsməyə görə geniş subyektlər dairəsi üçün məsuliyyətin müəyyənləşdirilməsi nəzərdə tutulur.

Bildirilib ki, bununla yanaşı, qanun layihəsində aralarında nikahın bağlanması yol verilməyən subyektlər dairəsinin genişləndirilməsinə dair təkliflər yer alıb. Belə ki, Ailə Məcəlləsinin 12-ci maddəsində (Nikahın bağlanmasına mane olan hallar) yaxın qohumlarla yanaşı, qardaşların və bacıların ümumi bioloji baba və nənəsi olan uşaqlar, o cümlədən bioloji qohumluğu olan əmi (dayı) və qardaş (bacı) qızı, eləcə də bibi (xala) və qardaş (bacı) oğlu arasında nikahın bağlanmasına yol verilməyən yeni normanın təsbit edilməsi gündəmdədir.

Məsələ ətrafında müzakirələrdə çıxış edən komitə sədrinin müavini Jalə Əliyeva, deputatlar Rəşad Mahmudov, Sədaqət Vəliyeva, Tamam Cəfərova, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov təklif olunan dəyişikliklərin zəruri olduğunu bildiriblər.

Xatırladaq ki, "Xalq qəzeti" son dövrdə hər iki mövzuda "dəyirmi masa" müzakirəsi təşkil etmiş, bununla bağlı ekspertlərin rəylərini öyrənmiş, geniş ictimai diskussiya təşkil etmişdir. Milli Məclis komitəsində aparılan müzakirə ilə bağlı yenidən mütəxəssis və ekspertlərə müraciət etdik.

**Müvafiq qanun dəyişikliyinə münasibət bildirən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Taliyə İbrahimova XQ-yə açıqlamasında bildirdi:**



– Qohum və erkən evlilikdə narahatedici məqam Azərbaycanda xəstə doğulan uşaqların artan statistikasıdır. Əlilliyi rəsmiləşdirilənlərin sayı 70 minə yaxındır. Qohum evliliyinin ən ağır fəsadlarından biri belə nikahlardan doğulan uşaqların sağlamlıq vəziyyətidir. Mütəxəssislər bildirirlər ki, əgər yad insanların evliliyi zamanı onların uşaqlarının qüsurlu olması riski 2–4 faizdirsə, qohum evliliklərdə bu göstərici 4–8 faizdir. Yəni, bu risk 2 dəfə artır.

Genetik xəstəliklərlə doğulan uşaqların 8,4 faizi bu ailələrin payına düşür. Əgər dünyada əngəlli doğulan uşaqlar 1 faizdirsə, qohum evliliklərində 9 faizdir. Bu ailələrdə ölü və yarımçıq doğuşların sayı da digər evliliklərə nisbətən 2 dəfə çoxdur. Qohum evliliklərində ən çox rast gəlinən qan xəstəlikləri, göz, qulaq, əzələ-sinir, ürək-damar və şəkər xəstəlikləri, ağıldankəmlik kimi anormallıqlardır. Buna görə də layihədə təklif edilən dəyişiklikləri zəruri hesab edirəm.

**Azərbaycan Tibb Universiteti II mamalıq-ginekologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor Hicran Bağırova isə dedi:**



– Hər insanın DNK-nı formalaşdıran 23 cüt xromosom və funksiyalarını müəyyənləşdirən, kodlaşdıran genlər var. Həmin genlər bizim bütün həyat tərzimizin divarlarını hörür. Qohumla evlənəndə zərərli genlərin qarşılaşma ehtimalı yüksək olduğundan doğulan uşaqların müəyyən xəstəliklərə tutulması riski yüksək olur. Qohum evliliklər zamanı yaranan bəzi genetik xəstəlikləri uşaq ana bətnində olarkən aşkarlamaq mümkündür.

Bəzi xəstəliklər isə uşaqlıq, gənclik dövründə aşkarlanır. Hətta 40 yaşlarında da özünü büruzə verən genetik xəstəlik mövcuddur. Qanuna dəyişiklik edilməsi gələcəkdə doğulan uşaqların sağlam olmasına zəmanət verir. Sağlam uşaq şansları normal olanda problem yaranmır. Bütün bunlardan sonra gənclər, eləcə də valideynlər bir şeyi bilməlidirlər ki, ailəyə, cəmiyyətə sağlam uşaq bəxş etməyin ən düzgün yolu qohumlarla və erkən nikaha girməməkdir.

**"Leyla" Klinikasının şöbə müdiri, pediatr Sahib Cəfərov da qanun layihəsinin problemin həllinə meydan açacağını söylədi:**




– Statistikaya görə, respublikamızda qeydə alınan nikahların təxminən 60 faizi qohumlar arasındadır. İrsi xəstəliklərin yayılma tempi 15 faiz təşkil edir. Bunlar arasında ən çox yayılanı talassemiyadır. Bu xəstəliyin daşıyıcıları arasında qohumla evlənmə faizi yüksəkdir. Onların isə dünyaya xəstə uşaq gətirmə ehtimalı 25 faizdir. Uşaqların ana bətnində ölməsi, hamiləliyin erkən bitməsi, ölü doğulma, ürək qüsuru, uşaqların aşağı çəki ilə dünyaya gəlməsi faktlarına ən çox qohum nikahlarında rast gəlinir. İnsan bu zaman bəlli bir genetik yüklə, mutasiya ilə doğulur. Xəstəliyin irsiyyət tipinə görə uşaq mütləq ya xəstə, ya da daşıyıcı olacaq.

Çoxillik təcrübəmə əsaslanıb valideynlərə demək istəyirəm ki, qohumluq bağlarını möhkəmlətmək və ya nəyinsə naminə balalarınızı oda atmayın. Qohum və erkən evliliyi unudun. Xəstəliklə uzunmüddətli mübarizə insanın ömrünü həm mənəvi, həm də fiziki cəhətdən qısaldır. Milli Məclisdə qaldırılan bu məsələ, əminəm ki, gələcəkdə sağlam nəsil yaranmasına təkan olacaq.

**Bakı şəhəri Sabunçu Rayon İcra Hakimiyyəti başçısının müavini Rəna Vəliyevanın açıqlaması:**



– Qanunvericilikdə qeyd olunur ki, üzürlü səbəb olduqda, müvafiq icra hakimiyyəti orqanı nikah yaşının 1 il müddətinə azaldılmasına icazə verə bilər. Üzürlü səbəb sözü artıq problem yaradırdı. Nikaha daxil olmaq istəyən şəxslərin yaxın qohumlarının, valideynlərinin xəstəliyi, uzunmüddətli ezamiyyət, başqa ölkəyə köçmək və ən çox rast gəlinən hamiləlik məsələsidir. Biz yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi işi üzrə komissiya olaraq bu məsələləri müzakirə edəndə baxırdıq ki, nə nənənin, nə atanın xəstəliyi, nə ezamiyyətə getmək məsələsi uşaqların hüquqlarını müdafiə etmir.

Burada yeganə hal hamiləlik məsələsidir ki, biz belə olanda nikah yaşının azaldılmasına razılıq verirdik. Çünki hamilənin qeydiyyata alınması, doğulan uşağın sosial hüquqlarının müdafiəsi istiqamətində lazımi tədbirlərin görülməsi məqsədilə nikah bağlanmalıdır. 16–18 yaş arası cinsi azadlıq belə erkən hamiləliyə səbəb olur. O da özlüyündə uşaq evliliyinin bir il azaldılmasına təkan verir. İlk növbədə, 16–18 yaş arası cinsi azadlıq qadağan olunmalıdır ki, bu hal erkən evliliyə yol açmasın. Çünki biz cinsi azadlığa razılıq veririksə qızların hamilə olması ehtimalını da düşünməliyik.

**Genetik Ehtiyatlar İnstitutunun doktorantı, Şəfa Müalicəvi Diaqnostika Mərkəzinin həkim-genetiki Mircavid Müslümov da qanuna dəyişikliyin günün tələbindən irəli gəldiyini vurğuladı:**



– Hazırda dünyada 8 mindən çox genetik xəstəlik müəyyən edilib. Statistikaya əsasən yeni doğulanların təxminən 2 faizi irsi xəstəliklər və ciddi inkişaf qüsurları ilə dünyaya gəlir. Genetik xəstəliklər, ya ana bətnində döldə öz-özünə və ya irsi olaraq valideynlərdən genetik kodlarda baş verən dəyişikliyin bizlərə ötürülməsi ilə əmələ gəlir. Normal halda hər kəs düşünür ki, nəslimizdə genetik xəstəlik yoxdur, buna görə də uşağımızda problem olmaz. Amma bu, tamamilə yanlış fikirdir. İstər qohum, istərsə də yad evliliklərdə genetik xəstə uşaq doğulması ehtimalı var.

Qohumla qurulan ailələrdə yad evliliklərə nisbətən qüsurlu uşağın doğulma ehtimalı iki dəfə çoxdur. Təbii ki, yadlarla qurulan evliliklərin daha çox olması arzuolunandır ki, gizli keçən xəstəliklər özünü büruzə verməsin və xəstə uşaqlar doğulmasın. Dünyada ailə quranların 20 faizi qohumlardır. Xəstə doğulan uşaqların 8,4 faizi bu ailələrin payına düşür. Qohum evliliklərində ən çox rast gəldiyimiz qan, sümük-əzələ, ürək-damar sistemi və metobolik xəstəliklərdir. Araşdırmalara görə, daun sindromu hər 800 doğuşdan bir olursa, tək gen xəstəlikləri hər 100 doğulanın birində üzə çıxır.

Qanun layihəsinə münasibət bildirən ekspertlərin ümumi fikri belə oldu ki, erkən və qohum evliliklərə, nəhayət, hüquqi baxımdan son qoyulmalıdır. Bu, cəmiyyətə sağlam uşaq verməyin düzgün yoludur.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Erməni polisi döyür...

## *Qərb isə üzünü yana çevirir*

**Maraqlı dövrdə yaşayırıq. Əslində, burada "maraqlı" sözünü "biabırçı" ifadəsi ilə əvəz etsək, daha məntiqli olardı. Çünki birinə bir söz, digərinə başqa söz deyilən dünyada nəfəs alırıq. Axı necə olur ki, özünü mütərəqqi dünyanın ölkələri elan edən Qərb Ermənisanda polis zorakılığına göz yumur, Gürcüstanda polisin qanuni tələblərinə tabe olmayanlara qarşı həyata keçirilən tədbirləri kəskin tənqid edir? Məsələ gün kimi aydındır, Ermənistan Qərbin yeni "ovudur" və erməni polisi istədiyi kimi sıravi İrəvan sakinini dəyənək altına sala bilər. Çünki Qərbin maraqlarına cavab verən istənilən ölkədə polis özbaşınalığına "yaşıl işıq" yandırılır.**

Hələ 2019-cu ilin iyununda Ermənistan parlamentinin o zamankı spikeri, indi isə xarici işlər naziri Ararat Mirzoyan həm ölkə daxilində, həm də xaricdə çoxlarında gülüşə səbəb olan bəyanat səsləndirmişdi. Mirzoyan qürurla bildirmişdi ki, "...bu gün Ermənistan azadlığın və demokratiyanın qalasıdır". Əlbəttə, sonrakı daxili siyasi proseslər də göstərdi ki, erməni "demokratiyası" boş söz, saxta, aldatmacadır. Çox keçmədi ki, "bütün dövrlərin və xalqların demokratı" Nikol Paşinyan siyasi düşmənlərinin ovuna başladı. Paşinyan sırf qisas hissi ilə keçmiş rəqibləri Robert Köçəryanı və Serj Sarqsyanı



təqib etdi. Erməni baş naziri bu iki qatil sabiq prezidenti Azərbaycana qarşı cinayət əməllərinə görə təqib etmirdi. Əsla! Sadəcə, N.Paşinyan bu iki canidən şəxsi qisasını alırdı. "Siyasi əqidəsindən asılı olmayaraq hər bir insanın hüquqları qorunmalıdır" deyən Qərb isə erməni baş nazirinin qanunazidd addımlarına zəruri reaksiyanı göstərmirdi.

İndi də eyni mənzərəni müşahidə edirik. İrəvanda polis etirazçıların başına dəyənək endirir, gözyaşardıcı qaz sıxır, səsli qumbaralar atır, hətta bundan bir nəfər biləyindən olur, Qərbdə məzar sükutu hökm sürür. Guya bütün dünyada demokratiya və insan haqlarının müdafiəsinə qalxan Qərb dünyası Ermənistanda baş verən çoxsaylı pozuntu faktlarına biabırçılıqla göz yumur. Maraqlıdır ki, iyunun 12-də parlament qarşısına toplaşan etirazçılara İrəvan polisinin zorakılıq tətbiq etdiyini hökumət də etiraf edir. Məsələn, Ermənistan prezidenti Vaaqn Xaçaturyan bildirib ki, iyunun 12-də "Vətən naminə Tavuş" aksiyasının təşkilatçıları tamam başqa məntiqlə hərəkət etdiyindən polis parlament binası yaxınlığında güc tətbiq etməyə məcbur olub. Amma videokadrlardan da görünür ki, polis etirazçılara qarşı güc tətbiqində həddə aşır.

Əslində, ilk dəfə deyil ki, İrəvan polisi zorakılıq nümayiş etdirir. Bunu sabiq Ombudsman Arman Tatoyan da bildirib. Onun sözlərinə görə, polisin nümayişçilərə qarşı zorakılığı Ermənistan hakimiyyətinin birbaşa göstərişi ilə həyata keçirilib: "İyunun 12-də Baqramyan–Dəmirçyan kəsişməsində parlamentin binası qarşısında baş vermiş zorakılıq və polisin mitinq iştirakçılarına qarşı xüsusi vasitələrdən istifadə etməsi halları kobud qanun pozuntusu ilə həyata keçirilib".

A.Tatoyan qeyd edib ki, polis xüsusi vasitələrdən istifadə etməzdən əvvəl daimi və düzgün məlumat verməli, onlardan istifadənin əsaslarını göstərməlidir: "Gözyaşardıcı qaz qumbaralarının və digər oxşar qurğuların insanlara vurduğu zərəri nəzərə alaraq addım atılmalıdır. Mitinq iştirakçılarının polis əməkdaşları tərəfindən qrup şəklində və fərdi şəkildə döyülməsi cinayət məsuliyyətinə səbəb olur".

A.Tatoyan əmin olduğunu vurğulayıb ki, iyunun 12-də hökumət başçısının polisin, o cümlədən cinayət cəzası nəzərdə tutulan hərəkətlərini dəstəkləyən siyasi bəyanatlarla çıxış etməsi polisin daha radikal addım atmasına əsas verdi: "Parlament sədri səs qumbaralarından istifadəni dərhal "ədalətli" hesab etdi, halbuki buna onun haqqı çatmırdı. Bu bəyanatlar zorakılıq və nümayişçilərə qarşı xüsusi vasitələrdən istifadə baxımından hüquq-mühafizə orqanlarının əməkdaşlarına "sərbəst hərəkət etmələri" üçün siyasi siqnaldan, cəzasızlıqdan başqa bir şey deyil". Onun sözlərinə görə, bu hərəkətlər nəticəsində həm nümayişçilər, həm də polislər zərər görüb.

Ermənistan KİV-i yazır ki, xüsusi texnikanın tətbiqi nəticəsində 10-a yaxın media nümayəndəsi xəsarət alıb, redaksiya avadanlıqları zədələnib. Mətbuatda aksiyanın keçirildiyi ərazidə işləyən jurnalistlər və operatorlar istiqamətində səs-küylü qumbaraatanların hədəfə alındığına dair görüntülər yayılıb. Üstəlik, internet resurslarında çox sayda videogörüntülər var ki, onlarla polis əlləri ilə başını və üzünü qorumağa çalışan nümayişçiləri sərt şəkildə döyür. Ermənistan polis rəisi polislərin bu hərəkətlərinə haqq qazandırmağa çalışıb, ancaq hadisələrin videogörüntüləri bunun əksini göstərir.

Yerli insan hüquqlarının müdafiəsi təşkilatları da erməni polisinin zorakılığından bəhs edirlər. Amma Qərbdən Paşinyan hökumətini qoruyan polisin etirazçılara qarşı qanunazidd əməllərini qınayan bəyanatlar səsləndirilmir. Arminfo.am saytının yazdığı kimi, "2018-ci ilə qədər Ermənistanda insan hüquqlarını canfəşanlıqla müdafiə edən hüquq müdafiə təşkilatları və xarici diplomatik nümayəndəliklər məzar sükutunu saxlayırlar".

***S.ELAY***
***XQ***

# Borçalıda icma mərkəzləri yaradılır




**Gürcüstanda yaşayan azərbaycanlıların Avropaya daha asan inteqrasiyasına kömək etmək üçün həm dövlət, həm qeyri-hökumət təşkilatları, həm də ayrı-ayrı vətəndaşlar tərəfindən müəyyən addımlar atılır. Bu işlərdən biri də azərbaycanlı gənclər üçün icma mərkəzlərinin yaradılmasıdır.**

Bu sözləri Gürcüstanın Bolnisi rayonunun Arıxlı kənd icma mərkəzinin direktoru Çinarə Nəbiyeva XQ-yə açıqlamasında bildirdi. İ.Cavaxişvili adına Tbilisi Dövlət Universitetini bitirdikdən sonra doğma kəndində gürcü dili müəllimi işləyən soydaşımız həm də Bolnisi meriyasında tərcüməçi vəzifəsini icra edir. Onun sözlərinə görə, Gürcüstan parlamentinin deputatı Qoqi Meşvelianinin təşəbbüsü ilə azərbaycanlıların kompakt yaşadığı 4 kənddə – Arıxlı, Faxralı, Kəpənəkçi və Darvazda gənclərin asudə vaxtlarının səmərəli keçməsi üçün icma mərkəzləri yaradılıb.

İcma mərkəzinin rəhbəri daha sonra dedi: "Ölkədə yaşayan milli azlıqların vətəndaş cəmiyyətinə inteqrasiyası elə formada həyata keçirilməlidir ki, onların etnik və milli mənsubiyyəti qorunub saxlanılsın. Mərkəzlərin açılması olduqca vacib layihədir və ümid edirəm ki, bu məkanlar yerli azərbaycanlıları narahat edən bəzi məsələlərin həllində, onların milli, mədəni və mənəvi irsinin təbliğində mühüm rol oynayacaq".

Müsahibimiz əlavə etdi ki, yeni yaradılmış icma mərkəzlərində gənclərə layihə hazırlamaq qaydaları, hüquqların qorunması, zorakılığa qarşı mübarizə, büdcə planlaşdırılmasında iştirak və milli bayramların keçirilməsinin təşkili və s. kimi məsələlər öyrədilir. Bundan başqa, ölkənin milli-mənəvi, mədəni, tarixi irsi, həmçinin Azərbaycan və gürcü tarixi abidələri ilə tanışlıq üçün gənclərin ekskursiyaları təşkil olunur. Mərkəzlərdə Azərbaycan və gürcü dillərində uşaq kitabxanasının açılması üçün artıq rayon meriyasına müraciət olunub. Bu məsələnin tezliklə öz həllini tapacağı gözlənilir.

***Paşa ƏMİRCANOV***
***XQ***

# Özbəkistanda Azərbaycan Mədəniyyəti Günləri

## Ortaq dəyərlərin qardaşlıq təntənəsi

**Özbəkistanda keçirilən Azərbaycan Mədəniyyəti Günləri davam edir. Paytaxt Daşkənddə və bölgələrdə keçirilən müxtəlif tədbirlər ortaq dəyərlər üzərində zəngin mədəniyyətlər yaratmış xalqlarımızın qardaşlıq təntənəsinə çevrilib.**



### Mədəniyyət nazirlərinin görüşü

Özbəkistanda keçirilən Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində dost ölkənin mədəniyyət naziri Azodbek Nazarbekov Azərbaycanın mədəniyyət naziri Adil Kərimli ilə görüşüb.

Azodbek Nazarbekov Adil Kərimlini salamlayıb, Özbəkistanda baş tutan Azərbaycan Mədəniyyəti Günlərinin əhəmiyyəti haqqında danışıb, Azərbaycanın mədəniyyət və incəsənət xadimlərinin böyük bir qrupunun Daşkəndə gəlməsindən məmnunluq ifadə edib. Nazir vurğuylayıb ki, özbək xalqı Azərbaycan ədəbiyyatına və mədəniyyətinə həmişə məhəbbətlə yanaşıb.

Adil Kərimli Azərbaycan nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə və ikitərəfli görüşə görə təşəkkürünü bildirib, Azərbaycan incəsənət ustalarının Özbəkistana böyük sevgi və sayqı ilə gəldiklərini vurğulayıb.

Söhbət zamanı qeyd olunub ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycanın mədəniyyət naziri Adil Kərimlini qəbul etməsi Özbəkistan dövlət başçısının Azərbaycan xalqına, bu ölkə ilə münasibətlərə böyük diqqət yetirməsinin və mədəniyyətimizə olan rəğbətinin təzahürüdür. Özbəkistan Prezidenti Azərbaycanla birgə mədəni layihələrin həyata keçirilməsinin əhəmiyyətini vurğulayıb. Dövlət başçısı görkəmli özbək və Azərbaycan şairləri Əlişir Nəvai və Məhəmməd Füzuliyə həsr olunan filmin çəkilməsi ilə bağlı təklif səsləndirib və bu haqda müzakirə aparılıb.

Nazirlər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

### "Qılınc və qələm" özbək dilində



Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində böyük Azərbaycan yazıçısı Məmməd Səid Ordubadinin mərkəzin təşəbbüsü ilə çap edilən "Qılınc və qələm" romanının özbək dilində nəşrinin təqdimatı keçirilib.

Mərasimi Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi açaraq "Qılınc və qələm" romanının özbək dilində tərcüməsi və nəşrinin ədəbiyyatşünaslıq üçün böyük bir hadisə olduğunu qeyd edib. Azərbaycan Mədəniyyət nazirinin müavini Fərid Cəfərov klassik Azərbaycan ədəbiyyatının hər iki ölkənin mədəniyyətində, musiqisində xüsusi yer tutduğunu söyləyib. O, "Qılınc və qələm" romanının Azərbaycanın tarixinin, mədəniyyətinin, ədəbiyyatının öyrənilməsi baxımından çox dəyərli bir mənbə olduğunu qeyd edib.

Azərbaycan Yazıçılar birliyinin katibi Səlim Babullaoğlu "Qılınc və qələm" romanının böyük Azərbaycan şairi Nizami Gəncəvi haqqında ən dəyərli bədii mənbə olduğunu, əsərin özbək oxucular tərəfindən böyük maraqla qarşılandığını deyib. Yazıçı Aqşin Yenisey, özbək professorlar Erkin Nuriddinov və Nurbay Cabbarov, Abdulla Uluqov romanın tarixi əhəmiyyətindən danışıblar. Vurğulanıb ki, dahi Nizami Gəncəvinin həyatından bəhs edən bu nadir əsər özbək oxucuları üçün faydalı mənbə olacaq.

Azərbaycanın Özbəkistandakı səfirliyi nəzdində Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov dahi şair Nizami Gəncəvinin özbək dilində nəşrinin hazırlanmasında professor Abdulla Uluqovun əməyini yüksək qiymətləndirib. O, Türkiyədə fəaliyyətini davam etdirdiyini bildirib, Nizami Gəncəvinin "Xəmsə"sinin türk dilinə tərcüməsi üzərində iş aparıldığını qeyd edib.

Sonda Azərbaycan xalq mahnıları və muğamlarımız səslənib.

* * *

Dünən axşam isə Daşkənddəki Mukimi adına Musiqili Teatrda Azərbaycanın Xalq artisti Rüfət Xəlilzadənin rəhbərliyi ilə Dövlət Rəqs ansamblı böyük konsert proqramı ilə çıxış edib.

Özbəkistan mədəniyyət nazirinin birinci müavini Avazxan Tacixanov, Azərbaycan mədəniyyət nazirinin müavini Fərid Cəfərov, qardaş özbək xalqının nümayəndələri, diasporumuzun üzvləri konsertdə olublar.

İki saat davam edən bədii təqdimatda ansamblın üzvləri Azərbaycan milli rəqslərini təqdim ediblər. Onların çıxışları sürəkli alqışlarla, "bravo" sədaları ilə qarşılanıb.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

**Daşkənd**

**Vaqif Səmədoğlu – 85**

**Bu günlərdə 85 illik yubileyi qeyd olunan bənzərsiz şair, dramaturq, ictimai xadim Vaqif Səmədoğlunu bizdən 10 illik zaman məsafəsi ayırır. Unudulmaz Xalq şairinin yubiley tədbirləri sırasında qiraət və şeir müsabiqələri, kitab sərgisi və elektron məlumat bazası, poeziya xatirə axşamı və sair tədbirlər qeyd edilə bilər.**

# 75 illik ömrün akkordları



"XQ" yubiley tədbirlərini geniş işıqlandırıb. İndi isə Vaqif Səmədoğlunun cismani ömrünün sonundan yadigar qalan həzin duyğulu, təsirli qeydlərini təqdim edirik:

Nədən başlayım?.. 75 yaş mənim üçün çox azdır. Yaşamaq istəyirəm, çox yaşamaq istəyirəm, Nüşabə xanımı daha çox görmək, səsini daha çox eşitmək istəyirəm.

Həyatım elə gətirib ki, dünyanın bir çox tanınmış insanlarını görmək mənə nəsib olub.

1951-ci ildə Kreml sarayında Yeni il şənliyi keçirilirdi. Yaxşı yadımdadır, Çexoslovakiyadan olan bir qızla vals oynayırdım. Birdən çaxnaşma düşdü, darvaza açıldı və Kommunist Partiyasının o vaxtkı rəyasət heyəti içəri daxil oldu. Əvvəllər mənə elə gəlirdi Stalin İçərişəhərin qoşa qala qapısından da keçməz, başı tirə dəyər. Sən demə, Stalin balaca bir kişiymiş. Ağ hərbi forma geyinmişdi, gözümü ondan çəkə bilmirdim.

Mən yaşda az adam olar ki, Boris Pasternakla araq içsin, Fadeyevlə, İlya Erenburqla görüşsün.

Azərbaycanda indi klassik dediyimiz insanların çoxuna "əmi" demişəm. Yaxşı xatirimdədir, bu muzeydə (Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyi nəzərdə tutulur – red.) Nizami Gəncəvinin portretinin müzakirəsi keçirilirdi. Birdən Zeynal Xəlil dedi ki, bu portretdəki kişilər hamısı çox gözəldir, nə bilirik, bəlkə, Nizami adi adam olub? Atam da razılaşdı, dedi ki, kişi düz deyir də, bəlkə, Nizami Gəncəvi elə Zeynala oxşayıb – ikisi də gəncəlidir axı...

Həyatımın ən parlaq səhifələrindən biri Moskva konservatoriyasında oxuduğum dövrdür. Təsəvvür eləyin, dəhlizlərlə gedirsən və bilirsən ki, nə vaxtsa bu dəhlizlərdən Çaykovski, Raxmaninov keçib.

Son vaxtlar əlim nə qələm tutur, nə də piano çala bilirəm. Diktofon da mənlik deyil, bir neçə dəfə cəhd elədim, alınmadı. Get-gedə xatirələr elə qəlizləşir, elə qəddarlaşır ki, ha çalışırsan səni sevindirən yaxşı bir xatirə yada salasan, mümkün olmur. Xatirələrin qəddarlığı, sualların artması, cavabların tükənməsi məni incidir. Daha heç bir suala cavabım yoxdur. Görünür, ölümün müdrikliyi də budur, dünyaya suallarla gəlib, ömür boyu bu sualların cavabları ilə mübarizə aparıb, elə suallarla da ölürük. Suallara məğlub oluruq… Bu, dəhşətli məğlubiyyətdir.

Amma rahat ölürsən, çünki bilirsən ki, sənin kimi başqaları da bu suallara cavab tapa bilməyib. Bütün suallara cavab tapılsaydı, Allahın necə olduğunu, kim olduğunu və harada olduğunu bilərdik. Görünməsə də, bir işarə verərdi.

Üç-dörd ay əvvəl məşhur gürcü kinorejissoru, dostum Otar İoseliani Parisdən zəng vurmuşdu, ağlaya-ağlaya dedi ki, Vaqif, istəmirəm Gürcüstan kapitalizmin cənginə keçsin. Elə bunu deyib dəstəyi asdı… Milli azadlıq hərəkatı oldu, meydanlara çıxdıq, mübarizə apardıq, amma indi görürəm ki, kapitalizmin bizə verdiyi azad ticarət, demokratiya özü də dəhşətli və cavabsız suallarmış.

Bilirsiniz, deməyə nə qədər söz var?.. Amma bu sözlərin qarşısını xərçəng adlanan bir açar bağlayıb, danışmağa qoymur. Yaxşı ki, düşünməyə, arzulara mane ola bilmir.

Mən bilmirəm ölüm yaxındır, ya uzaq, mən bilmirəm ölüm istidir, ya sazaq. Bircə onu bilirəm ki, mən ölsəm, Nüşabə yazıq olacaq...

Ölümdən qətiyyən qorxmuram, inanın səmimiyyətimə. Bilmədiyim şeydən niyə qorxmalıyam ki?.. Üstümə quduz it gəlsə, qorxaram, bilərəm ki, quduzdur. Üstümə ac pələng şığısa, gizlənərəm. Amma ölümdən qorxmuram. Bilmirəm axı necədir, siması nədir…

O dünyadan da qətiyyən qorxmuram. Bilmirəm orada neçə dil var, məsafə necə ölçülür, çəki vahidi nədir, məhəbbət varmı?.. Hər halda məhəbbət olsa, pis olmaz. Ancaq bir şərtlə ki, mən öləndən əlli il sonra Nüşabə xanım da gəlsin, ona təzədən aşiq olum və deyim ki, mən səni sevirəm.

Nə deyim?.. Ölüm haqdır. Bəxtimdən yas məclisləri də ucuzlaşıb. Dünyamı dəyişsəm, hamınızı bəri başdan yasıma dəvət eləyirəm, gözüm üstə yeriniz var.

Ay Allah, bircə arzum var: öləndən sonra tək olanda kiminsə yadına düşüm. Ağlamasa da, gözləri dolsun...

***XQ***

**Babək Qurbanov – 85**

# Dünya mədəniyyətinə pəncərə açan estetik

**Xalq Şairi Osman Sarıvəlli ocağının alim övladı professor Babək Qurbanovun 85 yaşı tamam oldu. İstedadlı alimin ömür yoluna qısaca nəzər saldıqda onun nə qədər sadə, həm də zəngin bir həyat yolu keçdiyinə şahidlik edirik.**



Alim 1967-ci ildə 28 yaşında "Musiqi ilə ədəbiyyatın qarşılıqlı əlaqəsi" mövzusunda namizədlik dissertasiyasını, 42 yaşında isə Moskvada SSRİ Elmlər Akademiyasının Fəlsəfə İnstitutunda doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir.

Babək müəllim müxtəlif illərdə mötəbər qurumlarda – AMEA Fəlsəfə və Hüquq İnstitutu, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Ərzurum Atatürk Universiteti, Qaziantep Universiteti Türk Musiqisi Dövlət Konservatoriyasında elmi-pedaqoji fəaliyyət göstərmişdir. O, Moskva, Sankt-Peterburq, Kiyev, Donetsk, Varna, Stokholm, Tiflis, Vilnüs, İrəvan, Daşkənd, Bakı, Gəncə, Ankara, Bursa, Bolu, Konya, Van, Ərzurum, Qars, Antaliya, Niğdə, İstanbul, Diyarbəkir, Sivas, Ankara, Nevşəhər, Şanlı Urfa, Ardahan, Kosova, Makedoniya və s. şəhərlərdə 30-dan çox beynəlxalq elmi konqres və simpoziumlarda aktual mövzularda məruzələri ilə elmi ictimaiyyətin diqqət mərkəzində olmuşdur.

Babək müəllimin ərsəyə gətirdiyi 700-dən çox publisistik və elmi-nəzəri əsərləri (musiqi nəzəriyyəsi, ifaçılığı, heykəltəraşlıq, rəssamlıq, kino sənəti, sənət fəlsəfəsi və s.) fundamental əhəmiyyəti ilə seçilmişdir. Onun dünya sivilizasiyasına daxil olmuş Leonardo da Vinçi, Parfenon, Mikelancelo, Rafael, Pikasso, Levitan, Lansare, Şişkin, O. Kiprensi kimi sənətkarlara həsr etdiyi elmi araşdırmaları bunu bir daha təsdiqidir. Babək Qurbanovun Puşkin, Lermontov, Yesenin, Çaykovski, Asafyev kimi rus şair və bəstəkarlarının həyat və yaradıcılığına həsr etdiyi məqalələr də onun dünya ədəbiyyatı və incəsənətinə dərindən bələd olduğunu təsdiqləyir. Dediklərimiz öz yaradıcılığında dünyaca ünlü sənət dühalarına və örnəklərinə yer vermiş müəllifin tükənməyən yaradıcılıq potensialının göstəriciləridir.

Babək Qurbanovun Türkiyə ilə Azərbaycan arasında mədəni əlaqələrin inkişafı yolunda əvəzi olmayan, ardıcıl və çoxşaxəli fəaliyyət göstərdiyini də xüsusi vurğu ilə söyləyə bilərik. İki qardaş ölkədə elmi kadrların hazırlanması işində Babək Qurbanovun peşəkarlığını qeyd etmək lazımdır. Fərqli elmi araşdırmalar sahəsində çalışan 33 aspirantın dissertasiya işlərinə elmi rəhbərlik etmiş, onların musiqişünaslıq, sənətşünaslıq, musiqi estetikası sahəsində özlərinin təsdiqinə yaxından kömək etmiş və imkan yaratmışdır.

Ömrünü elmə, mədəniyyətə, incəsənətə, pedaqoji fəaliyyətə həsr etmiş böyük alim Babək Qurbanovun nurlu xatirəsi onu tanıyan və sevənlərin qəlbində əbədi yaşayacaqdır. Böyük şairimiz Səməd Vurğunun dediyi kimi, ölüm sevinməsin qoy – Babək müəllim kimi insanları əməlləri yaşatmaqdadır. Onun fərqli mövzulardakı bəstələrini səsləndirən Gaziantep Universitetinin professoru Əfqan Zəki Salehin professional ifası və tələbəsi Bəkir Yolaçanın 2016-cı ildə lentə aldığı "Qürbətin musiqisi" adlı filmi ilə Babək müəllimə əbədi bir həyat bəxş ediblər.

Ruhun şad olsun, ustad. Böyük Türk dünyasının mədəniyyət və incəsənətinə töhfə etdiyin dəyərli əsərlərinlə də hər zaman ehtiramla yad ediləcəksən.

***İlqar İMAMVERDİYEV,***
***Türkiyənin Qaziantep Universitetinin professoru, sənətşünaslıq elmləri doktoru***

**Xalça Muzeyində xarici sərgi**

# Monteneqro: mədəni "Müxtəlifliyin gözəlliyi"



**Azərbaycan Milli Xalça Muzeyində sənətsevərləri və ziyarətçiləri bir araya gətirən "Müxtəlifliyin gözəlliyi" adlı rəsm sərgisi ölkəmizin dünya xalqlarının milli və mədəni dəyərlərinə ən yüksək səviyyədə hörmət bəsləməsinin növbəti təzahürü oldu.**

Ekspozisiyada sənət əsərləri vasitəsilə Monteneqro xalqının milli kimliyi və mədəni bötövlüyü, həyat tərzi, dini və etnik xüsusiyyətləri, habelə dünya mədəniyyəti müstəvisindəki yeri barədə bilgilər ilk dəfə Azərbaycan tamaşaçılarına təqdim edilib.

Açılış mərasimində bu barədə məlumat verən Milli Xalça Muzeyinin direktoru Əminə Məlikova qeyd etdi ki, sərgidə təqdim edilən geyim nümunələri Monteneqronun mədəni özəlliklərinin zənginliyini tam ifadə etməklə yanaşı, eyni zamanda, tolerantlıq ənənələrini nümayiş etdirir. Azərbaycanlı ziyarətçi sərgidə olarkən təəccüb və doğmalıqla Monteneqronun geyimləri sırasında "dolama", "ləbbadə" və sair geyimlərin adları ilə rastlaşacaq. Mədəni, etnik və dini müxtəliflik, bu müxtəlifliyin qorunub saxlanılması və inkişaf etdirilməsi Monteneqro ənənəvi mədəniyyətini unudulmaz edir.

Nümayiş olunan eksponatlar həm gündəlik, həm də bayram, həm kəndli, həm də şəhərli, həm zadəgan, həm də sadə insanların geyimlərini əyani olaraq nümayiş etdirir.

Milli Məclisin deputatı Rəfael Hüseynov bildirdi ki, sərgi müxtəlifliyin gözəllik çərçivəsində birləşməsinə həsr olunub: "Monteneqro Azərbaycan üçün həm tarixində, həm mədəniyyətində, həm də düşüncə tərzində doğma ölkədir. Hər iki ölkənin mədəni bağlılıqlarında yeni bir mərhələ başlayır. Balkan ölkəsindən gələn nümunələri seyr elədikcə iki xalq arasında zövq yaxınlığını, düşüncə ortaqlığını, duyğu eyniliyini hiss edirsən. İki ölkə arasında diplomatik əlaqələr, siyasi münasibətlər öz yerində, bu sərgi onu göstərir ki, hər iki xalqın mənəvi cəhətdən bir-birinə yaxınlığının öz mənası var".

Monteneqro Milli Muzeyinin direktoru, rəssam Yakşa Çalasan, bu ölkədəki Tarix Muzeyinin direktoru Filip Kuzman sərginin əhəmiyyətindən, iki xalq arasındakı mədəni əlaqələrin hazırkı vəziyyətindən və gələcək əməkdaşlıq əlaqələrindən bəhs etdilər.

Sərgidə fərqli mədəniyyətlərin bir-birinə qarşılıqlı təsirindən yaranan 170-dən artıq eksponat yer alır. Bunlara Qədim Balkan, Roma, Bizans, yunan və slavyan irsinin özəlliklərini əks etdirən XIX-XX əsrlərə aid ənənəvi geyimlər, aksesuarlar, zərgərlik nümunələri, silahlar və digər məmulatlar aiddir. Salonunda qədim Monteneqro xalqının milli kimliyinin vacib elementinə, əsas atributuna çevrilən, çoxsaylı nəbati, həndəsi, zoomorf motivlərlə bəzədilmiş rəsmi geyim dəstlərini də görmək mümkündür.

Xatırladaq ki, Azərbaycan Mədəniyyət Nazirliyinin, Monteneqro Mədəniyyət və Media Nazirliyinin dəstəyi, Azərbaycan Milli Xalça Muzeyi və Monteneqro Milli Muzeyinin təşkilatçılığı ilə açılan sərgi avqustun 31-dək ictimaiyyət üçün açıq olacaq.

***Ceyhun ALIŞLI,***
***jurnalist***

# Masallı şəhid və qazilərinin hünər dastanı

**Masallı Gənclər Evində jurnalist Akif Ağayevin "Fitrətimizdədir vətənpərvərlik" kitabının təqdimat mərasimi keçirilib. Təqdimatda rayon rəsmiləri, idarə-müəssisə rəhbərləri, şəhid ailələri, Vətən müharibəsi iştirakçıları, Cəbrayıl, Füzuli, Şuşa və Xocalı sakinləri, ağsaqqal və ziyalılar, gənclər iştirak ediblər.**



Mərasimi giriş sözü ilə açan "Tərəqqi" medallı veteran jurnalist Əyyub Mehdiyev Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Yeni həyat" ictimai-siyasi qəzetinin baş ədəbi işçisi, "AZpressTİMES.info" saytının redaktoru Akif Ağayevin yaradıcılığı və "Fitrətimizdədir vətənpərvərlik" kitabı barədə qısa məlumat verib. O, bildirib ki, filologiya elmləri doktoru, AMEA Ədəbiyyat İnstitutunun ədəbi tənqid şöbəsinin müdiri, Əməkdar mədəniyyət işçisi Vaqif Yusiflinin ön söz yazdığı, Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair-publisist Arif Fərzəlinin redaktoru olduğu kitabda I və II Qarabağ müharibələrində, eləcə də antiterror əməliyyatları zamanı ölümü gözə alan şəhid və qazilərimizin şərəfli ömür yolu barədə, eləcə də vətənpərvərlik mövzusunda maraqlı yazılar yer alıb.

Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev, Əməkdar jurnalist Zakir Abbas, "Masallı ziyalıları" İctimai Birliyinin sədri Qardaş Fətullayev, Vətən Müharibəsi Qəhrəmanı, polkovnik Rəşad Nadirov, Şuşa şəhər sakini Rafiq Abbasov Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, müzəffər ordumuzun rəşadəti ilə qazanılan böyük Zəfərdən danışaraq, qələmi ilə müsəlləh əsgərə dönən yazarlarımızın rolunu, o cümlədən Akif Ağayevin yeni kitabını yüksək dəyərləndiriblər. Kitabın bədii məziyyətlərindən və ictimai-siyasi əhəmiyyətindən bəhs edən natiqlər belə nəşrlərin gənclərə vətənpərvərlik hisslərinin aşılanmasında, Azərbaycan salnaməsində yeni tarix yazan qəhrəman oğullarımızın tanıdılmasında müstəsna rolunu qeyd ediblər.

İki şəhid – Nurlan və İntiqam Əsgərli qardaşlarının anası Ziba Əsgərova övladları ilə bağlı xatirələrini bölüşüb, kitabın müəllifinə, nəşrinə dəstək olanlara təşəkkür edib.

Akif Ağayev bu şərəfli missiyanı özünün mənəvi borcu kimi səciyyələndirib, şəhidlərin xatirəsinin əbədiləşdirilməsi məqsədilə yazılan kitabın ərsəyə gəlməsində əməyi olan hər kəsə minnətdarlığını bildirib.

Sonda kitab müəllifin imzası ilə iştirakçılara paylanıb.

***Ağaddin BABAYEV***

İki dövlət, bir millətin hünər ünvanı

# Qəhrəmanmaraşda Azərbaycan məhəlləsi



**Maraş Türk tarixinə qəhrəmanlıqlıq dastanları yazmış bir bölgədir. XIX yüzilin sonlarında bu bölgədəki Zeytunda ilk erməni üsyanları yaşanmışdır. Sonralar da Osmanlı İmperiyasının I Dünya Müharibəsinə girməsindən istifadə edən ermənilər siyasi məqsədlərinə çatmaq və dövləti daxildən çökdürmək üçün işğalçı Qərb dövlətlərinin tələsinə düşərək türk ordusuna arxadan və vəhşicəsinə hücum etməyə başladılar, bölgənin müdafiəsiz insanlarını qətlə yetirdilər.**

Burada yaşayan ermənilər həmişə üsyana hazır olduqlarından ancaq kənardan əmr veriləcəyini gözləyirdilər. Bu həssas vəziyyətdən istifadə edən Fransa və İngiltərənin Çanaqqala müharibələrinin ən şiddətli anlarında ermənilərə verdikləri təlimatlarla onları üsyana sövq etdilər. Maraş uzun illər atəş yerinə döndü. Dünya savaşı sonrası Maraş şəhərini işğal edən Fransa ordusunun tərkibindəki erməni legionu günahsız insanları qətlə yetirərək, əhalini buradan çıxarıb ermənilərin yerləşməsinə nail olmaq istədilər.

Onlar burada erməni dövləti qurmaq məqsədi ilə müsəlman əhalinin qətllərini təşkil etdilər. Lakin maraşlılar bu planın həyata keçməməsi üçün qəhrəmancasına mübarizə apardılar. Qurtuluş savaşı illərində də maraşlılar fransız və erməni işğalçılarına lazımi dərs verib onları öz torpaqlarından təmizləməyə nail oldular. Təsadüfi deyil ki, Maraşa "qəhrəman" adı verilmişdir, indi o Kahramanmaraş adı ilə gələcəyə addımlayır.

Keçən il 6 fevral tarixində Türkiyədə mərkəzi Qəhrəmanmaraş olmaqla ən faciəli hadisələrdən biri – dəhşətli zəlzələ baş verərkən qardaş ölkəyə ilk yardım əlini uzadan Azərbaycan oldu.

Azərbaycan dərhal axtarış-xilasetmə qruplarını zəlzələ bölgəsinə göndərmiş, ərzaq və digər lazımi yardımları çatdırmış, zəlzələ qurbanlarına sığınacaq vermək üçün çadır və konteyner şəhərcikləri yaratmışdır.

Qəhrəmanmaraşın tam mərkəzində Azərbaycan məhəlləsinin inşası qərarının alınması iki ölkənin qardaşlığının nümunəsidir. Burada Azərbaycan bulvarının və Azərbaycan məhəlləsinin salınması Azərbaycanın qardaş köməyinin bir rəmzinə çevrilmişdir. Burada 1000 evin inşasını Azərbaycan öz öhdəsinə alıb. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə bir çox binanın təməli atılmış, hazırda onların inşası tamamlanmaq üzrədir. Azərbaycan məhəlləsində işlər sürətlə gedir, burada yaşayış yerləri ilə yanaşı, parkinqlər, məktəblər və sağlamlıq sahələri də olacaq. Yaşıllıq zolaqları da salınır.

Qəhrəmanmaraş Böyükşəhər Bələdiyyəsinin yeni seçilmiş başçısı Fırat Görgel Azərbaycanın buradakı işlərindən razılığını ifadə edir, zəlzələdən zərər çəkmiş insanlar üçün edilənləri əsil qardaşlıq nümünəsi sayır.

Ailə üzvlərinin bir neçəsini itirmiş 68 yaşlı Oğuz Taner Azərbaycan sevgisini belə ifadə edir: "Fəlakətin ilk günü yardıma gələnlərin azərbaycanlılar olduğunu görüncə hansı hisslər keçirdiyimi ifadə edə bilmirəm. Bir neçə il öncə Azərbaycanın Qarabağdakı Zəfərinə necə sevinmişdimsə, eyni hissləri həmin an yaşadım. Amma bu sevgi başqa bir sevgi idi, qardaşlığın nə demək olduğunu göstərən hüznlü sevgi idi. İndi biz Azərbaycanın şəhərimizin ən mərkəz hissəsində necə gözəl bir məkan yaratmasının şahidiyik. Azərbaycan məhəlləsi qardaşlıq simvolu olacaq".

***Qafar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

Mirzə Şəfi Vazeh – 230

# Gəncə şair oğlunu ehtiramla yad etdi

**"Mirzə Şəfi Vazeh və dünya ədəbiyyatı" mövzusuna həsr olunan konfrans Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Gəncə Şəhər İcra Hakimiyyəti, Azərbaycan Milli Elmlər Akademiyası və onun Gəncə bölməsi tərəfindən birgə təşkil edilib.**



Elmi tədbirə Gəncə bölməsinin əməkdaşları ilə yanaşı, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun, Lənkəran Regional Elmi Mərkəzin, həmçinin Naxçıvan və Mingəçevir Dövlət universitetlərinin alim və tədqiqatçıları da qatılıblar.

İştirakçılar konfransın keçirildiyi AMEA Gəncə Bölməsinin böyük iclas salonunun foyesində elmi nəşr və tarixi sənədlərdən təşkil edilmiş sərgiyə baxıblar. Mirzə Şəfi Vazehin yaradıcılığı ilə bağlı olan, Almaniyada saxlanılan əlyazmaların fotosurətləri böyük maraq doğurub.

Tədbiri güriş sözü ilə AMEA-nın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev açaraq qeyd edib ki, böyük şair və maarifçi Mirzə Şəfi Vazeh ədəbiyyatımızın görkəmli nümayəndəsi olmaqla yanaşı, Azərbaycanın poetik düşüncə və ənənələrinin Avropada tanınmasında böyük rolu olan mütəfəkkirdir.

Akademik Fuad Əliyev ulu öndər Heydər Əliyevin milli maraqlarımızın və mənəvi-ideoloji intibahımızın hədəfləri naminə strateji xəttinin bir hissəsi olaraq, tariximizdə və ədəbiyyatımızda özünəməxsus yer tutmuş görkəmli şəxsiyyətlərin tanıdılması və irsinin əsaslı şəkildə öyrənilməsinin vacibliyinə xüsusi diqqət yetirdiyini vurğulayıb.

Sonra konfransın plenar iclasının məruzələri dinlənilib. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutundan Aytən Qurbanova "Mirzə Şəfi Vazeh və türk dünyası", AMEA Gəncə Bölməsi Humanitar Tədqiqatlar İnstitutundan Ruziyə Quliyeva "Divani-hikmət" ədəbi məclisi", bölmənin Nizami Gəncəvi Mərkəzindən Əlimuxtar Muxtarov "Mirzə Şəfi Vazeh irsinə dövlət qayğısı: Ulu öndər Heydər Əliyevdən Prezident İlham Əliyevə", AMEA Lənkəran Regional Elmi Mərkəzindən Fəranə Mikayılova "Divani-hikmət" ədəbi məclisi mədəniyyətlərarası körpüdür", AMEA Gəncə Bölməsi Nizami Gəncəvi Mərkəzindən Aynur Mirişli "Mirzə Şəfi dünyasi" və Respublikanın Əməkdar artisti, gəncəli bəstəkar Məmməd Cəfərov "Mirzə Şəfi Vazehin sözlərinə yazılmış «Var» romansının təhlili" mövzularında çıxışlar ediblər.

Tədbirdə "Var" romansı Gəncə Musiqi Kollecinin tələbəsi olan gənc vokalçının ifasında səslənib. Gəncə Şəhər İcra Hakimiyyətinin şöbə müdiri Yadigar Bədəlov böyük şair və maarifçi Mirzə Şəfi Vazehin 230 illik yubiley tarixinə həsr olunan bu konfransın işini yüksək qiymətləndirib və iştirakçılara uğurlar arzulayıb.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**

# Avropa–Çin ticarət savaşı: kim udacaq, kim uduzacaq?

## *Brüssel Pekinin elektromobil idxalına tarifləri artırır*

**(əvvəli 1-ci səhifədə)**

Bununla belə, Fransa indi Pekinin cavab olaraq zərbə endirə biləcəyi ilk ölkələrdən biri olmaq riskini daşıyır. Eyni zamanda, Brüsselin qərarı son deyil və yenidən nəzərdən keçirilə bilər.

Avropa İttifaqı Çinin elektrik avtomobillərinin Avropa avtomobil bazarına axınını ləngitmək barədə hələ keçən payızdan düşünməyə başlamışdı. O vaxta qədər Çin şirkətlərinin Aİ-dəki payı 2019-cu ildəki 1 faizdən 8 faizədək yüksəlmişdi və 2025-ci ilə qədər 15 faizə çatacağı proqnozlaşdırılırdı. "Rhodium Group" tədqiqat şirkətinə görə, Çin elektrikli avtomobillərinin Avropaya idxalı 2020-ci ildəki 1,6 milyard dollardan 2023-cü ildə 11,5 milyard dollara yüksəlib. Eyni zamanda, Çin elektrik avtomobillərinin qiymətləri Aİ-də istehsal olunan modellərə nisbətən 20 faiz aşağıdır və avropalılar bunu Çin avtomobil sənayesinin Pekin tərəfindən ədalətsiz subsidiyasının nəticəsi hesab edirlər.

Ötən ilin oktyabr ayında Avropa Komissiyası antidempinq araşdırmasına başladığını elan etmişdi. Bunun nəticəsində Brüssel avropalılarla rəqabətin daha bərabər və ədalətli olması üçün Çindən gələn elektrik avtomobillərinə idxal rüsumlarını nə qədər artıracağına qərar verəcəyini bildirmişdi. İyunun 12-də məlum oldu ki, AK iyuldan etibarən Çinin elektrik avtomobillərinə əlavə rüsumlar tətbiq edəcək. Xarici KİV tariflərin Çinin BYD avtomobilləri üçün əlavə tarif 17,4 faiz, "Geely" markalı maşınlar üçün 20 faiz, SAIC avtomobilləri üçün isə 38,1 faiz təşkil edəcəyini yazır.

AK bildirir ki, bu fərq, Çin şirkətləri tərəfindən alınan dövlət subsidiyalarının müxtəlif səviyyələri ilə bağlıdır. Çində Avropa Komissiyasının araşdırması ilə əməkdaşlıq edən bütün digər elektrik avtomobil istehsalçıları orta hesabla 21 faiz, əməkdaşlıqdan imtina edənlər isə 38,1 faiz tariflə üzləşəcəklər. Eyni zamanda, Çin avtomobilləri ilə yanaşı, Çində istehsal olunan bir sıra Avropa markalarının avtomobilləri, məsələn, BMW üçün də tezliklə artan rüsumlar tətbiq olunacaq. Maraqlıdır ki, Çin avtomobilləri üçün tariflərin artırılması ideyasının ən fəal tərəfdarı, faktiki olaraq Brüssel tərəfindən araşdırmaya başlamaq üçün lobbiçilik edən Fransa olub. Hətta Pekinin antidempinq araşdırması çərçivəsində fransız konyak istehsalçılarından qisas alacağı ilə hədələməsi də Parisi bu yoldan dönməyə məcbur etmədi.



Lakin Almaniya, əksinə, əvvəldən Çin avtomobil sənayesinə hər hansı bir məhdudiyyətin tətbiq olunmasına qarşı çıxırdı. Çünki Berlin Çin bazarında mövcud olan ən böyük avtomobil istehsalçılarının taleyindən qorxurdu. Almaniyanın kansleri Olaf Şolz ötən şənbə günü Almaniyanın avtomobil sənayesinin nümayəndələri ilə görüşdə bildirmişdi ki, Berlin daxili avtomobil bazarını xarici şirkətlərə bağlamaq istəmir, çünki adekvat cavab veriləcəyini bilir. Eyni zamanda, tariflərin artırılmasının qarşısını almaq mümkün olmadığını anlayan almanlar AK-ni rüsumları 15 faizə qədər qaldırmağa inandırmağa çalışırdılar. Bundan başqa, Almaniya önləyici addımlar da atır. Belə ki, iqtisadiyyat naziri Robert Habekin gələn həftə Çinə səfər edərək, məsələni yerində müzakirə edəcək.

Əlbəttə, Aİ-nin qərarı Çində xoş qarşılanmadı. Çin Xarici İşlər Nazirliyinin sözçüsü Lin Jian Brüsseldən verilən xəbərə cavab olaraq bildirib ki, "Subsidiyalara qarşı bu araşdırma tipik bir proteksionizm hadisəsidir". O əlavə edib ki, tariflər təkcə Çin və Aİ arasında ticarət və iqtisadi əməkdaşlığa deyil, həm də qlobal avtomobil istehsalı və təchizat zəncirinin sabitliyinə zərər verəcək.

Təbii ki, Çin əvvəllər Avropa araşdırmalarına səssizcə baxmırdı, xüsusən də Brüssel təkcə elektrik avtomobilləri deyil, Çinin ixrac etdiyi günəş panelləri və külək turbinlərini də hədəfə aldığından Pekin narazılığını daim bildirirdi. "Politico" saytının məlumatına görə, elektromobillər üçün rüsumların artırılması ilə bağlı gözlənilən açıqlamadan az əvvəl Çin Ticarət Nazirliyi Avropa ticarət komissarı Valdis Dombrovskisə beş səhifəlik məktub göndərərək onları ticarət müharibəsindən əl çəkməyə çağırıb. Eyni zamanda, Pekin Aİ-nin bunu həyata keçirəcəyi təqdirdə cavab tədbirləri tətbiq edəcəyi vədləri baxımından tərəddüd etmir. Çinin ticarət naziri Vanq Ventao bu ayın əvvəlində İspaniyada olarkən xəbərdarlıq edib ki, avropalılar Çin şirkətlərini sıxışdırmağa davam edərsə, Çin öz müəssisələrinin qanuni maraqlarını qətiyyətlə qorumaq üçün bütün lazımi tədbirləri görəcək.

Üstəlik, bu dəfə Çin konkret hədəf göstərməmək ənənəsindən uzaqlaşıb. Xarici KİV yazır ki, Pekin artıq Aİ-nin kənd təsərrüfatı və aviasiya sektorlarını hədəf alacağı barədə xəbərdarlıq edib ki, bu da ilk növbədə Fransaya son dərəcə həssas zərbə olacaq. Çin hökumətinin "Global Times" qəzetinin yazdığına görə, Pekin artıq 2023-cü ildə birlikdə təxminən 5 milyard avro təşkil edən donuz əti və süd məhsullarının Aİ-dən idxalı ilə bağlı antidempinq araşdırması imkanlarını nəzərdən keçirir. Aİ-nin hazırkı qərarının nəticələri ilə bağlı gözləntilərin acınacaqlı olması təəccüblü deyil. "Təəssüf ki, bəzi əks-tədbirlər artıq işdə görünür. Ticarətdən əlavə, bu tariflər Çin və AB arasında onsuz da kövrək olan gərginliyi artıra bilər", - Aİ Çin Ticarət Palatası Euractiv-ə şərhində bildirib.

İndi hamı noyabr ayını gözləyir, çünki həmin ayda yekun variant təsdiqlənləməlidir. Hələ vaxt var. Avropalılar yekun qərar qəbul edəndə çox güman ki, mütəxəssislərin bu sözlərinə diqqət edəcəklər: "Reaksiya və nəticələr ticarət müharibəsinə səbəb ola bilər ki, bu da yüksək iqlim hədəflərinə çatmaq üçün hələ də Çin tədarük zəncirlərindən çox asılı olan bir bölgə üçün dağıdıcı olacaq".

***S.ELAY***
***XQ***

# Ermənistan Qərbin sanksiyalarına məhəl qoymur

**Bu ilin əvvəlindən Rusiyadan Avropa İttifaqına (Aİ) qeyri-sənaye xarakterli təbii və sintetik brilyant və brilyant zinət əşyalarının birbaşa idxalına qadağa qoyulub. Üçüncü ölkələrdə emal edilən rus almazlarına isə qismən Avropa embarqosu martın 1-dən qüvvəyə minib. Tam qadağa sentyabrın 1-dən tətbiq olunacaq. Bu, Aİ-nin tətbiq etdiyi 12-ci sanksiyalar paketində nəzərdə tutulub.**

Rusiya isə Qərbin Ukraynaya qarşı təcavüzünə görə tətbiq etdiyi sanksiyalardan yan keçmək üçün istənilən boşluqlardan istifadə edir. Öz məhsullarını ixrac etmək üçün 3-cü ölkə kimi Ermənistanı seçib. İxracın həcmi isə hər il artır.

## "Qışqıran" statistika

Rusiya qiymətli daşları və qızıllarının təkrar ixracının (reeksport) artması ilə bağlı xəbərlər ötən ilin ortalarından Ermənistan mətbuatında yer almağa başlayıb. Rəsmi statistikaya görə, 2023-cü ildə Ermənistan 1,8 milyard dollarlıq qızıl və 589 milyon dollar dəyərində brilyant ixrac edib. Bu da Ermənistan iqtisadiyyatı üçün rekord göstəricidir. Bu il də tədarüklər artmaqda davam edib. 2024-cü ilin birinci rübündə qızıl ixracı 2,5 milyard dollar, almaz ixracı isə 185 milyon dollar olub. Ermənistanda bu "xammalın" emalı da kəskin şəkildə - 31 faiz artıb.

Bununla yanaşı, istər keçən il, istərsə də bu ilin yanvar-mart aylarında Ermənistana, əsasən, Rusiyadan almaz və qızıl idxalı eyni sürətlə artıb. "2023-cü ildə Ermənistan 4,5 milyon karat almaz ixrac edib ki, bu da respublikanın özündə istehsal olunandan 30 dəfə çoxdur. Ötən ilin noyabrından Ermənistan 4 milyard dollar dəyərində Rusiyaya qızılı ixrac edib. Göründüyü kimi, xammal Rusiyadan daxil olur və burada emal olunaraq təkrar ixrac olunur.

İqtisadçılar qeyd edirlər ki, Ermənistan faktiki olaraq Rusiya daşları və qızıllarının, xüsusən Dubay və Honq Konqa tədarükü üçün tranzit kanalına çevrilib. Məhz BƏƏ və Çinə keçən ildən etibarən Ermənistandan ixracın həcmində anormal artım müşahidə olunur. "2022-ci ildə Rusiyadan çıxarılan pulun əhəmiyyətli hissəsi Ermənistanda məskunlaşıb. Bu vəsaitlər erməni kanalları vasitəsilə Rusiya ilə BƏƏ arasında almaz və qızıl alveri zamanı istifadə olunur".

Belə görünür ki, Rusiya qızıl və qiymətli daşlarının ixracına tamamilə qadağa qoyulmasına baxmayaraq, bu, onların Ermənistan vasitəsilə təkrar ixracının logistikasına mane olmur. Aprel ayı üçün məlumatlar hələ açıqlanmayıb, lakin rəsmi statistikaya görə almaz ixracı mart ayında davam edib. Məsələ ondadır ki, Ermənistanın ixracı ilə bərabər idxalının böyüməsi də milli iqtisadiyyatın tələbatına əsaslanmır. Avropa, Asiya, Yaxın Şərq və digər region ölkələri ABŞ və Aİ-nin Rusiyaya qarşı sanksiyalarından ehtiyat edərək öz mallarını birbaşa deyil, məhz Ermənistan üzərindən çatdırır.



Düzdür, Ermənistanda vasitəçilər dəyişib. Əgər əvvəllər Rusiya almazlarını yerli "Ai-Almast" dövlət şirkəti Rusiyanin "Alrosa" şirkətindən topdansatış alırdısa, indi alıcı dəyişib. Buna Aİ sanksiyalarının tətbiqi səbəb olub. "Artıq bir neçə aydır ki, "Ai-Almast" Rusiyanın "Alrosa" şirkətindən emal olunmamış almaz almır. İndi biz almazları əsasən Afrika ölkələrindən idxal edirik",– "Ai-Almast"ın icraçı direktoru Tiqran Xaçatryan bildirib. Onun sözlərinə görə, təbii almazların hasilatı və ticarəti üzrə dünyanın ən böyük şirkəti olan "De Beers" ilə də danışıqlar aparılır.

## Almaz "təkrar ixrac"ı

Ermənistandan Rusiya almazlarının təkrar ixracı isə davam edir. Bu o deməkdir ki, Ermənistanın dövlətə məxsus "Ai-Almast" şirkətinin yerini başqaları tutub. İndi onlar özəl müəssisələrdir. "Hetq" nəşri Ermənistandan ən çox almaz ixrac edən üç böyük özəl şirkətin adını çəkib. Onlardan biri Ermənistan hakimiyyəti ilə, daha dəqiq desək, parlamentdə hakim "Mülki müqavilə" partiyasından olan iri biznesmen Xaçatur Sukiasyanla əlaqələri olan "ADM DIAMONDS LLC" şirkətidir. Üç ən böyük almaz ixracatçısından biri də 2022-ci ilin aprelində qeydiyyatdan keçmiş "VDA DIAMONDS" MMC-dir. Onun sahibi Rusiya vətəndaşı, almaz emalı DDK şirkətinin təsisçisi Vithalbhaem Ramanidir. Ermənistandan böyük miqdarda brilyant ixrac edən üçüncü şirkət isə ölkənin zərgərlik və almaz bazarında 10 ilə yaxındır fəaliyyət göstərən "DIMEX CAPITAL" şirkətidir.

Bu faktlar onu sübut edir ki, Ermənistan Rusiya mallarının tranzitinin fəal iştirakçısıdır və ABŞ və Avropa İttifaqının Rusiyaya qarşı sanksiyalarını açıq-aşkar pozur.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***


## Ləğvetmə prosesində olan "Gəncə Universam" QSC səhmdarlarının nəzərinə!

31 iyul 2024-cü il saat 10.00-da səhmdarların növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. Cəmiyyətin ləğvetmə balansının təsdiq edilməsi.
2. Cəmiyyətin qalıq əmlakının səhmdarlar arasında bölünməsi planını əks etdirən hesabatın təsdiq edilməsi.
3. Cəmiyyətə məxsus səhmlərin ləğv edilməsi və dövriyyədən çıxarılması.
4. Digər məsələlər.

Ümumi yığıncaq Gəncə şəhəri, H.Əliyev prospekti 149 nömrəli ünvanda keçiriləcəkdir.Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün hər həftənin iş günləri saat 10.00-dan 13.00-dək cəmiyyətin ləğvetmə komissiyasına müraciət edə bilərlər. Əlaqə nömrəsi: +994222664592.

***Ləğvetmə komissiyası***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 125 (30529) 14 iyun 2024-cü il, cümə

İDMAN

## Milli çövkənin növbəti qələbəsi

**Bakıda çövkən üzrə dünya çempionatı davam edir.**



Binə Atçılıq Mərkəzində təşkil edilən yarışda millimiz Malta ilə görüşdə 5:0 hesablı qələbə qazanıb. Azərbaycan yığması iki turdan sonra mübarizə apardığı A qrupunda maksimum nəticə ilə liderlik edir.

Qeyd edək ki, yığmamız ilk görüşdə Qazaxıstanı 5:0 hesabı ilə məğlub edib. Komanda A qrupunda Türkiyə, Özbəkistan, Qazaxıstan və Malta ilə mübarizə aparır.

## Dünya çempionatında bürünc medal

**Azərbaycan şahmatçısı Ayan Allahverdiyeva Hindistanın Qandinaqar şəhərində gənclər arasında keçirilən dünya çempionatında bürünc medal qazanıb.**



İti zəka sahibi 11 turda 8,5 xal toplayıb. Azərbaycanın digər təmsilçiləri Nərmin Abdinova və Səbinə Rzalı isə mükafatçılar sırasına düşə bilməyiblər.

İsveçrə sistemi ilə keçirilən yarışda 44 ölkədən 102 şahmatçı mübarizə aparıb.

## Olimpiyaçımız Dünya kubokunda

**Akademik avarçəkmə üzrə millimizin lideri Diana Dımçenko bu gün Dünya kubokunun sonuncu - üçüncü mərhələsində mübarizəyə başlayır.**




Polşanın Poznan şəhərində iyunun 16-dək davam edəcək yarış Paris Yay Olimpiya Oyunları öncəsi idmançımız üçün həm də sınaq xarakteri daşıyacaq.

Qeyd edək ki, Dımçenko “Paris-2024”-ə lisenziya qazanıb.

***L.QURBANOVA***
***XQ***

Avropa çempionatı – 2024

# Futbol bayramı başlayır

**Bir neçə saatdan sonra 2024-cü il futbol üzrə Avropa çempionatının açılış mərasiminə start veriləcək. Futbol azarkeşlərinin böyük maraqla və səbirsizliklə gözlədikləri və bir ay davam edəcək turniri izləmək üçün Almaniyaya 3 milyon azarkeş toplaşacaq. 12 milyon turist isə sadəcə bu sehirli futbol mühitinə köklənmək üçün Almaniyanın 10 şəhərinə səyahət edəcək.**






Mötəbər turnirin açılış matçı bu gün - iyunun 14-də Bakı vaxtı ilə saat 21:00-da Münxendəki “Alyans-arena”da 67 min azarkeşin qarşısında keçiriləcək. Açılış matçında turnirə evsahibliyi edən Almaniya millisi Şotlandiya yığma komandası ilə qarşılaşacaq.

Əvvəlki turnirlərdən fərqli olaraq, bu futbol bayramının açılışı elə də təmtəraqlı olmayacaq. Lakin bu ənənəni pozmaq da doğru olmazdı. Adətən turnirin açılış mərasimini oyuna 20-30 dəqiqə qalmış musiqiçilərin çıxışları, təmtəraqlı şou və atəşfəşanlıq müşayiət edir. Amma bu dəfə deyəsən ənənə pozulacaq...

Əminliklə demək olar ki, futbol azarkeşləri elə ilk matçdan başlayaraq böyük ehtirasla turnirin əsas favoritlərindən sayılan Almaniya millisinin oyununa köklənəcəklər. Avro 2024-ün əsas favoritlərindən sayılan Almaniya millisinin yer aldığı A qrupunda rəqibləri Şotlandiya ilə yanaşı, Macarıstan və İsveçrə millilərdir.

UEFA 2024-cü il Avropa çempionatının Almaniya və Şotlandiya yığmaları arasında keçiriləcək açılış oyununa Klement Tyurpinin rəhbərliyi altında çalışacaq Fransanın hakimlər briqadasını təyin edib.

Almaniya millisi üçün bu turnirin özünəməxsus əhəmiyyəti var. Komandaya kumiri Tomas Tuxel və ideoloji ilhamçısı Pep Qvardiola olan 36 yaşlı Yulian Naqelsmann rəhbərlik edir. O, Şotlandiya ilə açılış oyunundan sonra rəsmi olaraq Avropa çempionatları tarixində ən gənc məşqçi statusunu alacaq. Həmin gün onun 36 yaşı tamam olacaq.

Bu mənada alman mütəxəssis həm də Avropa çempionatını qazanan ən gənc mütəxəssis ola bilər. İndi bu rekord 44 yaşlı Xose Villalonqaya məxsusdur. Onun rəhbərliyi altında İspaniya komandası 1964-cü ilin finalında SSRİ yığmasını məğlub edib.

Alman məşqçiyə Vətənində qeyri-müəyyən münasibət var: bəziləri onu "şahmat" futboluna görə sevir, bəziləri isə onun milli komanda üçün deyil, klub səviyyəsinə uyğun olan çox mürəkkəb fikirləri təbliğ etdiyinə inanır.

Onun heyətlə bağlı son təklifi də bir çox mübahisələrə səbəb olub. Naqelsmann bu turda meydana çıxacaq milliyə Mats Hummels, Yulian Brandt, Leon Qoretzka, Kərim Adeyemi və Serje Qnabrini çağırmayıb. Eyni zamanda, Robin Koç, Valdemar Anton və Maksimilian Bayeri son heyətə daxil edib. Bir çoxlarına görə bu heyət heç də - ən bariz heyət deyil. Ancaq bütün bunlar Naqelsmannın seçimidir, o isə gözlənilməz hərəkətlər etməyi sevir.

Hazırkı Almaniya millisinin əsas ulduzu bizim “Qarabağ” klubunu UEFA Avropa liqasından kənarlaşdıran “Bayer”in lideri Florian Virtzdir. Əslində 21 yaşlı yarımmüdafiəçi 2022-ci il dünya çempionatının kəşflərindən biri olmalı idi. Lakin sonradan aldığı ağır zədə hər şeyi alt-üst etdi. İndi o, dünyanın ən yaxşı "on" nömrələrindən biridir və Bundestemin əsas ümididir. Bu mənada, əlbəttə, Bundestim azarkeşlərinin gənc perspektivli liderdən yüksək performans və ya heç olmasa parlaq oyun gözləməyə haqqı var.

Bundestimin turnirdəki ilk rəqibi Şotlandiya ilk baxışdan sıradan bir komanda təsiri bağışlasa da, amma heç də belə deyil. Düzdür, çoxları bu millini açıq-aydın turnirin autsayderi hesab edir. Lakin unutmaq olmaz ki, bu Erlinq Hollan və Martin Edeqorun heyətində top qovduğu Norveçi Avropa çempionatında iştirakdan məhrum edən komandadır.

60 yaşlı Stiv Klarkın rəhbərliyi altında şotlandlar sərt, gücə üstünlük verən futboldan uzaqlaşdılar. İndi onlar sürətlə hücuma keçirlər, topla oynayırlar və pressinq edirlər. Bu heç də tipik Britaniya üslubu deyil, amma çox maraqlı görünür.

Qrup rəqibləri ilə müqayisədə Şotlandiyanın heç bir parlaq ulduzu yoxdur, xüsusən də hücum xəttində. Amma əla ifaçılar var: Kiran Tirni, Endryu, Robertson və Con Makqinn, eləcə də təsnifat mərhələsində 8 matçda 7 qol vuran Skott Maktominay. Ona görə də ilkin olaraq pley-offa yüksəlmək heç də möcüzə olmazdı.

### 1 nömrəli favorit

Son 8 ildə Avropa futbolunun lideri olan fransızların bu nəsli üçün Avropa çempionatı müəyyən dərəcədə “qu quşu nəğməsi”nə çevrilməlidir. Ona görə də dünyanın bir çox tanınmış futbol mütəxəssisləri Fransa millisini Avro-2024-ün aşkar favoritlərindən biri hesab edirlər. Həqiqətən də son illər Fransa millisi həm dünya, həm də qitə səviyyəsində çox inamla və yüksək nəticələr nümayiş etdirir. Dünya və Avropa çempionatlarının son dörd finalından üçündə məhz fransızlar iştirak edib.

Üç böyük dünya finalında (2018 və 2022-ci illərdə iki dəfə) və bir qitə turnirində (2016) iştirak “xoruzları” Avropa çempionatında üçüncü kuboku qazanmaq üçün əsas iddiaçılar sırasına qoyur. Məlum olduğu kimi, fransızlar əvvəllər 1984 və 2000-ci illərdə bu turnirin qalibi olublar. Hücum xəttində top qovanların 27,6 yaşına baxmayaraq, hələ də tam döyüş hazırlığındadırlar. Qətər 2022-dən sonra Jiru (37 yaş və millidə 131 oyun) və Qrizmann (33 yaş və millidə 127 matç) böyük hesablı qələbədən məhrum oldular. Lakin onların özlərini sübut edəcəkləri bir turnir hələ qalıb.

Klub səviyyəsində özünün şıltaqlığı ilə diqqət çəkən Kilian Mbappe 2018-ci ilin iyulunda "Lujniki"də turnirdə qol vuran ən gənc fransız futbolçu və Peledən sonra Dünya Kubokunun finalında qol vuran ilk 20 yaşadək futbolçu oldu. Yığmada keçirdiyi 77 oyunda 46 dəfə rəqib qapısına zərbələr endirib. 2022-ci il mundialının finalında het-




trik edən Mbappe, Cef Hörstdən (1966-cı ildə) sonra Dünya Kubokunun finalında üç qol vuran ikinci oyunçu oldu. Kilian Dünya Kubokunun iki finalında ardıcıl qol vurdu. Onun artıq böyük turnir matçlarında dörd dəfə hədəfə düşən rekordu var. İndi isə “Real” Madridə transfer Fransa millisinin əsas zərbə qüvvəsinə şübhəsiz böyük motivasiya verməlidir.

Avstriya, Hollandiya və Polşa milliləri ilə D qrupunda yer alan Fransa yığmasının, məşqçi Didye Deşamın heyətlə bağlı son anlaşılmaz qərarlarına baxmayaraq, bu turnirdə qalib olmaq şansları çox böyükdür və demək olar ki, qonşu Almaniyanın meydanlarında onlar 1 nömrəli favoritdirlər.

### Türkiyə ən gənc milli komandalardan biridir

Turnirin maraqlı məqamlarından biri də milli komandaların məşqçilərinin Avropa çempionatında iştirak üçün heyət formalaşdırarkən gənc istedadları təcrübəli oyunçularla birləşdirməyə çalışmalarıdır. Ümumilikdə, Almaniyada keçiriləcək turnirdə futbolçuların orta yaşı 27 olacaq. Amma əsasını gənclər təşkil edən milli komandalar da var.

Almaniyaya ən gənc heyəti Çexiya gətirəcək. Komandanın orta yaş həddi 25,3 ildir. Bu turnir onlar üçün artıq səkkizinci Avropa çempionatıdır. Komandaya 2024-cü ildən məşhur xokkey qapıçısı Dominik Haşekin əmisi oğlu 60 yaşlı İvan Haşek rəhbərlik edir. O, əvvəllər həm milli komandanı çalışdırıb, həm də Çexiya Futbol Assosiasiyasının rəhbəri olub.

Turnirdə iştirak edən ikinci ən gənc milli komanda isə 25, 8 illə Türkiyə millisidir. Qardaş ölkə Avropaya gənc istedadlarla dolu komanda aparıb. Avro–2024 turniri komanda üçün altıncı olacaq. Türkiyənin ən yüksək nailiyyəti Avro–2008-də yarımfinala çıxmaq olub. İndi isə türklər Xorvatiya millisini qabaqlayaraq, öz qruplarında birinci yerdən Avro–2024-ə vəsiqə qazanıblar. Yeri gəlmişkən, turnirdə türklər Çexiya ilə eyni qrupda çıxış edəcəklər.

Ümumi transfer dəyəri 324,1 milyon avro olan Türkiyə millisinin lideri və kapitanı 30 yaşlı yarımmüdafiəçi Hakan Çalxanoğludur. O, həm də komandanın ən bahalı oyunçusudur və transfer dəyəri 45 milyon avrodur. Çalhanoğlu təkcə müdafiədə deyil, həm də hücumda faydalı ola bilər. 2023/24 mövsümündə Hakan "İnter"in heyətində



İtaliya çempionu olub.

19 yaşlı türkiyəli iki istedad Arda Gülər və Kənan Yıldız turnirdə kapitanlarının köməkçisi olacaqlar. Arda Gülər ötən yay 20 milyon avroya "Fənərbaxça"dan “Real” Madridə keçib. Transfer qiyməti 30 milyon avro olan Yıldız isə İtaliya A Seriyasının kəşflərindən biridir. Türkiyəli gənc ulduz ötən mövsüm "Yuventus"da 32 oyun keçirib və 4 qol vurub.

Əminəm ki, milyonlarla futbol azarkeşi Avropa çempionatında qitənin ən yaxşı 5 liqasında yer alan ölkələri təmsil edən İngiltərə, Almaniya, İspaniya, İtaliya və Fransa komandalarını yaxından izləyəcəklər. Düşünürəm ki, onlardan biri çempion olacaq. Buna baxmayaraq, “Fənərbaxça"nın yeni baş məşqçisi Joze Mourinyo Almaniyada keçirilən Avropa çempionatının nəticələrinə özünəməxsus münasibət göstərib. Tanınmış futbol mütəxəssisi Portuqaliya millisini turnirin qalibi, İngiltərə komandasını gümüş mükafatçı, turnirin sürprizini isə Portuqaliya, İngiltərə və Fransadan başqa istənilən komandanı görür. Onun fikrincə, “bunlar üçü favoritdir və onlardan başqa istənilən komandanın, hətta Almaniya kimi yüksək statuslu komandanın uğuru” onun üçün təəccüblü olardı.

Əlbəttə, doğma ölkəsinin milli komandasını kim çempion görmək istəməz ki? Biz bu Avropa çempionatında Türkiyəni öz təmsilçimiz hesab edirik və təbii ki, azarkeşliyimiz də onun uğuru üçün olacaq. Amma nəticə nə olur-olsun, təki hakimlərin səhvləri, tərəfkeşlikləri və yanlışları azarkeşlərin futbol sevincinə peşmançılıq qatmasın. Belə olarsa, futbol turnirləri, həqiqətən, böyük bayram olaraq azarkeşlərə sevinc gətirəcək.

***İlqar RÜSTƏMOV***
***XQ***



## Abşeronda buludlu, bölgələrdə yağış, duman və külək...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyunun 14-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir.**

Günün birinci yarısında bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 20-24°, gündüz 30-35° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunu, nisbi rütubət gecə 50-55, gündüz 60-70 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən. dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 22-23° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 24-25° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi əsəcək, əsasən dağlıq və dağətəyi rayonlarda arabir güclənəcək. Havanın temperaturu gecə 20-24°, gündüz 30-35°, dağlarda gecə 13-18°, gündüz 18-23° isti olacaq.

***QQ ASIMOV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Asif Əsgərov Milli Məclisin vitse-spikeri Adil Əliyevə qardaşı

**ALLAHVERDİ ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

“Xalq qəzeti”nin kollektivi iş yoldaşları Rövşən Atakişiyevə əzizi

**HACI QILINCXAN NƏZƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4042
SİFARİŞ 1288
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV
Çapa imzalanmışdır 00:00